# XXI ƏSRƏ SÜLH KÖRPÜSÜ

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının İstanbul Zirvə görüşü ilə əlaqədar Türkiyəyə səfəri*

*17-20 noyabr 1999-cu il*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı-2000**

# OXUCUYA

*1999-cu il noyabrın 18-19-da dost və qardaş Türkiyənin qədim və əzəmətli İstanbul şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) yola salmaqda olduğumuz yüzillikdə sonuncu zirvə görüşü keçirildi.*

*Əsası 1975-ci ilin yayında Helsinkidə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi kimi qoyulmuş ATƏT ötən iyirmi beş il ərzində qitəmizin ən mötəbər beynəlxalq təşkilatına çevrilmişdir. O, hazırda bütün bəşəriyyət üçün ən önəmli olan Avropada təhlükəsizlik və əməkdaşlıq problemlərini həll etmək kimi şərəfli bir missiyanı öz üzərinə götürmüşdür. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dediyi kimi, ATƏT "yarandıqdan indiyə qədər həqiqətən dünyada həm sülhün, həm təhlükəsizliyin, həm də insan haqlarının qorunması, demokratiyanın inkişafı üçün çox böyük səylər qoyur və bu prinsiplərin həyata keçirilməsi üçün həddən artıq fəaliyyət göstərir".*

*Yarandığı vaxt Avropanın 33 dövlətinin, habelə ABŞ və Kanadanın iştirak etdikləri ATƏT-in nüfuzu getdikcə güclənmiş və hazırda onun üzvlərinin sayı 54-ə çatmışdır. 90-cı illərin əvvəlində SSRİ-nin dağılması nəticəsində yaranmış yeni müstəqil dövlətlərin bir çoxu, o cümlədən Azərbaycan Respublikası da (1992) ATƏT-ə daxil olmuşdur.*

*Azərbaycan müstəqil dövlət kimi 1994-cü ildən bu mötəbər təşkilatda fəal iştirak edir. Respublikamızın Prezidenti Heydər Əliyev 1994-cü və 1996-cı illərin dekabrında ATƏT-in Budapeşt və Lissabon zirvə görüşlərində dövlətimizi təmsil etmişdir. Azərbaycan Prezidentinin ATƏT-ə daxil olan digər ölkələrin dövlət və hökumət başçıları, nümayəndə heyətləri ilə birlikdə, bərabər hüquqda bu toplantılarda iştirakı, ardıcıl, məqsədyönlü və qətiyyətli işi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin haqlı mövqeyinin bütün dünyaya çatdırılmasında, münaqişənin həlli prinsiplərinin müəyyən edilməsində mühüm rol oynamışdır.*

*Bu gün, təəssüf ki, ATƏT-in, digər beynəlxalq təşkilatların göstərdikləri səylərə baxmayaraq dünyanın, eləcə də Avropanın bir çox regionlarındakı münaqişə ocaqları hələ də sönməmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də belələrindəndir. Dağlıq Qarabağda baş qaldırmış separatçılıq, Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları Azərbaycan Respublikasını uzun sürən münaqişəyə cəlb etmişdir. 1988-ci il-*

*dən başlayaraq Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzündən sonra torpaqlarımızın 20 faizi işğal olunmuş, bir milyondan çox azərbaycanlı yurd-yuvasından didərgin salınmış, yüzlərlə şəhər və kəndimiz xarabazara çevrilmişdir.*

*1994-cü ilin dekabrında Macarıstanın paytaxtı Budapeştdə keçirilmiş zirvə görüşündə Prezident Heydər Əliyevin səyi və təşəbbüsü ilə ATƏT-in Minsk konfransı həmsədrlərinin təsisatı yaradılmışdı ki, bu da vasitəçilərin fəaliyyətində əlaqəsizliyi, paralelliyi aradan qaldırmağa imkan vermiş və ATƏT üzvü olan dövlətlərin münaqişənin sülh yolu ilə həll edilməsinə yönəlmiş səylərinin əlaqələndirilməsi mexanizmini nizama salmışdır. ATƏT-in 1996-cı ilin dekabrında keçirilmiş Lissabon sammitinin nəticələri Azərbaycan diplomatiyasının böyük nailiyyəti olmuşdur. Zirvə görüşündə Azərbaycan Prezidentinin qətiyyətli mövqeyi və əzmkarlığı sayəsində ATƏT Sədrinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair qəbul edilmiş bəyanatında Azərbaycanın ərazi bütövlüyü prinsipi dəstəklənmiş, ATƏT-in üzvü olan 54 ölkədən 53-ü bu qərarın lehinə, yalnız Ermənistan əleyhinə səs vermişdir.*

*Respublikamızın rəhbərinin ATƏT-in İstanbul sammitinə yola düşərkən hava limanında jurnalistlərə müsahibəsində dediyi kimi, ölkəmizin nümayəndə heyəti bu zirvə görüşünə də Azərbaycanın mənafelərini qorumaq və bununla bağlı məsələlərin həyata keçirilməsinə nail olmaq niyyəti ilə getmişdi.*

*Tarixə "İstanbul zirvə görüşü" adı ilə düşəcək bu sammitin Türkiyədə keçirilməsi qardaş ölkənin bütün dünyada yüksək nüfuzunun daha bir təsdiqi olmaqla yanaşı, Türkiyə Respublikası, ümumən türkdilli xalqlar üçün çox böyük, əlamətdar hadisəyə çevrildi.*

*Prezident Heydər Əliyevin zəngin dövlətçilik və diplomatik təcrübəsi, şəxsi nüfuzu, incə və düşünülmüş siyasi xətti sayəsində İstanbul sammiti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllinə bir daha tərəfdar çıxdı.*

*ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçıları öz çıxışlarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmamasından narahatlıq ifadə etdilər və sülhyaratma prosesində səyləri artırmağa çağırdılar. Eyni zamanda natiqlər münaqişə tərəflərini təmsil edən dövlət başçılarının ikitərəfli görüşlərinin zərurililiyini qeyd edərək, dialoqu dəstəklədiklərini bildirdilər.*

*Sammit iştrakçıları tərəfindən qəbul edilmiş İstanbul bəyannaməsinin ayrıca bir bəndi münaqişənin həlli məsələlərinə həsr olunmuşdur. Həmin bənddə ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyəti qiymətləndirilməklə yanaşı, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərinin bu münaqişənin sülh yolu ilə həlli prosesini dinamikləşdirdiyi qeyd olunmuşdur.*

*ATƏT sammiti ərəfəsində, noyabrın 17-də Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş zirvə görüşü region dövlətlərinin əməkdaşlığının genişləndirilməsi işinə yeni təkan verdi. Görüş iştirakçılarının qəbul etdikləri İstanbul bəyannaməsində regionda sülh, təhlükəsizlik və sabitliyin təmin olunmasında qarşılıqlı surətdə faydalı əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin müstəsna əhəmiyyəti vurğulanmışdır.*

*Sammit günlərində ABŞ Prezidenti Bill Klintonun iştirakı ilə Bakı-Ceyhan əsas ixrac neft kəməri haqqında tarixi sazişin və Transxəzər qaz kəməri haqqında sənədin imzalanması Azərbaycanın həqiqətən də XXI əsrə böyük siyasi və iqtisadi perspektivlərlə qədəm qoyduğunu göstərir.*

*Bütün təzyiqlərə, manealərə baxmayaraq Azərbaycan Prezidentinin qətiyyətli və ardıcıl siyasəti, əzmkarlığı sayəsində baş tutmuş bu hadisə Prezident Heydər Əliyevin həyata keçirdiyi qlobal neft strategiyasının əsl təntənəsinə çevrilərək, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadi tərəqqisi üçün geniş yol açdı.*

*Səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyevin dövlət və hökumət başçıları, Avropa qurumlarının rəhbərləri ilə keçirdiyi görüşlər, apardığı danışıqlar ölkəmizin qarşılaşdığı ən ağır problem olan Ermənistan -Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılmasında, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadi tərəqqiyə qovuşması sahəsində mürəkkəb vəzifələrin həllinə yönəlmişdir.*

*İstanbul sammiti çox böyük hadisələr, siyasi sarsıntılar və təlatümlərlə zəngin olan XX əsrin siyasi tarixində, şübhəsiz ki, xüsusi yer tutacaqdır. ATƏT-in zirvə toplantısında Avropanın və dünyanın gələcəyi üçün mənası və əhəmiyyəti çox böyük olan tarixi qərarlar qəbul edildi, mühüm sənədlər imzalandı. Bu sənədlər XX əsrdə imzalansa da, onlar XXI əsrə doğru etibarlı sülh və əməkdaşlıq körpüsü salmışdır.*



# İSTANBUL ZİRVƏ GÖRÜŞÜ: SÜLH ZAMANIN HÖKMÜDÜR


*Azərbaycan Prezidenti Heydər Əliyev İstanbula yola düşdü*

*Atatürk hava limanında qarşılanma mərasimi*

*ATƏT-in zirvə görüşü öz işinə başladı*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi*

*Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin nitqi*

*Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun nitqi*

*Fransa Respublikasının Prezidenti Jak Şirakın nitqi*

*Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinin nitqi*

*Finlandiya Respublikasının Prezidenti Martti Ahtisaarinin nitqi*

*İsrail Dövlətinin Baş naziri Ehud Barakın nitqi*

*Norveçin Baş naziri Kyel Maqne Bondevikin nitqi*

*Gürcüstanın Prezidenti Eduard Şevardnadzenin nitqi*

*Ermənistan Respublikasının Prezidenti Robert Koçaryanın nitqi*

*Avropada adi silahlı qüvvələr haqqında müqavilə imzalandı*

*ATƏT-in zirvə görüşü başa çatdı*





# Azərbaycan Prezidenti Heydər Əliyev İstanbula yola düşdü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti zirvə görüşündə iştirak etmək üçün noyabrın 17-də Türkiyənin İstanbul şəhərinə yola düşdü.

Prezident Heydər Əliyev yola düşməzdən əvvəl Bakının Binə hava limanında yerli və xarici jurnalistlərin suallarına cavab verdi.

**Sual**: Cənab Prezident, qardaş Türkiyə Respublikasına növbəti səfəriniz barədə nə deyə bilərsiniz?

**Cavab**: Mən qardaş Türkiyə Respublikasına həmişə çox böyük həvəslə və məhəbbət hissi ilə gedirəm. Çünki bu, bizim üçün dost ölkədir. Mən çox məmnunam ki, XX əsrin sonunda ATƏT-in zirvə görüşü məhz Türkiyədə, - İstanbulda keçirilir. Bu, türk dünyası üçün və Türkiyə Cümhuriyyəti üçün, eləcə də bizim üçün çox böyük, əlamətdar hadisədir. Xalqımız, türk xalqı bununla fəxr edə bilər.

Məqsədimiz aydındır - zirvə görüşündə iştirak etməkdir. Bilirsiniz ki, ATƏT-in zirvə görüşü dünya beynəlxalq təşkilatlarının ən mötəbər görüşlərindən hesab olunur. Çünki ümumiyyətlə, ATƏT 25 il bundan öncə yarandıqdan indiyə qədər həqiqətən dünyada həm sülhün, həm təhlükəsizliyin, həm də insan haqlarının qorunması, demokratiyanın inkişafı üçün çox böyük səylər qoyur və bu prinsiplərin həyata keçirilməsi üçün həddən artıq fəaliyyət göstərir.

Ona görə də Azərbaycanın müstəqil dövlət olaraq inkişaf etməsi, ümumiyyətlə bu təşkilatda olması və zirvə görüşündə iştirak etməsi - dünyanın ATƏT-ə daxil olan ölkələrinin dövlət başçıları, nümayəndə heyətləri ilə birlikdə iştirak etməsi, əlbəttə ki, bizim millətimiz üçün, Azərbaycan xalqı üçün çox əhəmiyyətlidir. Biz bununla fəxr edə bilərik. Biz fəxr edə bilərik ki, ölkəmiz, millətimiz, dövlətimiz müstəqildir və biz müstəqil dövlət olaraq dünyanın böyük dövlətləri ilə bərabər hüquqda belə bir taş-



kilatdayıq və bu təşkilatın zirvə görüşündə onlarla bərabər hüquqda iştirak edəcəyik. Məqsəd bundan ibarətdir.

Orada müzakirə olunacaq məsələlər məlumdur. Mən bu yaxınlarda bir qrup yazıçı və şairlə görüşümdə də bu barədə demişəm. Hər halda ATƏT-in üçüncü zirvə görüşüdür ki, mən Azərbaycanı təmsil edirəm. Birinci zirvə görüşü 1994-cü ilin dekabr ayında Budapeştdə, ikincisi 1996-cı ilin dekabr ayında Lissabonda - Portuqaliyada olmuşdur. Nəhayət, indiki görüş İstanbuldadır. Çox məmnunam ki, Azərbaycan təmsil olunubdur. Azərbaycanın Prezidenti kimi, mən Azərbaycanı təmsil edəcəyəm və əvvəlki zirvə görüşlərində olduğu kimi, Azərbaycanın milli mənafelərinə aid olan məsələlərin, şübhəsiz ki, həyata keçirilməsinə nail olacaq və nail olmağa çalışacağam. Azərbaycanın milli mənafeləri tamamilə qorunacaqdır.

**Sual**: Cənab Prezident, Azərbaycan bu görüşdən nə gözləyir?

**Cavab**: Hazırda bütün Avropa nə gözləyirsə, Azərbaycan da onu gözləyir. Çox şey gözləyir. Xartiya - Avropa regionunda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi, demokratiyanın, Helsinki sazişinin digər prinsiplərinin inkişafı üçün bir çox vacib müddəaları əks etdirən siyasi bəyannamə qəbul olunacaqdır. Yəni, çox şey gözlənilir.

**Sual**: Cənab Prezident, Bakı-Ceyhan boru kəməri haqqında anlaşma imzalanacaqmı?

**Cavab**: Bakı-Ceyhan boru xətti ilə bağlı anlaşma üzərində bir ildir ki, çalışırıq. Bilirsiniz ki, beş ildir - 1994-cü ilin sentyabr ayından bəri Azərbaycan Bakı-Ceyhan boru xətti layihəsinin qəbul edilməsində aparıcı rol oynayıb, hegemonluq edibdir və buna nail olubdur. Bir il bundan öncə Ankarada bəyannamə imzalanandan sonra biz çox iş görmüşük. Bizim nümayəndə heyəti bu il ərzində demək olar ki, qısa fasilələrlə iki-üç aylarla Ankarada, İstanbulda Türkiyə ilə, Gürcüstanla, xüsusilə Türkiyə ilə birlikdə bu müqavilənin hazırlanması üçün çalışıbdır. Bu iş başa çatıb və müqavilə orada imzalanacaqdır.

**Sual:** Transxəzər təbii qaz kəməri ilə bağlı hansısa çərçivə anlaşması gözlənilirmi?

**Cavab**: O da imzalanacaqdır.

**Sual**: Cənab Prezident, siz orada Azərbaycanın adi silahlar kvotasının artırılması məsələsini qaldıracaqsınızmı?

**Cavab**: Sən mənə qulaq asdın. Biz dörd ildir bu məsələni qaldırırıq. Ancaq buna nail ola bilmirik, çünki heç bir ölkənin kvotası qaldırılmır. Mən o vaxt ilk dəfə açıqladım və bir daha sizə deyirəm ki, Azərbaycanda olmuş hərc-mərclik, hakimiyyətsizlik, hakimiyyət uğrunda əsassız mübarizə Azərbaycanı belə bir faciəyə də düçar edibdir.

Bəli, 1992-ci ilin may ayında, Varşava paktı dağılandan sonra NATO ilə Rusiya arasında danışıqlar aparılan zaman, şübhəsiz ki, Rusiya başçılıq edərək, MDB dövlətlərini Daşkəndə toplamışdı ki, Varşava paktında, o cümlədən Rusiyanın ərazisində olan silahların hansı ölkədə, hansı respublikada nə qədər saxlanması müəyyən edilsin.

Demək lazımdır ki, Azərbaycanın ekspertləri orada çox səmərəli fəaliyyət göstərmiş və yaxşı təkliflər hazırlamışdılar. Amma o vaxt Azərbaycanın dövlətçiliyi haqqında düşünən yox idi. Mütəllibov cinayət etdi, hakimiyyətdən getdi. Tərəfdarları bir-iki ay çalışdılar onu hakimiyyətə gətirsinlər. Bir yerə toplaşmış Xalq Cəbhəsi, Müsavat, başqaları xalqın o dövrdə Azərbaycana qarşı olan ədalətsizliyə, Sovet hakimiyyətinə, kom-

munist partiyasına qarşı qalxdığı bir zamanda bu fürsətdən istifadə edib hakimiyyəti ələ keçirməyə çalışdılar. Bu hakimiyyət mübarizəsindən də kim uddu, kim uduzdu? Yenə də Azərbaycan uduzdu! Birincisi, Azərbaycanda ictimai-siyasi vəziyyət pozuldu, dağıldı, Azərbaycan bərbad bir vəziyyətə düşdü. İkincisi də, belə bir məsələ həll olunduğu zaman Azərbaycandan Daşkəndə normal bir nümayəndə heyəti, düşünülmüş təkliflərlə silahlanmış nümayəndə heyəti getmədi.

Bilirsiniz ki, may ayının 7-də ermənilər Şuşanı işğal etdilər, xatirinizdədir. Azərbaycanda böhran başlanmışdı, çünki hakimiyyətsizlik idi. May





ayının 14-də Mütəllibovun tərəfdarları onu bir daha hakimiyyətə gətirdilər. Bəli, may ayının 15-də camaat, xalq toplaşdı, onu hakimiyyətdən qovdu və düz elədi. Amma o vaxtlar xalqın fikri, məqsədi ilə hakimiyyət uğrunda mübarizə aparan və bu gün də o fikirlərindən hələ ki, daşınmayan insanlar hərəsi özü üçün düşünürdü. Millət haqqında, ölkəmiz, dövlət haqqında düşünən yox idi.

Ona görə də Daşkəndə kim gedib, kim getməyib - heç kəsə məlum deyildir. İki-üç il bundan öncə biz bu məsələni araşdıranda tapa bilmirdik ki, oraya kim gedib və müqaviləyə kim imza atıbdır. İmzaya baxırıq, heç kəs tanıya bilmir. Biri deyir ki, Rəhim Qazıyevin imzasıdır. Abbas Abbasov, - o, indi bu adamlardan bizim yanımızda olandır, - boynuna aldı ki, oraya gedibdir. Bəs imza kimindir? Deyir, mənimki deyildir. Bəs kiminkidir? Bəlkə Rəhim Qazıyevindir? Rəhim Qazıyevin imzası ilə tutuşdurdular, dedilər ki, yox, onun imzası deyildir. Nəhayət, tapdılar ki, o vaxtlar Nazirlər Soveti sədrinin müavini olub, Əzizbəyov, - hamının yadından çıxmış bir adamdır, yəqin ki, müvəqqəti işləmiş adamdır, - o imza atıbdır.

Ən böyük əhəmiyyətli, dövləti əhəmiyyəti olan məsələni bu cür həll etməkmi olar? Belə nümayəndə heyəti ilə həll etməkmi olar? Ekspertlər indi də sağdır, onlar danışırlar ki, o vaxt təklif hazırlamışdılar ki, Azərbaycanın ərazisi də, əhalisi də Cənubi Qafqazın o biri respublikalarından artıq olduğuna görə bizim kvota da artıq olmalıdır: 400, 415, 420. Buna da razılıq alınmışdı. Amma Rəhim Qazıyev gedib Qraçovla, filanla danışırdı ki, onlar bunu hakimiyyətə gətirsinlər. Mütəllibov Moskvanın xüsusi xidmət orqanlarının əli ilə yenidən hakimiyyətə gələ bilmişdi. Xalq Cəbhəsi, Müsavat və başqa bu kimi təşkilatlar da birləşib hakimiyyəti əldə etmək istəyirdilər. Hərəsi öz mənafelərinə nail olmaq üçün millətin mənafeyini qurban verdilər.

O vaxtdan biz düşmüşük bu tələyə. Mən dedim, bir də sizə təkrar edirəm ki, dörd ildir bu barədə bizimlə danışıqlar aparırlar. Özü də Amerika Birləşmiş Ştatlarının yüksək nümayəndə heyətləri danışıqlar aparır. Üç il bundan qabaq, Lissabon zirvə görüşü ərəfəsində gəldilər, burada danışıqlar apardıq. Nəhayət, Lissabonda mənə müraciət etdilər. Biz buna razılıq vermədik. Amma sonra gördük ki, kvotanı qaldırmaq mümkün deyildir. lakin adi silahlar haqqında müqavilə də imzalanmalıdır. çünki imzalanmasa, bu, ola bilər, bizim region üçün daha böyük təhlükədir.

Siz bilirsiniz, Rusiya indi iddia edir ki, yeni müqavilə əsasında ona Qafqazda bu silahları daha çox saxlamağa icazə verilsin, Qafqazda vəziyyət ağırdır. Demək, bu müqavilə imzalanmasa, Rusiya harada nə qədər istəyirsə, gətirib o qədər də silah saxlayacaqdır. Başa düşürsünüzmü? Vəziyyət belədir. Ona görə də biz məcbur olduq, razılıq verdik. Bizə kvotanı heç kəs artırmayacaqdır.

**Sual**: Cənab Prezident, İstanbulda GUÖAM çərçivəsində görüş keçiriləcəkmi?

**Cavab**: Ola bilər. Daha nə sözünüz var? Bir belə adam yığışıbsınız, bir

dənə əməlli sual verə bilmirsiniz. Siz narahat deyilsinizmi ki, orada bir şey imzalanacaqmı? Görürəm, hamınız sakit olmusunuz. Bəs niyə sakit oldunuz?

**Jurnalist**: Yazıçılarla görüşdə hər şeyi demisiniz.

**Heydər Əliyev**: Yazıçılarla görüşdə. Mən yazıçılarla görüşməsəydim?.. Bilirsiniz, sizin əksəriyyətiniz müxalifətin hay-küyünə uyursunuz. Müsavat da onların başçılarından biridir. Bəli, hər şeyə uyursunuz. Ona görə də bu hay-küyün təsiri altına düşürsünüz.

Amma hay-küy edən adamlar heç vaxt Azərbaycanın milli mənafelərini qoruyan olmayıblar, Azərbaycanın milli mənafeləri haqqında düşünən olmayıblar. Mən hamısının haqqında deyirəm. Onların hər biri 1988, 1989-cu illərdə Azərbaycanda xalq öz hüquqlarını müdafiə etmək üçün qalxdığı zaman sadəcə, çevik olublar, üzə çıxıblar. Məqsədləri isə o olub ki, hakimiyyəti ələ keçirsinlər.

Elə bu günlər də Elçibəy hansısa qəzetdə yazmışdı ki, Primakovla danışanda Primakov dedi ki, nə istəyirsən? Mən dedim ki, seçkilər keçirin - çünki bilirdik ki, o vaxt seçkilər keçirilsə, biz çoxluğu götürəcəyik. Demək, hakimiyyət mübarizəsi aparılırdı. Yəni o vaxt Dağlıq Qarabağ məsələsinin, hamı birləşib Azərbaycana qarşı olan hücumun qarşısını almaq üçün yox, belə bir gərgin vəziyyətdə hakimiyyət mübarizəsi aparırdılar. Bunu özləri etiraf edirlər.

Bunlar budur və on ildir hərdənbir belə şeyləri ortaya atır, hay-küy salırlar. Siz də düşürsünüz bu hay-küyün təsiri altına. Mən sizə məsləhət görürəm ki, öz ağlınızla işləyin. Həmin o adamlar ki, indi hay-küy salırlar - onlar daim bir-birinə düşmən olublar, bir-biri ilə rəqabət aparıblar. Biri o birisinə deyir ki, sənin əlin qana batıb, o biri bu birisinə deyir ki, sənin əlin qana batıbdır. Biri o birisinə deyir ki, sən günahkarsan, o birisi deyir...

İndi hamısı birləşib, nə var-nə var, fürsət düşüb ki, yenə də özlərini bir az göstərsinlər. O adamlardan indi kimsə Türkiyəyə getmək, orada nümayiş keçirmək istəyir. Kimsə burada hay-küy salır. Mənim xatirimdədir, keçmişdə Azərbaycanda belə bir söz vardı: filankəsi Biləcəridən o tərəfə tanıyan yoxdur. Bu söz yadınızdadırmı? İndi də işlədirlər - Biləcəridən o tərəfə tanıyan yoxdur.

Mən də deyirəm ki, birincisi, bu adamların bir-birinə sevgisi, məhəbbəti əsl sevgi-məhəbbət deyildir. Elə dostluqdur ki, bu gün bunlar dostdurlar, sabah düşməndirlər. Bəzilərinin sevgisi-məhəbbəti də elə adamların sevgi-məhəbbətinə bənzəyir ki, bu gün bununladır, o birisi gün məhəbbətini o birinə bağlayır, dördüncü gün başqasına bağlayır. O adamlar bu qəbildən olan adamlardır.

İndi beləlari gedib İstanbulda nümayiş keçirmək istəyir. Sən kimsən, səni tanıyan kimdir? Yaxud o birilərin hamısının səsi harada çıxıbdır? Altı ildir ki, biz dünyanın ən mötəbər kürsülərindən bu məsələlər haqqında fikirlər deyirik, Azərbaycanın mənafelərini müdafiə edirik, konkret təkliflər veririk, lazımi qərarların qəbul edilməsinə nail oluruq. Bunları isə nə



Biləcəridən o tərəfə tanıyanlar var, nə də bunlarda bir sabitlik var. Məhəbbət sabitliyi də yoxdur, dostluq sabitliyi də yoxdur. İndi belə adamlar düşüblər ortaya. Məsləhət görmürəm ki, onların təsiri altına düşəsiniz. Sağ olun.

* * *

Azərbaycan Prezidenti Heydər Əliyevi Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər yola saldılar.

## Atatürk hava limanında qarşılanma mərasimi

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə iştirak etmək üçün noyabrın 17-də İstanbula gəldi.

İstanbul şəhərinin Atatürk hava limanında respublikamızın prezidentini Türkiyənin dövlət və hökumət nümayəndələri qarşıladılar. Təyyarənin pilləkəni yanında dövlətimizin başçısına gül-çiçək dəstələri təqdim olundu.

Prezident Heydər Əliyev onu qarşılamağa gəlmiş rəsmi şəxslərlə mehribancasına görüşdü.

Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış rəsmi iqamətgaha yola düşdü.



# ATƏT-in zirvə görüşü öz işinə başladı

Noyabrın 18-də İstanbulun məşhur "Çırağan sarayı"ndakı konfrans mərkəzində ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti zirvə görüşünün təntənəli açılış mərasimi oldu. Əlli dörd ölkənin başçılarının təmsil olunduğu bu toplantıda dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının rəhbərləri də iştirak edirdilər.

Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəl[1] ev sahibi kimi çıxış edərək zirvə görüşünün iştirakçılarını səmimiyyətlə salamladı, ATƏT-in XX əsrdə keçirilən sonuncu sammitinə toplaşanlara türk xalqının və şəxsən özünün xoş arzularını çatdırdı. O, qarşıdakı minillikdə Avropada və ümumən dünyada əmin-amanlığın qorunub saxlanılması, möhkəm sülh yaradılması üçün konstruktiv tədbirlər görülməsinin vacibliyini, bu sahədə ATƏT-in rolunu vurğuladı və zirvə görüşünə uğurlar dilədi.

-24323-






ATƏT-in icraçı sədri, Norveçin xarici işlər naziri cənab Knut Vollebek[2] İstanbul zirvə görüşünü açıq elan etdi və sammitə toplaşmış dövlət və hökumət başçılarını salamladı.

Sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi Kofi Annan çıxış edərək sammit iştirakçılarını bu əlamətdar hadisə ilə təbrik etdi, Avropa qitəsində, dünyanın digər regionlarında münaqişə ocaqlarının söndürülməsi, sülhün və əmin-amanlığın bərqərar olunması sahəsində fəaliyyətlərində onlara uğurlar arzuladı.

ATƏT-in Parlament Assambleyasının sədri xanım Helle Den sammitin açılış mərasimində təbrik nitqi söylədi. O, ATƏT-lə əməkdaşlıq əlaqələrindən razı qaldığını bildirməklə yanaşı, hazırda dünyada mövcud olan demokratik təsisatlarla birgə fəaliyyət sahəsində görülən işlərə də diqqəti cəlb etdi.

Daha sonra ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının nitqləri dinlənildi. Natiqlər Avropa sülhünün möhkəmləndirilməsi üçün səyləri daha da artırmağın vacibliyini vurğuladılar, eyni zamanda qitənin ayrı-ayrı yerlərində, o cümlədən Qafqazda mövcud olan münaqişələrdən narahatlıqla danışdılar.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton[3] Avropada möhkəm sülh və əmin-amanlıq yaradılması istiqamətində atılan hər bir addımı yüksək qəymətləndirməklə yanaşı, münaqişələrin aradan qaldırılması üçün daha təsirli tədbirlər görməyin vacib olduğunu bildirdi.

Zirvə görüşündə çıxış edənlər Ermənistan-Azərbaycan münaqişəsinə toxunarkən bu uzunsürən problemin həlli üçün tərəflərin atdıqları müsbət addımları dəstəklədilər,

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI




Ermənistan və Azərbaycan Prezidentləri arasında birbaşa dialoqun əhəmiyyətini xüsusi vurğuladılar. Məsələn, Fransa Prezidenti Jak Şirak[4] Prezident Heydər Əliyevin və Prezident Robert Koçaryanın[5] təkbətək görüşlərini yüksək qiymətləndirdi və bunların müsbət nəticə verəcəyinə ümidvar olduğunu söylədi.

Azərbaycan Prezidenti Heydər Əliyev zirvə görüşündə dərin məzmunlu nitq söylədi. Dövlətimizin başçısı ATƏT-in bu əsrdəki sonuncu sammitinin İstanbulda keçirilməsini yüksək qiymətləndirdi, toplantının gözəl təşkil olunmasına görə Türkiyə Respublikasının Prezidenti, əziz dostu və qardaşı Süleyman Dəmirələ və Türkiyə hökumətinə minnətdarlığını bildirdi. Eyni zamanda, sammit ərəfəsində baş vermiş ağır təbii fəlakətlə əlaqədar qardaş türk xalqına başsağlığı verdi.

XX əsrin sonunda Avropa qarşısında həqiqi sülh və sabitlik yolu açıldığını bildirən Prezident Heydər Əliyev təəssüflə vurğuladı ki, hələ 1975-ci ildə Helsinkidə elan olunmuş məqsəd və prinsiplərin tam həyata keçirilməsinə nail olunmamışdır. O, ATƏT-in üzvü olan dövlətlərin bütövlük-



də təhlükəsizliyi üçün yaranmış qorxunun reallığa çevrildiyini söyləyərək beynəlxalq birliyin diqqətini Azərbaycanın düşdüyü dözülməz vəziyyətə bir daha cəlb etdi, Ermənistanın hərbi təcavüzünün ölkəmiz üçün doğurduğu ağır nəticələri yenidən xatırlatdı. Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Lissabon sammitində qəbul olunmuş prinsiplərin[6] həyata keçirilməsi üçün Minsk qrupunun[7] lazımi fəallıq və ardıcıllıq göstərmədiyini, Minsk qrupunun passivləşdiyini bildirdi. Ermənistan və Azərbaycan dövlət başçılarının birbaşa görüşlərinin Minsk qrupunun fəaliyyətini əvəz edə bilməyəcəyini xüsusi vurğulayan Prezident Heydər Əliyev Minsk konfransının həmsədri olan ölkələrin rəhbərlərini Minsk qrupu çərçivəsində danışıqların tezliklə bərpası üçün zəruri səylər göstərməyə çağırdı.

Prezident Heydər Əliyev daha sonra Avropada adi silahlı qüvvələr haqqında müqavilənin səmərəliliyini yüksəltməyin vacibliyindən danışaraq bəyan etdi ki, regionun hərbiləşdirilməsi və işğal olunmuş Azərbaycan torpaqlarında qanuna zidd xarici silahların yerləşdirilməsi ölkəmizin təhlükəsizliyi üçün qorxu yaratmışdır. Regionda bəzi dövlətlərin hərəkətləri həmin müqaviləni pozmaqla bərabər, onun iştrakçısı olan ölkələrin təhlükəsizliyini də sarsıdır.

Cənubi Qafqaz regionunun Avropanın ayrılmaz hissəsi olduğunu vurğulayan Prezident Heydər Əliyev ABŞ-ın, Avropa Birliyi ölkələrinin, Rusiya, Türkiyə, Gürcüstan və Ermənistanın, ATƏT-in marağı olan bütün digər üzvlərinin dövlət və hökumət başçılarına müraciət edərək, onları bu regionun problemlərini həll etmək üçün qətiyyətli fəaliyyət göstərməyə çağırdı. Dövlətimizin başçısı Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunması təklifini irəli sürdü və dedi ki, bu pakt dövlətlərarası münasibətlərin və münaqişələri aradan qaldırmağın prinsipial əsaslarını təsbit etməlidir. Respublikamızın rəhbəri bildirdi ki, XXI əsrin astanasında beynəlxalq birliyin Cənubi Qafqazda uğurlu fəaliyyəti azad, bölünməz və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı.

***

Noyabrın 18-də axşam Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəlin adından zirvə görüşü iştirakçılarının şərəfinə ziyafət verildi. Ziyafətdə Azərbaycan Prezidenti Heydər Əliyev də iştirak etdi



***

Noyabrın 19-da İstanbul zirvə görüşü öz işini davam etdirdi. Sammitdə çıxış edən dövlət və hökumət başçıları Avropada, bütün dünyada sülhün və təhlükəsizliyin təmin olunması, dövlətlərin ərazi bütövlüyünün qorunması, demokratiyanın inkişafı, insan haqlarının müdafiəsi sahəsində daha ciddi və təsirli tədbirlər görülməsinin vacibliyini vurğulamaqla yanaşı, bu barədə konkret təkliflərini də söylədilər.

ATƏT-in zirvə görüşündə mühüm sənədlər - Avropa təhlükəsizliyi xartiyası, İstanbul zirvə görüşünün bəyannaməsi, etimad və təhlükəsizlik tədbirləri haqqında Vyana sənədi, Avropada adi silahlı qüvvələr haqqında müqavilə imzalandı.

Zirvə görüşünün başlıca sənədi Avropa təhlükəsizliyi xartiyasıdır. Bu sənədin hazırlanmasına hələ 1997-ci ilin dekabrında - ATƏT-in üzvü olan dövlətlərin xarici işlər nazirlərinin Kopenhagen görüşündə başlanmışdı. Xartiya XXI əsrdə Ümumavropa təhlükəsizliyi sisteminin konseptual əsaslarını əhatə edir və üzv ölkələrinin azad, demokratik və daha çox inteqrasiya olunmuş Avropa yaratmaq əzmini təsdiqləyir. Xatırladaq ki, bu, Helsinki yekun aktından (1975) və Paris xartiyasından (1990) sonra ATƏT-in iyirmi beş illik tarixində üçüncü ən mühüm sənəddir.

Xartiya altı fəsildən və bir operativ sənəddən ibarətdir. İştirakçı dövlətlər ATƏT-in norma və prinsiplərinin kobud şəkildə pozulmamasının davam etməsini və bunun nəticəsində istər öz dövlətləri daxilində, istərsə də dövlətlər arasında münaqişələrin yaranmasını, habelə terrorizmi, zorakı ekstremizmi, mütəşəkkil cinayətkarlığı və narkotiklərin qanunsuz dövriyyəsini, ekoloji problemlərin və ekoloji vəziyyətin pisləşməsini başlıca təhlükə kimi xüsusi vurğulamışlar.

Xartiyada BMT-nin nizamnaməsində, Helsinki yekun aktında, Paris xartiyasında və ATƏT-in qəbul etdiyi bütün başqa sənədlərdə öz əksini tapmış öhdəliklərə iştirakçı dövlətlərin tam sadiq olması ATƏT-in fəaliyyətinin əsası kimi bir daha təsdiqlənmişdir. İştirakçı dövlətlərdən hər hansı birinin bu öhdəlikləri yerinə yetirməməsi bütün digər üzv dövlətlərin dərhal və qanuni narahatlığına səbəb olacaqdır. Sənəd hər bir dövlətin öz təhlükəsizliyini təmin etməsini onun ayrılmaz hüququ kimi təsbit etmişdir. ATƏT-də qərarlar yenə də konsensus əsasında qəbul olunacaqdır. Xartiya sülhün və təhlükəsizliyin qorunub saxlanılmasını BMT Təhlükəsizlik Şurasının başlıca məsuliyyəti kimi tanımış və dövlətlərin ərazi bütövlüyünə, siyasi müstəqilliyinə qarşı zor işlətməmək və ya zor işlətməklə hədələməmək məsələsinə dair öhdəliklər də daxil olmaqla, BMT nizamnaməsinə müvafiq surətdə dövlətlərin hüquq və öhdəliklərini bir daha təsdiqləmişdir.








Avropa təhlükəsizliyi üçün mövcud olan təhlükələrə və risklərə münasibət bildirilməməsi yollarına gəldikdə, xartiyanın ATƏT-in başqa təşkilatlarla bərabərlik əsasında və tərəfdaşlıq ruhunda, iyerarxiya yaratmağa cəhd göstərilmədən və ya onların arasında daimi əmək bölgüsü aparmadan əməkdaşlığı məsələsi geniş ifadəsini tapmışdır. Burada dövlətlərin üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsində onların həmrəyliyinə və tərəfdaşlığına böyük əhəmiyyət verilir.

Xartiyada insan hüquqlarına və başlıca azadlıqlara, demokratiyaya, qanunun aliliyinə hörmət edilməsinə böyük diqqət yetirilmişdir. Eyni zamanda sənəddə deyilir ki, milli azlıqlara mənsub şəxslərin hüquqları da daxil olmaqla, insan hüquqlarına tam hörmət edilməsi ölkələrin tam ərazi bütövlüyünü və suverenliyini poza bilməz, onu yalnız möhkəmləndirməlidir. Xartiya etnik təmizləmə və ya kütləvi şəkildə zorla qovma siyasətini rədd edir.

İstanbul xartiyası təhlükəsizliyin hərbi-siyasi cəhətini ATƏT-in hərtərəfli təhlükəsizlik konsepsiyasının başlıca ünsürü kimi təsbit etmişdir.

Sənəddə korrupsiyaya qarşı mübarizə məsələsinə də xüsusi yer ayrılıb və korrupsiya ATƏT-i ümumi dəyərləri üçün böyük təhlükə, sabitliyi pozan amil kimi qiymətləndirilir.

Regionda sülhün və sabitliyin qorunmasında ATƏT-in həlledici rolunun gücləndirilməsinə iştirakçı dövlətlərin sadiq qalmasına da böyük diqqət yetirmişdir. Xartiyada belə bir ideya təsbit olunmuşdur ki, konsensus təqdirində, iştirakçı dövlətlər ATƏT-i bu məqsəd üçün ən səmərəli və münasib təşkilat hesab etdikdə, ATƏT sülhün qorunması işində, liderlik rolu da daxil olmaqla, öz rolu barədə qərar qəbul edə bilər.

Sənədin sonunda deyilir ki, xartiya təhlükəsizlik sahəsində yeganə Panavropa Təşkilatı, öz regionunda sülhün və sabitliyin qorunması üçün məsuliyyət daşıyan təşkilat kimi ATƏT-in rolunu möhkəmləndirəcəkdir.

Azərbaycan Prezidenti Heydər Əliyev İstanbul xartiyasını çox əhəmiyyətli bir sənəd kimi qiymətləndirmiş, həmin sənəddə dövlətlərin ərazi bütövlüyünün və müstəqilliyinin qorunmasının çox ciddi müddəalarla öz əksini tapmasını xüsusi vurğulanmışdır.

Sammitin digər mühüm sənədi İstanbul bəyannaməsidir. 48 bənddən ibarət olan bu sənəddə ATƏT-in elan etdiyi, o cümlədən İstanbul xartiyasında öz əksini tapmış başlıca prinsiplər bir daha nəzərə çarpdırılır, eyni zamanda Helsinki yekun aktının qəbul olunmasından, Lissabon sammitindən sonra ötən dövr ərzində təşkilatın fəaliyyətinin əsas istiqamətləri açıqlanır.

Bəyannamədə ATƏT-in Daimi Şurasına tapşırılır ki, İstanbul xartiyasında razılaşdırılmış yeni addımların dərhal reallaşdırılması üçün lazımi qərarlar qəbul etsin. Sənəddə Avropa regionunda hələ də qalmaqda olan münaqişə ocaqlarından ətraflı bəhs edilir və bunlara son qoymaq üçün iştirakçı dövlətlərin bundan sonra da səy göstərmək əzmində olduqları vurğulanır.

Qafqazdakı digər münaqişələrlə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi də bəyannamədə ayrıca bənd kimi öz əksini tapmışdır. Orada deyilir ki, ATƏT Azərbaycan və Ermənistan prezidentləri arasında dialoqu bəyənir, onların müntəzəm əlaqələri problemin hərtərəfli həlli yollarını tapmaq prosesini sürətləndirmək üçün imkanlar yaradır. ATƏT bu dialoqu qəti şəkildə dəstəkləyir və onun davam etdirilməsini istəyir, Minsk qrupu çərçivəsində danışıqların yenidən başlanmasına ümid bəsləyir. Daha sonra deyilir ki, ATƏT və onun Minsk qrupu bu problemin həlli yollarını tapmaq üçün ən münasib formatdır. Eyni zamanda bildirilir ki, gələcəkdə Bakıda ATƏT-in ofisinin açılması bu təşkilatın Azərbaycanla əməkdaşlığının möhkəmləndirilməsinə imkan yaradacaqdır.



Zirvə görüşü zamanı imzalanmış digər sənəd Avropada adi silahlı qüvvələr haqqında müqavilədir. Həmin müqavilə noyabrın 19-da İstanbulun "Lütfi Kirdar Mərkəzi"ndə imzalandı. Vaxtilə Parisdə həmin müqaviləni 22 dövlət imzalamışdı, İstanbulda isə daha 30 ölkə, o cümlədən Azərbaycan Respublikası bu müqaviləyə qoşuldu.

Dövlətimizin başçısı Heydər Əliyevin dediyi kimi, 1992-ci ildə Azərbaycanda hakimiyyət uğrunda gedən çəkişmələr, ölkəmizin milli mənafeyinin qorunmaması ona gətirib çıxarmışdı ki, respublikamızın adi silahlar kvotasının müəyyənləşdirilməsi kimi dövləti əhəmiyyətli məsələyə fikir verən olmamış və nəticədə Azərbaycana böyük zərbə dəymişdir. Azərbaycanın indiki rəhbərliyi son illərdə vəziyyətin dəyişdirilməsi üçün çox səylər göstərsə də, hazırda heç bir dövlətin kvotası artırılmadığına görə respublikamız həmin müqaviləyə qoşulmuşdur. Çünki bu müqavilə imzalanmasa, regionumuz üçün daha böyük təhlükə yarana bilər.

ATƏT-in İstanbul Zirvə görüşü artıq tarixə qovuşmuşdur və həmin toplantıda görülmüş işlər, imzalanmış sənədlər, şübhəsiz ki, Avropada, ümumən Yer üzündə sülhün və sabitliyin qorunmasına çox böyük töhfə olacaqdır. Dövlətimizin başçısı Heydər Əliyev İstanbul zirvə görüşünü yüksək qiymətləndirərək demişdir ki, bu, ilk növbədə qəbul edilmiş sənədlərin həm məzmunu, həm də əhəmiyyətinə görə ATƏT-in bütün keçmiş sammitlərindən fərqlənir. Çünki bu sənədlər XXI əsrə yönəldilmişdir, Avropa və ATƏT çərçivəsində yaşamaq, yaratmaq, inkişaf etmək Konstitusiyası kimi sənədlərdir.






# Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi

Hörmətli cənab Sədr!

Hörmətli həmkarlarım!

Xanımlar və cənablar!

Biz ATƏT-in bu əsrdəki sonuncu zirvə görüşünün dünya sivilizasiyasının ən böyük mərkəzlərindən biri olan əzəmətli İstanbul şəhərində keçirilməsinə böyük əhəmiyyət veririk. Bizə göstərilən yüksək qonaqpərvərliyə və sammitin işinin çox gözəl təşkil olunmasına görə Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Süleyman Dəmirələ və Türkiyə hökumətinə öz minnətdarlığımı bildirirəm.

Türkiyədə baş vermiş ağır təbii fəlakət, dəhşətli zəlzələ nəticəsində minlərlə adamın həlak olması dost və qardaş türk xalqı ilə bərabər bizi də qəlbən kədərləndirdi. Biz sizin dərdinizə şərik çıxırıq və "keçmiş olsun" deyirik.

Hörmətli Sədr!

İki dağıdıcı müharibənin dəhşətlərindən və "soyuq müharibə"nin sərt sınağından çıxmış iyirminci yüzilliyin sonunda Avropa qarşısında həqiqi sülh və sabitlik yolu açılmışdır. Lakin biz təxminən iyirmi beş il bundan əvvəl Helsinkidə elan edilmiş məqsəd və prinsiplərin tam həyata keçirilməsinə, təəssüf ki, hələ də nail olmamışıq.

ATƏT-in üzvü olan dövlətlərin suverenliyi, ərazi bütövlüyü və ümumiyyətlə təhlükəsizliyi üçün yaranmış qorxu amansız reallığa çevrilmişdir, milyonlarla insana fəlakət və iztirab gətirmişdir. Mən bir daha beynəlxalq birliyin diqqətini Azərbaycanın düşdüyü dözülməz vəziyyətə cəlb edirəm. Altı ildən çoxdur ki, suveren Azərbaycanın ərazisinin beşdə bir hissəsi erməni silahlı qüvvələrinin işğalı altındadır. Həyata keçirilmiş etnik təmizləmələr nəticəsində bir milyon azərbaycanlı öz doğma yurd-yuvalarından qovulmuşdur.

Təəssüf ki, sonuncu zirvə görüşümüzdən sonra sülh prosesi arzu etdiyimiz nəticəni verməmişdir. Minsk qrupunun həmsədrləri Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplərin həyata keçirilməsi üçün lazımi fəallıq və ardıcıllıq göstərməmişlər, Minsk prosesi passivləşmişdir. Belə bir şəraitdə Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa görüş-

lər və danışıqlar keçirilməsi zərurəti yaranmışdır. Bir neçə belə görüş keçirilmişdir və bu görüşlər münaqişənin sülh yolu ilə aradan qaldırılmasına ümid verir. Şübhəsiz ki, münaqişənin aradan qaldırılmasının mühüm amillərindən biri də tərəflərin güzəştə getməyə hazır olmasıdır. Lakin güzəştin də beynəlxalq hüquq prinsipləri və normaları ilə müəyyən edilmiş həddi var.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda ermənilər və azərbaycanlılar sülh və təhlükəsizlik şəraitində birgə yaşaya bilərlər və yaşamalıdılar. Bu isə Azərbaycan ilə Ermənistan arasında sülhün və normal mehribanlıq qonşuluq münasibətlərinin yaranmasına xidmət edərdi. Bunun üçün Azərbaycanın işğal olunmuş əraziləri azad edilməlidir, bunun üçün Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın müvafiq statusu müəyyən edilməlidir.

Qeyd etmək istəyirəm ki, Ermənistan prezidenti ilə danışıqlarımız Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün məsuliyyət daşıyan ATƏT-in Minsk qrupunun fəaliyyətini əvəz edə bilməz. Mən Minsk Konfransının həmsədri olan ölkələrin dövlət və hökumət başçılarını Minsk qrupu çərçivəsində danışıqların tezliklə bərpası üçün zəruri səylər göstərməyə çağırıram. Dünya birliyi münaqişənin aradan qaldırılmasına dair bəyan edilmiş prinsipləri ardıcıl surətdə və qətiyyətlə müdafiə etməlidir.

Biz üzümüzə gələn yüzillikdə ATƏT-in roluna bu problemlərin prizmasından baxırıq. ATƏT öz prinsiplərini müdafiə etmək məqsədi ilə qətiyyətlə fəaliyyət göstərməli və özünün əməliyyat imkanlarını xeyli gücləndirməli, ilk növbədə çoxmillətli sülhyaratma qüvvələrini inkişaf etdirməlidir.

Hesab edirəm ki, Avropada adi silahlı qüvvələr haqqında müqavilənin səmərəliliyi yüksəldilməlidir. Bəyan edirəm ki, regionun hərbiləşdirilməsi və işğal edilmiş Azərbaycan torpaqlarında qanuna zidd xarici silahların yerləşdirilməsi Azərbaycanın təhlükəsizliyi üçün qorxu yaratmışdır. Buna baxmayaraq Azərbaycan bu müqavilədən irəli gələn öhdəliklərini tam yerinə yetirir.Bəzi dövlətlərin hərəkətləri isə həm müqaviləni pozur, həm də onun iştirakçısı olan dövlətlərin təhlükəsizliyini sarsıdır.

Cənubi Qafqaz regionu Avropanın ayrılmaz hissəsidir. Mən Amerika Birləşmiş Ştatlarının, Avropa Birliyi ölkələrinin, Rusiyanın, Türkiyənin, Gürcüstanın, Ermənistanın və ATƏT-in marağı olan bütün digər üzvlərinin dövlət və hökumət başçılarına müraciət edərək onları regionumuzun problemlərinin həlli üçün qətiyyətli fəaliyyət göstərməyə çağırıram. Mən Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunmasını təklif edirəm. Belə bir pakt dövlətlərarası münasibətlərin və münaqişələrin aradan qaldırılmasının prinsipial əsaslarını təsbit etməlidir. Onun əsasında region-






dan xarici hərbi qüvvələr çıxarılmalıdır. Regionu bölən ayırıcı xətlər aradan qaldırılmalıdır. Təcavüzə, etnik təmizləmələrə, separatçılığa və terrorizmə son qoyulmalıdır. Baş vermiş faktlar əsasında hərəkətlərə və ikili standartlara yol verilməməlidir. Belə bir pakt regionda sülh, sabitlik və təhlükəsizlik yaranmasına, Cənubi Qafqazın suveren, müstəqil demokratik dövlətlərinin iqtisadi tərəqqisinə və əməkdaşlığına gətirib çıxarardı. XXI əsrin astanasında beynəlxalq birliyin Cənubi Qafqazda uğurlu fəaliyyəti azad, bölünməz və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı.

Diqqətinizə görə təşəkkür edirəm.



## Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin nitqi

Cənab Sədr,

Möhtərəm həmkarlar,

Mənim üçün xüsusi şərəfdir ki, öz ictimai fəaliyyətim müddətində dördüncü dəfədir Türkiyə adından bu kürsüdən istifadə etməklə ATƏT-in zirvə toplantısı iştirakçılarına müraciət edirəm. Belə ki, ilk dəfə 1975-ci ildə Helsinkidə çıxış etmişdim, indi isə öz ölkəmdə çıxış edirəm.

Keçən bu 25 il ərzində çox dəyişiklər baş verib. Qlobal nüvə müharibəsi təhlükəsinə gətirib çıxara biləcək ideoloji qarşıdurma sülh yolu ilə aradan qaldırılmışdır.

Lakin soyuq müharibəyə son qoyulması heç də bütün problemləri həll etmir. Etnik düşmənçilik kimi məqsədlər güdən dağıdıcı qüvvələr tərəfindən, tamahkarlıq və ambisiyalarla daha da qızışdırılan vəhşi azğınlıq ATƏT məkanının bəzi hissələrində geniş miqyaslı tələfatlara səbəb olmuşdu. Bu milyonlarla insanın öz doğma yurdlarından didərgin düşməsinə, yüz minlərlə insan həyatının məhvinə və eyni zamanda yenicə həyata keçirilməyə başlayan beynəlxalq təhlükəsizliyin ilkin təməlinin zəifləməsinə səbəb olmuşdur. Etnik millətçilikdən yaranan gərginlik tez bir zamanda yayılmış və gələcək münaqişələr üçün zəmin yaratmışdır. Biz hamımız bundan xəbərdar idik, lakin bunun üçün tədbir görməkdə tələsmirdik.

Məşhur türk şairi demişdir:

"Biz öz mənəviyyatımızın yarısını beş minillik nağıldan əldə etmişik.
Deyirlər ki, tarix təkrarlardan başqa bir şey deyil,
Əgər insan bundan dərs götürübsə, bu təkrarlanarmı?"

Mən inanıram ki, yeni minilliyin astanasında hadisələrin öz məcrasından çıxaraq faciələrə gətirib çıxarmasına yol verə bilmərik, - fikri ilə hamımız razılaşarıq. Burada ATƏT bütün bunların fərqinə vara bilər.

Kosovodakı demokratik və çoxmillətli cəmiyyət bizim məqsədimiz olmalıdır. Əvvəlki ədalətsizlikləri aradan qaldırmağımız üçün çalışmalıyıq ki, gələcək münaqişələr üçün şərait yaranmasın.

Biz Kosovodakı serblərin, albanların, o cümlədən türklərin hüquqlarının müdafiəsini təmin etməliyik. Bu mənada Balkanlarda problemlərin və hadisələrin necə cərəyan etməsinin bir-biri ilə qarşılıqlı əlaqələrini nəzərə almalıyıq. Bu məsələyə hərtərəfli yanaşma çox zəruridir: belə ki, sabitlik paktı mühüm əhəmiyyət daşıyır. Burada bizim sabitlik paktının davamlı olaraq dəstəkləməyimizi bir daha təsdiq etmək istərdim. Biz bunun həyata keçirilməsi planına yardım etməyi qəti qərara almışıq.



Cənab Sədr,

Digər bir münaqişə ocağı isə sülh və çiçəklənməsini ürəkdən arzu etdiyimiz Qafqazdır.

Bu da həqiqətdir ki, məsələnin həlli yolunu tapmaq üçün əsas məsuliyyət tərəflərin üzərinə düşür. Bu fikir də eyni dərəcədə həqiqətə uyğundur ki, beynəlxalq ictimaiyyət bütün bunları kənardan seyr edə bilməz. Beynəlxalq ictimaiyyət və Minsk qrupu kimi yaradılmış mexanizmlər katalizator rolu oynamalıdır. Qafqaz üçün sabitlik paktı ideyası haqqında da düşünmək olar.

Digər tərəfdən Çeçenistandakı vəziyyət ciddi bir məsələdir. Bununla bağlı biz Rusiyanın legitimliyi məsələlərini tanıyırıq. Lakin hələ də Çeçenistanda davamlı olaraq artan düşmənçilik bütün regionu qeyri-sabitlik təhlükəsi qarşısında qoyur. Məsələnin təcili həllini gözləyən eyni dərəcədə mühüm digər bir aspekti insan hüquqları ilə bağlıdır. Bu, beynəlxalq ictimaiyyətin ümumi qayğısıdır. Çeçenistandakı humanitar böhranın miqyası ilə əlaqədar olaraq biz tərəflərin bu insani faciəyə son qoymaq üçün ciddi nəzarət və məsuliyyətlə hərəkət etməsini vicdanla tövsiyə edirik.

Mərkəzi Asiyada isə vəziyyət Balkanlar və Qafqazdan fərqlidir. Orada problemlər və aparılan kursla bağlı ATƏT-in tədbirləri daha böyük əhəmiyyət kəsb edir. Mən inanıram ki, Mərkəzi Asiya respublikalarının razılığı ilə aparılan intensiv danışıqlar bu ölkələrin ATƏT məkanına inteqrasiyasını daha da yaxşılaşdırmağa kömək edəcək. İlk baxışdan göründüyü kimi, bu region bizim üçün artıq çox da uzaq deyil. Mən bu məsələ ilə bağlı təşkilatın seçdiyi müsbət yanaşmanı müşahidə etdiyimə çox şadam.

Biz öz tərəfdaşlarımızla əməkdaşlıq sahəsində danışıqları intensivləşdirməliyik. Növbəti ərazilər və baş verəcək hadisələr bizim ATƏT daxilində nə edəcəyimizdən asılıdır. Təhlükəsizlik problemi hamı üçün eynidir.

Cənab Sədr,

Qloballaşdırmanın nəticəsi olaraq yalnız çoxlu məsələlər əlaqəli deyil, həmçinin çoxlu problemlərin də həlli yolları qlobaldır. Bunun üçün ən yaxşı nümunə kimi göstərmək olar ki, korrupsiya, silah, narkotika ticarəti və terrorizm demokratik əsasın və yaxşı idarəçiliyin hədəfidir. Təşkilatımız bunlara etinasız yanaşa bilməz və onlar əsas problemlər siyahısından silinə bilməz. Demokratiya, açıq cəmiyyət və yaxşı idarəçilik hazırda dünyanın əsas komponentləridir.

Beləliklə, imzalamaq ərəfəsində olduğumuz Avropa Təhlükəsizliyi haqqında İstanbul Xartiyası xüsusilə vurğulayır ki, insan hüquqlarına hörmət və qanunun aliliyi bizim təhlükəsizlik haqqında hərtərəfli konsepsiyamızın əsasını təşkil edir. Bu məsələ ilə bağlı mən xüsusilə vurğulamaq istərdim ki, azğınlıq, irqçilik, ksenofobiya və etnik millətçiliyin aradan

qaldırılması zəruridir. Bunlar bəşər tərəfindən törədilən bütün faciələrə təkan verən və onları alovlandıran səbəblərdir: məhz insanın özü tərəfindən yaradılmış "biz" və "onlar" kimi əqli və psixoloji məfhumlar buna şərait yaradır. Bunu azadlıq və demokratiyanın kommunizm üzərində qələbəsinə bənzətmək olar. Bu mübarizədə yeni qorxu və problemlər üzərində qələbə ilkin olaraq insanların şüurunda və qəlbində qazanılmalıdır.

Biz anlaşma, səbr və sülhün tamamilə bərqərar olduğu ATƏT məkanını yaratmaq üçün səylərimizi davam etdirməliyik. İstanbul zirvə toplantısı bu məğrur ideyalar istiqamətindəki səyahətimizin digər bir təməl daşıdır.

Sağ olun.

## Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun nitqi

Çox sağ olun, cənab Sədr, Prezident Dəmirəl, Sədr Vollebek, cənab Baş katib, xanım Den, möhtərəm liderlər. Burada Birləşmiş Ştatların adından bir neçə kəlmə söz demək mənim üçün böyük xoşbəxtlikdir.

İlk öncə mən Prezident Dəmirələ, onun hökumətinə və Türkiyə xalqına gözəl qəbula və zəlzələdən dirçəlmə dövründə göstərdikləri qəhrəmanlıq nümunəsinə görə minnətdaram. Bu çox çətin ildə görkəmli liderliyinə görə Norveç sədrliyinə minnətdarlığımı bildirirəm.

Biz bir çox səbəblərə görə bir yerə yığışmışıq:

Birinci, ATƏT-ə sədaqətimizi bir daha təsdiq edək. Bu unikal təsisatdır ki, onun da əsasını insan haqqlarına hörmət və insanların təhlükəsizliyi uğrunda mübarizə təşkil edir. 1975-ci ildə Helsinkidə Final Aktı imzalanarkən buraya toplaşmış 20-dən artıq ölkə o zaman heç mövcud belə deyildi. Çünki onlar müstəqil deyildilər. ATƏT-in insan haqqları və qanunun aliliyi ideyaları bir ölkədən digər ölkəyə keçərək hazırda dərin kök salmışdır. Helsinkidən 25 il keçdikdən sonra artıq demokratiyanın sağ qalıb qalmayacağı sual doğurmur. Artıq biz demokratiyanın hər bir Avropa ölkəsinin nə vaxt əhatə edəcəyi və onun hər bir ölkədə necə işləyəcəyini düşünürük.

Aydındır ki, biz ATƏT-i yeni reallıqlara uyğun olaraq təkmilləşdirməliyik. Bu gün müzakirə etdiyimiz əsasnamədə bu günkü təhlükəsizliyimiz üçün böyük qorxu yarandığı qeyd olunur. Bu qorxu isə dövlətlərdaxili və dövlətlərarası münaqişələrdən irəli gəlir.

Balkanlardan Baltiklərədək seçkilərin təşkil olunmasında insan haqqlarının qorunmasında etnik və dini gərginliyin zəiflədilməsində ATƏT fəal iştirak edərək bütün bu narahatlıqlara mərdlik və qətiyyətlə cavab vermişdir. Biz ATƏT-i elə vasitələrlə silahlandırmalıyıq ki, o bundan da effektli cavablar verə bilsin. Mən çox şadam ki, ATƏT-də Reaksiya Konsepsiyası işlənib hazırlanmışdır ki, bu Konsepsiyaya əsasən biz seçkilərdə, qanunun həyata keçirilməsində, mətbuatın işində öz ekspertlərimizdən istifadə edə bilirik, vaxtlı-vaxtında münaqişələrin dayandırılması və ya münaqişələrdən dirçəlmə işinə müdaxilə edirik. Bu yolu davam edəriksə vaxt və insan həyatı itkisinə yol verilməz və biz hər bir böhranın öhdəsindən gələ bilərik.

Mən şadam ki, biz Stabillik Paktını işləyib hazırladıq və ona dəstək verəcəyimizi bildirdik. Bununçün bizim birləşmə qüvvəmiz parçalanma qüvvəsindən daha möhkəm olmalıdır. Beləliklə biz Cənub Qərbi Avropanın tam potensialına çatmasına yardım etmiş olarıq.

Məmnunam ki, biz polis, silahsız müşahidəçilər və hərbi qüvvələr arasındakı boşluğun doldurulmasına ehtiyac olduğunu təsdiq etdik və ümid edirəm ki, hamımız ATƏT-in bu ehtiyacları ödəmək üçün səylərinə yaxından dəstək verəcəyik. İndi isə ATƏT-in fəaliyyətini daha operativ etməkdən ötrü biz onun prinsiplərini daha möhkəm müdafiə etməliyik. Elə bu ruhda bir neçə kəlmə Çeçenistandakı vəziyyət haqqında danışmaq istəyərdim. Birincisi, Almaniya Kanslerinin məndən qabaqkı qeydləri ilə həmfikirəm. Məncə o, vəziyyəti düzgün qiymətləndirdi.

Burada "Rusiyanın terrorizmə və qanunsuzluğa üstün gəlməsini istəyirəm" desəm hamının fikrini ifadə etmiş olaram. İnanırıq ki, Rusiyanın öz ərazi bütövlüyünü müdafiə etməyə nəinki haqqı var, lakin bu həm də onun borcudur. Biz Rusiyanı sabit, firavan, demokratik, sərhədləri təhlükəsiz, güclü müdafiyəyə malik, dünya işlərində əsas səsi olan bir dövlət kimi görmək istərdik. Mən tez-tez özümə sual verirəm. Məncə bu sual sizi də düşündürür: mən Prezident Yeltsinin yerində olsaydım nə edərdim? Məncə mühakimə etməzdən əvvəl bu suala hamımız cavab tapmağa çalışmalıyıq. Rusiya Çeçenistan sərhədlərinin içində itaətsizlik və bu sərhədlərdən kənara aşan ixtişaşla qarşılaşmışdır. Qarşıdurma və terrora son qoymaq üçün o, hərbi strategiya yoluna əl atmışdır. Bu strategiya bir sıra vətəndaşın ölümünə və çoxsaylı qaçqın axınına səbəb olmuşdur.

Əvvəla, mən onu demək istərdim ki, Rusiya siyasətinin tənqid edənlərin əksəri Çeçenistanın zorakılıq, terrorizm və ekstremizmə son qoymasını, Rusiyanın ərazi bütövlüyünün saxlanılmasını istəyirlər. Onların qorxduğu budur ki, Rusiyanın seçdiyi yol onun özünün sonuna gətirib çıxara bilər. Bu o deməkdir ki, vətəndaşların hücumları davam edərsə, Rusiyanın mübarizə aparmaq istədiyi ekstremizm daha da artacaq və hal-hazırda Rusiyanın haqlı müdafiə etdiyi suverenliyi terror və

itaətsizliyə dəxli olmayan adi çeçenlər tərəfindən də rədd ediləcək.

Rusiyanın yaratmaq istədiyi quruculuq cəhdləri sonsuz ixtişaşlar vasitəsilə baş tutmaya bilər. Rusiyanın can atdığı irəliləyiş və bizim dəstəyimizlə qlobal inteqrasiyası əngəllənə bilər.

Mən elə bilirəm ki, Rusiyanın dostları terrorizmin sonuna çatmaq üçün müvafiq qərarlar qəbul etməsində, günahsız vətəndaşların qorunmasında, qaçqınların yaşadıqları yerlərə təhlükəsiz qayıtmasında, yardım qruplarının ehtiyacı olanlara çata bilməsində, yenidənqurma kimi birgə səylərində eyni mövqedən çıxış edərək birdirlər. Digər sözlərlə terroristləri təcrid edib, onların kökünü kəsməkdən ötrü siyasi dialoq və siyasi həll olmalıdır - terrorçularla yox, sülh yolu ilə məsələni həll etmək istəyənlərlə.

ATƏT bu dialoqun keçirilməsində əvvəllər olduğu kimi fəal rol oynaya bilər. ATƏT-in rolu bundan ibarətdir. Biz bu işi Birləşmiş Millətlər, digər təşkilatlar vasitəsilə həyata keçirməli, istənilən imkanlardan istifadə etməliyik ki, terrorizmin mövcud olduğu hər bir yerdə ona qarşı mübarizə aparaq.

Sonda icazə verin dostum Prezident Yeltsinin NATO-nun Yuqoslaviyaya təcavüzü fikrinə öz etirazımı bildirim. Fikir verin, Bosniyada hadisələrlə əlaqədar dünya ictimaiyyəti dörd il gözlədi və biz 2,5 mln qaçqın, 250 min ölüm hadisəsi və etnik təmizləmənin şahidi olduq. Mən BMT Baş katibinin cəsarətini yüksək qiymətləndirirəm ki, bir neçə gün qabaq o, BMT-nin bu gözlənilməz mövqeyini böyük səhv adlandırdı və qeyd etdi ki, Srebrenikadakı hadisələrə görə, buna görə BMT cavabdehdir.

Kosovoya fikir verin. Burada dünya ictimaiyyəti gözləmədi. Lakin burada da minlərlə ölən və yüz minlərlə qaçqın var. Lakin Bosniyadan fərqli olaraq biz tez hərəkət etdik. Və indi demək olar ki, hər kəs evindədir, qışı evlərində qarşılayacaqlar. İnanıram ki, biz doğru yol seçdik. Və mən elə bir vaxtın gəlməsinə inanmıram ki, biz bu və ya digər hadisəni hər hansı bir ölkənin daxilində baş verməsinə görə tənqid edə bilməyək.

Prezident Yeltsin, mən Prezident olmazdan əvvəl həyatımda keçirdiyim ən həyəcanlı anlardan biri Sizin Moskvada tankın üstündə dayandığınız vaxt olmuşdur. Onlar Rusiyanı azadlıqdan məhrum etmək istəyirdilər. Siz isə tankın üstündə dayanaraq o adamlara dediniz ki, siz bunu edə bilərsiz, lakin bunu etmək üçün əvvəl məni öldürməlisiniz.

Onlar Sizi Prezident seçmək əvəzinə zindana salsaydılar inanıram ki, bu masanın ətrafında əyləşən hər bir lider Sizin tərəfinizdə və Rusiyanın azadlığı tərəfində olacaq və deməyəcəkdilər ki, eybi yoxdur, bu Rusiyanın daxili işidir və biz heç cür müdaxilə edə bilmərik. Düşünmürəm ki, bizim məqsədləri birləşdirərək ümumi iş uğrunda çalışmaqdan savayı başqa bir yolumuz olar.



Sonda icazə verin bunları deyim. Biz indi burada, Türkiyədəyik və bizim Çeçenistan haqqında, bütün bu mövzular haqqında, Qafqazdakı əziyyətlər haqqında düşünməmiz, Balkanlardakı əziyyətlər haqqında düşünməmiz yerinə düşür. Beləliklə XXI əsrin gələcəyi Asiya ilə Avropanın, bu böyük regionun münasibətlərindən, müsəlman dünyası ilə Qərbin əlaqələrindən, firavan demokratik və stabil icmalarla insan təhlükəsizliyi və azadlıq uğrunda mübarizə aparan cəmiyyətlərin əməkdaşlığından asılı olacaqdır.

Bu yol ayrıcında yaşayan xalqlar həqiqi çətinliklərlə üzləşmişdir ki, biz də bu gün onların həlli ilə məşğuluq. Onlar öz unikal miraslarını və müasir dünyada tam iştiraklarını təmin etmək üçün çalışırlar. Onların bütün problemlərinə yeganə asan cavab yoxdur və ATƏT-in müxtəlif mövqelərin demokratik yolla həll etmək prinsipləri və bu həll zamanı müxtəlif mövqelərə və əsas hüquq və azadlıqlara hörmət prinsipləri başlıca prinsiplər kimi yolgöstərici rolunu oynamalıdır. Bu 1975-ci ildə də belə idi, bu gün isə daha aktualdır.

Çox sağ olun.

## Fransa Respublikasının Prezidenti Jak Şirakın nitqi

Dövlət və hökumət başçıları,

Xanımlar və cənablar,

Helsinki Yekun aktının qəbul olunmasından 25 ilə yaxın keçibdir və biz Paris müqaviləsi imzalandıqdan sonra Berlin divarının 10 illiyini təzəcə qeyd etmişik.

Yeni Avropa dünyaya gəlir. Hər yerdə əməkdaşlıq bloklaşmanı məntiqi suratdə əvəz edir. Demokratiya, insan haqları və insani dəyərlər bizim ümumi məqsədimizə çevrilib. Bu gün biz hamımız inanırıq ki, demokratiya olmadan təhlükəsizlik ola bilməz.

Bu qənaətə gəlməklə hakimiyyəti zorla zəbt etməyi pisləməliyik. Bunu əsas götürərək təklif edirəm ki, gələcəkdə hər hansı bir ölkədə demokratik konstitusiya quruluşu devrilərsə, həmin ölkə ATƏT-in nümayəndəliyindən çıxarılsın.

Gəlin öz xalqlarımıza belə bir bəyanatla müraciət edək: biz demokratiya yolundan başqa heç bir yolu qəbul etməyəcəyik.

Keçmiş Yuqoslaviya xalqlarına bizim bəyanatımız eyni dərəcədə ay-

dındır: Azad tələblər, təkzibedilməz seçkilər! İnsan haqlarına hörmət edin! Öz Avropa ailənizə qayıdın!

Son 10 ildə Balkanlardan başqa yeni münaqişə zonaları yarandı və bunlar ATƏT-i səfərbər etdilər.

Şimali Qafqazdakı böhran bu gün bizi çox narahat edən məsələlərdən biridir.

Çeçenistanın bombardman edilməsinin faciəli nəticələri və dinc əhalinin külli miqdarda tələfatı qəbul edilməzdir. Bu hücum bütün region üçün faciəli bir səhvdir.

Rusiyanın heç bir tərəfdaşı nə onun ərazi bütövlüyünün qorunması, nə də terrorizmlə mübarizə aparılmasının mübahisəsini etmir. Lakin hərbi vasitələr problemin möhkəm və davamlı həll olunmasına aparmır. İndi artıq gərginliyi azaltmaq vaxtıdır. AASQ haqqında müqaviləyə hörmət etmək, dialoq yolu ilə məsələnin siyasi həlli yollarını axtarmaq gərəkdir. ATƏT bunu tam müdafiə etməli və dəstəkləməlidir. Mən istərdim ki, ATƏT-in diplomatik heyəti Moskva və Qroznıya tez-tez gəlsinlər. Humanitar təşkilatlar təhlükəsizlikləri təmin olunmaq şərti ilə azad surətdə və təxirə salmadan dərhal münaqişənin qurbanlarına köməyə buraxılmalıdırlar.

Bizim qitədə heç bir münaqişə diqqətdən kənarda qalmamalıdır. Fransa və başqa dövlətlərin səyləri Moldova və Gürcüstanda olan münaqişələrin həllinə yönəlib. Bu eyni zamanda Dağlıq Qarabağ münaqişəsinə də aiddir. Mən inanıram ki, sülhə nail olmaq olar.

Prezident Əliyev və Koçaryanın cəsarətli və uzaqgörən dövlət xadimləri olduqlarını qeyd etmək istərdim, onlar öz xalqlarını sülh və tərəqqi yolu ilə aparmağa çalışırlar.

Minsk qrupunun həmsədrləri - Fransa, ABŞ, Rusiya onları tam dəstəkləyirlər. Münaqişənin sülh yolu ilə həll olunmasına nail olmaq üçün böyük səylər göstərilməlidir.

Münaqişənin uzun müddətdən bəri gözlənilən həlli beynəlxalq təşkilatlar tərəfindən əsaslı iqtisadi yardım göstərilməsi ilə müşayiət olunacaqdır. Fransa öz növbəsində Avropa İttifaqına, AYİB-ə və Beynəlxalq Banka konkret təkliflər verəcəkdir.

Demokratiya və sülh, xanımlar və cənablar, bunlar - bizim müdafiə etməyə çalışdığımız böyük arzulardır. Qarşıdan gələn illərdə qayğısına qalmalı olacağınız bu məqsədlər təhlükəsizlik müqaviləsində və AASQ haqqında müqavilədə irəli sürülüb.

Ancaq mən bəzi məsələləri araşdırmalıyam: razılaşma həyata keçirildikdə və müddəalarına əməl olunduqda özünü doğruldur. Fransa sammitdə qəbul ediləcək sənədlərin imzalanması barədə öz öhdəçiliyinə dair qərar qəbul edəcək.

Bizim təşkilat ona həvalə olunmuş çoxlu və müxtəlif tədbirləri



uğurla həyata keçirmişdir. Bizim təşkilat bu gün hamının ona verdiyi qiymətə layiqdir. İstərdim ki, gələcəkdə münaqişələrin həlli və qarşısının alınması sahəsində parlaq irəliləyişlər olsun. Nəhayət, qarşıda duran bütün vəzifələrin daha səmərəli həyata keçirilməsindən ötrü təklif edirəm ki, bu təşkilat hüquqi şəxs kimi rəsmiləşdiridsin.

Bəli, bizim qitənin XXI əsrdə ATƏT-in əvəzedilməz töfhəsinə ehtiyacı var.

Gəlin, birlikdə sülhün qorunması və demokratiyanın çiçəklənməsinə kömək edək!

Sağ olun.

## Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinin nitqi

Hörmətli cənab Sədr, xanımlar və cənablar!

ATƏT sammiti bu əsrdə axırıncısıdır. Bu o deməkdir ki, bizim birgə fəaliyyətimizi nəzərdən keçirmək imkanımız vardır. Bununla belə, burada daha vacib olan iş ümumi baxışların XXI əsrdə Avropanın gələcəyi üçün işlənib hazırlanmasıdır.

Rusiya qətiyyətlə ATƏT çərçivəsi daxilində konstruktiv əməkdaşlıq etməyi öz üzərinə götürmüşdür.

Mən əminəm ki, həm Rusiyanın, həm də digər ATƏT üzvlərinin bu gün xüsusilə qarşılıqlı məzəmmətlərə və öyüdlərə deyil, anlaşıqlı dialoqa ehtiyacı vardır. Bizim hər birimizin Avropada sabitliyin və təhlükəsizliyin təmin olunmasında marağımız vardır. ATƏT yarandığı illərdən bəri, xüsusilə bu il böyük ümidlərə, eyni zamanda, ümidsizliklərə rəvac vermişdir. Avropa özünü yeni problemlərlə üz-üzə dayanmış görür.

Bu problemlər qlobal təbiətlidir və birbaşa beynəlxalq mühitdə dəyişikliklərlə və əməkdaşlığın yeni modellərinin çətin axtarışı ilə bağlıdır.

Strateji sabitliyin pozulması, transmilli cinayət və nüvə silahlarının yayılması kimi təhlükələr bu gün bütün Avropa dövlətləri üçün ciddi təhlükələrdir.

Bu problemlərin öhdəsindən ancaq birgə səylər nəticəsində gəlmək olar.

Biz Rusiyada belə birgə cəhdlərə hazırıq. Mən əminəm ki, Avropada sabitlik və təhlükəsizlik məsələlərinə Rusiyadan kənarda baxıla bilməz. Sizin Rusiyanı Çeçenistana görə tənqid etmək hüququnuz yoxdur.

Bütün Moskvanı, digər şəhər və kəndləri əhatə edən qanlı terrorçuluq dalğası 1580 nəfər dinc əhalinin həyatına bais olmuşdur. Bu faciənin ağ-

rısını Rusiyanın digər hissələrindən olan minlərlə ailələr şəxsən öz üzərlərində hiss etdilər.

Son 3 ildə terrorçular 935 nəfər təkcə rus deyil, həmçinin ingilis, amerikan və fransız vətəndaşını əsir götürmüşlər.

Təxminən 200 adam hələ də girov saxlanılır. Onlar dəhşətli işgəncələrə məruz qalırlar; etinasız suallarla dolu olan filmləri seyr etmək qeyri-mümkündür.

Terrorçuları münasiblik məsələləri və ya insani əməllər maraqlandırmır.

Biz bu çətin anlarda bizə öz həmrəyliklərini göstərən və göstərməkdə davam edənlərə, rus xalqının ağrılarını bölüşdürənlərə minnətdarıq.

Eyni zamanda biz Rusiyanın obyektiv tənqidlərinin - bizim sadəcə terrorizmin xərçəng şişinin böyüməsinə müvəqqəti son qoymalı olduğumuzu hələ də qiymətləndirməyənlər və onun metastazlarının Şimali Qafqazdan çox kənarlara və hətta Rusiya Federasiyasının sərhədlərindən kənarda yayılmasının qarşısını almaq göstərişlərini qəbul etmirik.

Çeçenistan daxilindəki düşərgələrdə hazırlaşdırılan və yaxud xaricdən gələn minlərlə muzdlular öz ekstremist ideyalarını bütün dünyaya yaymağa hazırlaşmaqdadırlar.

Biz terrorçuların haradan və hansı ölkələrdən dəstək aldıqlarını çox yaxşı bilirik. Mən çox tezliklə bu dövlətlərin başçılarına belə bir fəaliyyətə son qoymaq barədə müraciət edəcəyəm.

Beynəlxalq terrorçuluq təkcə Rusiyaya problem törətmir. O, Rusiyada yaranmamışdır və terrorçuların sonuncu təyinatları heç də Qafqaz deyil.

Mən burada onu da vurğulamaq istərdim ki, Çeçenistan Respublikasında sülh ilə quldurlarla aparılan sülh danışıqları eyni şey deyildir. Heç kim bu barədə aldanmamalıdır. Burada quldurlarla və canilərlə heç bir danışıqdan söhbət gedə bilməz.

Biz Çeçenistanda sülhün və vəziyyətin siyasi həllinin tərəfdarıyıq. Quldur təşkilatlarının tamamilə məhv olunması və terrorçuların aradan qaldırılması və yaxud cəzalandırılmasına nail olmaq vacibdir. Rusiyanın hələ də Avropa və ATƏT-in dəstəyinə və anlamına ümid bəsləməyə haqqı vardır.

Xanımlar və cənablar!

Yeni erada Avropa insan hüquqlarının qorunması, müstəqil dövlətlərin daxili işlərinə müdaxilə olunmaması və beynəlxalq təhlükəsizlik ideyaları üçün əsas rol oynamaq iqtidarındadır.

Mən əminəm ki, bu ideyalar yalnız birgə əməkdaşlıq, qarşılıqlı inam və hörmət əsasında və biz avropalıların, mən təkrar edirəm, biz avropalıların artıq öz qitəmizdə yaratmağa müvəffəq olduğumuz hər şeyin əsasında həyata keçə bilər.



Beləliklə, Avropanın gələcəyi barədə olan müzakirələr zamanı üzə çıxan heç də bütün ideyalar bizə yaxşı əsaslandırılmış ideyalar təsiri bağışlamır. Mənim yadıma humanitar vasitəçilik tələbi düşür - bu, insan hüquqlarının və azadlıqlarının müdafiə olunması bəhanəsi altında irəli sürülsə də, digər dövlətin daxili işlərinə qarışmaq üçün yeni ideyadır. Biz hamımız belə tələbin hansı qeyri-uyğun nəticələrə malik olduğunu bilirik. ABŞ-ın başçılıq etdiyi NATO-nun Yuqoslaviyaya qarşı olan təcavüzünü xatırlamaq kifayətdir.

İndi yeni eranın astanasında bizim birgə səylərimizin əsas prinsipi zərər yetirməyi kənarlaşdırma olmalıdır. Buna görə də biz bu gün müxtəlif texnologiyaların - qarşılıqlı surətdə məqbul yolların axtarılması texnologiyalarını, xüsusilə qeyri-standart şəraitlərdən birgə çıxış texnologiyalarını təklif edirik.

Buna görə biz, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsini beynəlxalq hüquq prinsiplərini və hər şeydən əvvəl, Helsinki Yekun aktının 10 prinsipini rəhbər tutmağa çalışırıq. Çətin danıla bilər ki, dəyişkən dünyada onların əhəmiyyəti artmaqdadır.

Burada, İstanbulda Türkiyənin Prezidenti Süleyman Dəmirəl o tarixi sənədi imzalayan yeganə siyasətçidir ki, iştirak edir və bu rəmzi məna daşıyır.

Xanımlar və cənablar,

Yüzlərlə insanların ümumi talelərinin birləşdiyi Rusiya həmişə sülh və ahəngdarlığı qiymətləndirmişdir. Biz öz təcrübəmizdən bilirik ki, münaqişə düyünlərini açmaq nə qədər çətindir.

Və bir daha bu bizim beyinlərimizə həkk olunmuşdur ki, inadkarlıq və çılğınlıq yalnız münaqişələrə gətirib çıxarır.

Hörmətli Türkiyə Respublikasının Prezidenti, icazə verin Sizin ölkənizə öz qonaqpərvərliyinə və sammitin təmtəraqlı təşkilinə görə təşəkkürümü bildirim.

Biz bu gün imzalayacağımız Avropa Təhlükəsizlik Xartiyasını nəzərə alırıq - və mən “bu gün” sözünü xüsusilə vurğulayıram, çünki bu gün Rusiya nümayəndə heyəti buranı bütün ATƏT ərazisi boyunca düzgün və şərəfli əlaqələr kodu kimi, təkcə qanunları deyil, həmçinin qarşılıqlı məsuliyyətləri əhatə edən bir kod kimi tərk edir. Bununla Biz qitədə təhlükəsizliyin və xoşbəxt həyatın təminatını, XXI əsrdə çox qütblü dünyanın yaradılmasına birgə köməyi bunda görürük.

Bu məsuliyyəti də Rusiya Avropanın digər xalqları ilə bölüşdürməyə hazırdır.

Sağ olun.

## Finlandiya Respublikasının Prezidenti Martti Ahtisaarinin[8] nitqi

Cənab Sədr,

Mən Türkiyə hökumətinə ATƏT-in İstanbul sammitində iştirak edənlərə göstərdiyi qonaqpərvərlik və səmimi qarşılanma üçün minətdarlığımı bildirmək istərdim. Qonaq qəbul edən bu ölkənin sammitin müvəffəqiyyətli keçməsi üçün göstərdiyi cəhdlər ona görə çox qiymətlidir ki, bu yaxınlarda baş vermiş zəlzələlər faciəvi insan ölümünə və dağıntılara səbəb olmuşdur. Lazımi səviyyədə beynəlxalq əməkdaşlığa olan ehtiyac təbii fəlakət və insanların törətdiyi böhranlar vasitəsilə nəzərə çarpdırılır.

ATƏT-in ofis sədri, nazir Vollebek və onun əməkdaşları hədsiz dərəcədə diqqət tələb edən bir tapşırıqla üzləşiblər, lakin Norveç sədrliyi bu çətin şəraitdə təşkilatı qoruya və hamını yerində saxlaya bilmişdir. Xüsusilə də mən, Avropa Birliyinə bizim sədrliyimiz dövründə ATƏT ilə Finlandiya arasında olan sıx əməkdaşlığımızı qiymətləndirirəm.

Cənab Sədr,

Geriyə dönüb soyuq müharibədən sonra gələn birinci onilliyə baxanda, Avropa Birliyi İstanbul sammitinin, iştirakçı dövlətlərin qarşılıqlı inamını möhkəmlətmək və əməkdaşlıq təhlükəsizliyini dəstəkləmək üçün əvəzedilməz bir imkan olduğunu görür. Bu o deməkdir ki, biz bu sammitin yeni minillikdə dönüş yaratmağını istəyirik. ATƏT-in və digər beynəlxalq təşkilatların hər şəraitə uyğun hərəkət etməsi nəzərdə tutulur.

Birlik Avropa Təhlükəsizliyi Xartiyasının qəbul edilməsini alqışlayır. Xartiya dəyişikliklərin yeni onilliyində bizə rəhbərlik etməli, demokratiya, sülh və Helsinki Yekun aktının əsasında Paris Xartiyasının elan etdiyi birlik ideyalarını həyata keçirmək üçün səylərini gücləndirməlidir. Xartiya ATƏT-in statusunu əməkdaşlıq təhlükəsizliyi üçün inklüziv forum kimi yenidən təsdiq edir və onun tapşırıqlarını yerinə yetirmək və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək qabiliyyətini inkişaf etdirir.

Heç bir təşkilat qarşıda duran tələbləri təklikdə yerinə yetirə bilməz. Xartiyanın özək anlayışı kimi qəbul olunmuş əməkdaşlıq təhlükəsizliyi platforması beynəlxalq təşkilat və qurumlar arasında daha yaxın və qeyri-iyerarxik və tənzimlənmə üçün yaxşı əsas təmin edir. Eyni zamanda, ATƏT özünün şəxsi heyətini sahə əməliyyatları üçün tez səfərbər etmək qabiliyyətini inkişaf etdirir.

Avropa Birliyi həmçinin CFE müqaviləsinin qəbul olunmasını və Vyana etimad və təhlükəsizlik sənədinin yenidən bağlanmasını alqışlayır. Bu qərarlar soyuq müharibədən sonra Avropada təhlükəsizliyin möhkəmlənməsinə köməklik göstərirlər.



Cənab Sədr,

Kosovoda böhranın dərinləşməsi beynəlxalq birliyin birgə hərəkətinə ehtiyacı bir daha yada saldı. Bu sammit Qərbi Balkanlarda sabitliyin və sülhün möhkəmləndirilməsi üçün öz dəstək və rəhbərliyini əsirgəməməlidir və Avropanın birləşməsi və Cənub-Şərqi Avropanın tam şəkildə inteqrasiyası üçün yeni-yeni təkliflər verməlidir.

BMT-nin Kosovodakı sülhə rəhbərliyi beynəlxalq təşkilat və qurumlar arasında tənzimlənməyə nadir misaldır. Avropa Birliyi öz işini görür. İcazə verin, bir daha burada təkrar edim ki, məqsədimiz müharibədən zərər çəkmiş icmaları yenidən qurmaq, dözümlülük və barışıq hissləri tərbiyə etmək və Kosovonun demokratik bir cəmiyyət olmasına kömək etməkdir.

Cənub-Şərqi Avropanın sabitlik paktı geniş surətdə əsaslandırılmış və davamlı həll yollarını tapmaq üçün hazırlanmışdır. Bu həll yolları demokratiya, insan hüquqları, iqtisadi yenidənqurma və təhlükəsizlik ilə bağlı məsələlərə aiddir. Pakt Cənub-Şərqi Avropada dönüş nöqtəsi yarada bilər və onunla kontinentimizin qalan hissəsi arasında əlaqə yarada bilər. Davamlı sülhü təmin etmək üçün biz uzunmüddətli demokratik idarəetmə, iqtisadi inkişaf və təhlükəsiz əməkdaşlıq qurmalıyıq.

Keçən iyulda Sarayevo sammitindən sonra Sabitlik Paktında əldə olunmuş nailiyyətlər Avropa Birliyi tərəfindən alqışlanır. Bu, əsas etibarilə Xüsusi əlaqələndirici cənab Hombaqın bu sammitdəki çıxışında öz əksini tapmışdır. Üç işçi qrupunun hamısında olan mühüm təşəbbüslər müəyyənləşdirilmişdir. Biz ATƏT sammitində əldə olunmuş nailiyyətləri burada tətbiq etməyə və sabitlik Paktının iştirakçılarını təşəbbüslərin həyata keçrilməsini intensivləşdirməyə çağırırıq. Avropa Birliyi Sabitlik Paktında aparıcı rol oynamaqla, Xüsusi əlaqələndiricinin işinə özünün tam dəstəyini verir.

Cənab Sədr,

Şimali Qafqazda baş verən və narahatçılıq doğuran hadisələr İstanbul sammitinə son hazırlığı kölgədə qoymuşdur. Avropa Birliyi Çeçenistanda gücün geniş tətbiqini pisləyir. Bu zorakılıq dinc camaatı böyük itkilərə məruz qoyub. Avropa Birliyi Rusiyanı israrla təhrik edir ki, beynəlxalq humanitar qanunlara və ATƏT-in davranış qaydalarına riayət etsin. Beynəlxalq humanitar yardımın maneəsiz olaraq gətirilməsi təmin olunmalıdır.

Avropa Birliyi hesab edir ki, siyasi problemin hərbi yolla həlli qeyri-məqbuldur və qeyri-mümkündür. Biz, xüsusilə Rusiya hökuməti ilə Çeçenistan da daxil olmaqla Şimali Qafqazın seçilmiş liderləri arasında mükalimənin keçirilməsinə bu siyasi problemin həllində ehtiyac olduğunu vurğulayırıq. Rusiya ATƏT-in imkanlarından istifadəni ciddi olaraq nəzərə almalıdır. İlk addım olaraq, İnquşetiyada ATƏT-in köməkçi qrupunun binası açılmalıdır.

Avropa Birliyi Rusiya Federasiyasının ərazi bütövlüyünə dair dair öz nəzər-nöqtəsini saxlayır və terrorizmi dönə-dönə pisləyir.

Cənab Sədr,

Avropa Birliyi ATƏT-in Mərkəzi Asiyada gördüyü işi tam bəyənir və ATƏT-in bu regionda daha fəal rol oynadığını dəstəkləyir. Avropa Birliyi hesab edir ki, ATƏT-in regional inkişaf, təhlükəsizlik və əməkdaşlığa yönəldilmiş strategiyası çərçivəsində hər bir ölkənin xüsusi ehtiyacları nəzərə alınmalıdır.

Avropa Birliyi həmçinin Moldovada, Gürcüstanda və Dağlıq Qarabağda münaqişələrin qeyd-şərtsiz həllinədə ATƏT-in yardımına olan ehtiyacı bir daha vurğulamaq istərdi.

Cənab sədr,

İnsan amilinin əməkdaşlıq təhlükəsizliyinin inkişafında xüsusi yeri təmin olunmalıdır. Birlik xüsusi olaraq milli və etnik azlıqlara (Roma və Sinti də daxil olmaqla) məxsus insanların hüquqlarının və hər şəraitdə müxtəlif etnik tərkibli cəmiyyətlərin qorunub saxlanılmasını xüsusilə vurğulayır. Bu münasibətlə mən səfir Maks fon der Stoelə gördüyü iş üçün ürəkdən təşəkkür etmək istərdim və onun daha bir il ərzində Milli azlıqlar üzrə Ali komissar olmasını alqışlayıram.

Axırda isə, cənab Sədr, Avstriyanı ATƏT-in yeni ofis sədri kimi salamlamaq imkanından məmnuniyyət duyduğumu demək istərdim. Biz əmin ola bilərik ki, 2000-ci ildə ATƏT yaxşı əllərdə olacaq.

Təşəkkür edirəm.



## İsrail Dövlətinin Baş naziri Ehud Barakın[9] nitqi

Cənab Sədr,

Həmkarlarım,

Hər şeydən əvvəl, icazə verin mən Türkiyə dövlət orqanlarının göstərdiyi böyük qonaqpərvərlik və Sammitin keçirilməsi üçün yaradılan gözəl şəraitə görə öz minnətdarlığımı bildirim. Yaranmış imkandan istifadə edərək mən öz dövlətim və xalqım adından qonşu ölkənin minlərlə vətəndaşının həyatına son qoymuş bir neçə dəhşətli zəlzələ ilə bağlı da dərin hüznlə başsağlığı verirəm.

Fəaliyyətdə olduğu müddət ərzində nümayiş etdirdiyi gözəl iş qabiliyyəti və səmərəli işinə görə mən ATƏT-in hazırkı sədrinə, Norveçin xarici işlər nazirinə öz təşəkkürümü bildirir və onu salamlayıram.

Sammitin gündəliyində duran məsələlərin həllinə keçməmişdən əvvəl, mən bizim yaxın həmkarımız Leonid Kuçmanı Ukraynada keçirilən prezident seçkilərində əldə etdiyi parlaq və inamlı qələbəsinə görə ürəkdən təbrik etmək istərdim. Avropanın aparıcı dövlətlərindən biri olan Ukraynanın vətəndaşlarının seçki yolu ilə müstəqillik və demokratik islahatlar kursu üzrə öz öhdəliklərini təsdiq etməsi bizim qəlbimizi nikbin hisslərlə doldurur.

İstanbul sammitində biz millətlər və onların vətəndaşlarının təhlükəsizliyinin qorunmasına əməl edilməsi üzrə prinsiplərin müəyyənləşdirilməsinə dəvət edən müqavilə imzalayırıq. Bu prinsiplər ATƏT-in azad, demokratik və inteqrasiyalı cəmiyyət quruculuğu prinsipləri çərçivəsində həyata keçiriləcəkdir. Bu sənəd XXI əsrin Avropa Konstitusiyası hesab edilə bilməsə də, təklif olunan siyasi sənəd açıq-aydın irəliyə doğru atılan addım hesab edilməlidir.

Bu sənədə ciddi şəkildə əməl olunması bütün dünya ölkələrinin təhlükəsizliyinə əhəmiyyətli dərəcədə kömək ola bilər. ATƏT çərçivəsində nəzərdə tutulan inkişaf Yer kürəsində siyasi mühiti müəyyənləşdirir. Əgər biz bu məsələləri irəli sürərək, həmişə və hər yerdə bu müqavilənin prinsipləri üzrə öhdəliklərə əməl etsək, bu zaman ATƏT müsbət enerji yayaraq dünyanın qalan hissəsinin rəqabət aparacağı bir modelə çevrilər.

Böhran vəziyyətinin nizamlanmasında ATƏT-in fəaliyyət meydanını genişləndirmək və sülhməramlı əməliyyatlarda onun fəal iştirakını təmin etmək üçün müqaviləyə bir sıra gərəkli maddələrin daxil edilməsi faktı olduqca sevindiricidir. Münaqişə hallarının hələ həll olunmadığı və sabitli-

yin pozulması üçün təhlükənin hələ də qaldığı bölgələrdə bu sənədin xüsusi əhəmiyyəti olacaqdır.

ATƏT-in Yaxın Şərq böhranının həlli prosesində oynadığı müsbət rol bu regionda münaqişələrin bir qədər zəifləməsinə səbəb olmuşdur. Bu gündən başlayaraq biz ATƏT-in bu bölgədə mövcud vəziyyətin nizamlanması üçün daha böyük səylər göstərməsini görmək istərdik. Hazırda Yaxın Şərq regionu dünyanın və xalqımızın ən yaralı, ən ağrılı nöqtələrindən biri kimi qalmaqdadır. Qeyd etmək istərdim ki, ATƏT-in son iki sammitinin yekun sənədlərində bu bölgədə baş verən hadisələrə ən obyektiv qiymət verilmişdir. Törədilən cinayətlər nəticəsində minlərlə dinc sakin müxtəlif dərəcəli zədələr alaraq ən əsas hüquqlarından-öz doğma ev-eşiklərində yaşamaq hüququndan məhrum olmuşlar.

Etnik təmizləmə nəticəsində dözülməz iztirablara düçar olaraq insanlığa qarşı yönəlmiş bu cinayətləri qəbul etmək bizim üçün xüsusən ağırdır. Məhz bu səbəbə görə biz NATO-nun Kosovoda keçirdiyi hərbi əməliyyatları dəstəklədik.

Bu gün Yaxın Şərq bölgəsi dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Bölgədə açıq-aşkar nəzərə çarpan fəal siyasi separatçılıq və etnik təmizləmə siyasəti yeridilməsəydi, böhran bu həddə gəlib çatmazdı. Hər halda mənim təkrar müraciətlərim nəzərə alınmadı.

Aydındır ki, bu regionda hərbi qüvvənin tətbiq olunması ilə münaqişənin birdəfəlik həllinə nail olmaq mümkün deyildir. Bu bölgədəki kəskin cəbhələşmə çoxtərəfli yanaşma tələb edir. Müxtəlif qonşu ölkələrlə mövcud olan siyasi və inzibati sərhədlərə baxmayaraq, bu bölgə vahid bir orqanizm olaraq qalır. Bu bölgəyə cəlb olunmuş hərbi qüvvələr münaqişələrin həllində bu sadə həqiqəti anlamalıdırlar.

Yaxın Şərqdə sülh və sabitliyin bərqərar olması bu gün nəinki bu ərazilərdə məskunlaşan əhalini, o cümlədən, bütün dünyanı maraqlandırmalıdır.

Region yeni Böyük İpək yolu kimi tanınan nəhəng nəqliyyat və kommunikasiya layihələrinin kəsişdiyi nöqtədə yerləşir. Neft-qaz kəmərləri şəbəkəsi, nəqliyyat şosseləri, Avro-Asiya ərazilərində kəsişən 4 kabel bəşəriyyətə misilsiz gəlir gətirəcəkdir.

Yeni Böyük İpək yolu layihəsinin həyata keçirilməsi yalnız keçmiş sovet imperiyası ərazisində yeni dövlətlərin meydana gəlməsindən sonra mümkün olmuşdur. Onların sabit və müstəqil inkişafının açarı bu layihənin uğurla həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasındandır.

Təklif olunan müqavilənin II fəslində göstərilən maddələrdən birində qeyd edilir ki, heç bir dövlət ATƏT çərçivəsində olan bölgələrdən heç birini öz nüfuz dairəsi hesab edə bilməz. Eyni zamanda, hər bir iştirakçı dövlət, ittifaq haqqında müqavilə də daxil olmaqla, təhlükəsizliyin nizamlanmasına edilən dəyişikliklərin seçilməsində və yaxud həyata keçirilməsində azaddır. Bizim günlərdə siz sivilizasiyalı insanlar arasında kannibalizmin yolverilməz olduğunu müzakirə etmək qədər bəsit fikri təkrarlamağı yəqin ki, artıq hesab edərdiniz. III minilliyin əvvəlində ATƏT çərçivəsində gözlə görünən və ya görünməyən, həll olunması mümkün ideoloji fərq və manеələrin həllində əldə olunan uğurlardan sonra nüfuz dairəsi məfhumunun işlənilməsi ən azı anoxronizmdir. Millətlərin azad seçki hüququnu nəzərdə tutan beynəlxalq münasibətlərin demokratikləşdirilməsinə gəlincə, o, insan hüquqlarının qorunması qədər məşhurlaşmalıdır.



Bu kontekdə nəhəng dövlətlərdən birinin hökumət nümayəndəsinin bir qədər əvvəlki müraciəti narahatlıq üçün bizə əsas verdi. Onun fikrincə, bu bölgədə inkişaf onun ölkəsinin bu bölgədəki strateji maraqlarına təhlükə yaradır. Biz bunu necə başa düşək? Bu o demək deyildirmi ki, onun ölkəsi ATƏT-in üzvü olan müstəqil region dövlətlərinə keçmişdə olduğu kimi indi də öz nüfuz dairəsi kimi baxmaqda davam edir? Bəlkə də inhisara almaq məqsədi ilə qonşu dövlətlərin siyasi və iqtisadi həyatına müdaxilə etmək cəhdləri hələ də mümkündür? Ümid edirəm ki, bu məsələ üzrə bu nümayəndənin fikri həmin ölkənin ali siyasi rəhbər orqanlarının fikri ilə üst-üstə düşmür.

Rusiya Hərbi Hava qüvvələrinin bu günlərdə Qafqaz dağlarında Çeçenistan kəndlərini bombardman etməsinə baxmayaraq, mən Rusiya dövlət orqanlarını və Rusiya Federasiyasının prezidentini bombardmanı dayandırmağa dəvət edirəm. Bu, qonşu dövlətlərə müsbət təsir göstərər.

İnanın mənə, biz keçmişin təcrübəsi əsasında yox, bu gün imzaladığımız müqavilədə öz əksini tapan tam bərabərlik prinsipləri əsasında ən yaxşı dostluq, ikitərəfli və çoxtərəfli münasibətlər qurmağa hazırıq.

Bu siyasi sənədlərin birlikdə nə qədər mühüm olduğunu nəzərə alaraq, onların səmərəliliyi əsasən bu sənədi imzalayan dövlətlərin siyasi kursunda nəzərdə tutulan dəyərlərdən asılı olacaqdır. ATƏT-in təcrübəsi bunu bir daha təsdiq edir. Helsinki yekun aktı soyuq müharibə mərhələsinin ən inqilabi siyasi sənədlərindən biri olmuşdur. Bu akt ikitərəfli cəbhələşmənin aradan qaldırılması işinə ən misilsiz bir töhfə olmuşdur. Bu müqavilənin qəbulu o vaxt sosialist düşərgəsinin əksər ölkələrində əsas insan hüquqlarının pozulmasının qarşısını ala bilmədi. ATƏT-in hətta ən səthi şərhində belə xronologiya açıq-aydın göstərir ki, bu təşkilatın əsl mənada inkişafı ancaq soyuq müharibədən sonra baş vermiş, sonrakı köklü dəyişikliklər xarici və daxili siyasətə toxunmuşdur.

Əgər sosialist düşərgəsində baş verən dəyişikliklər ətrafında dünyada fikir dəyişikliyi baş verməsəydi, Paris Müqaviləsini imzalamaq mümkün olardımı? OVE haqqında müqavilənin taleyi görəsən necə olardı? Bu müqavilə müasir həqiqətlərə uyğunlaşdırılmışdırmı və bu sammitdə imzalanacaqdırmı?

Mən həm də hesab edirəm ki, iqtisadi böhranın aradan qaldırılması üçün birgə mübarizənin mexanizmləri gələcəkdə daha konkret olmalıdır. İqtisadi partlayışlar hətta siyasi münaqişələr və etnik cəbhələşmələrdən də dağıdıcı ola bilər. Bu təhlükə, əlbəttə ki, lap bu yaxınlarda demokratiya quruculuğu yoluna qədəm qoymuş yeni dövlətlər üçün xüsusilə aktualdır. Yaxşı olardı ki, biz sülh prosesini dağıdan əsas qüvvələrdən biri kimi bu məsələyə xüsusi əhəmiyyət verərdik.

Məncə, bəzi təşkilati dəyişikliklərə ehtiyac vardır. ATƏT-in mənəvi rəhbərliyini öz üzərinə götürəcək təhsil müəssisəsini buraya daxil etmək yaxşı olardı. Yenidənqurma müddətində rəhbərlərin rolu həqiqətən də əvəzedilməzdir.

Beləliklə, son nəticədə, ATƏT çərçivəsində təhlükəsizlik və rifah xalqlarımızın azadlıq, humanizm və demokratiya yolunu seçməsi üçün nə qədər hazır olacağından asılıdır. Ümidvaram ki, İstanbul sammiti bu yolda ən azı mühüm göstəricilərdən biri olacaqdır.

## Norveçin Baş naziri Kyel Maqne Bondevikin[10] nitqi

Zati-aliləri Prezident Dəmirəl,

Xanımlar və cənablar,

25 il ərzində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və onun davamçıları bizə yaxşı xidmət göstərmişlər.

ATƏT Vankuverdən Vladivostoka qədər ümumi təhlükəsizliyin və sabitliyin təmin edilməsinə köməklik göstərmişdir. Bizim ərazidə böyük müharibə təhlükəsinin aradan qaldırılması məqsədilə silahların azaldılması barədə biz ATƏT-lə razılığa gəlmişik. Biz insan haqları üçün müəyyənləşdirilmiş standartlar yaratmış və onları hər birimizin maraqları əsasında qurmuşuq. ATƏT bizi üzləşdiyimiz çətinliklərə dair məsləhətləşmə və əməkdaşlıq üçün forumla təmin edir.

ATƏT bizim üçün çox vacib əhəmiyyət kəsb edir. Bu gün, bu tarixi şəhərdə biz ümidlə ATƏT-in gələn əsrdəki vəzifələrini müəyyənləşdiririk.

Bizim əsas hesab etdiklərimiz bunlardır:

1. Biz münaqişələrin qarşısını alan ehtiyat tədbirlərini gücləndirməliyik. Həll edilməmiş münaqişələr siyasi uğursuzluq deməkdir. Hərb yolunu seçmək isə ən baha başa gələn yoldur - həm imkanlar baxımından, həm də insanların əzab çəkməsinə, itki verməsinə görə çıxardığımız nəticə budur: Münaqişəyə çevrilməmişdən qabaq biz gərginliyi azaltmağa və mübahisələrə mane olmaq üçün səylərimizi ikiqat gücləndirməyə çalışmalıyıq. TSYƏK - Təxirəsalınmaz Səriştəli Yardım və Əməkdaşlıq Komandası əlimizdə olan mexanizmlərə qiymətli əlavədir.



2. Biz münaqişələrin yaranma səbəblərini yenidən müəyyən etməliyik:

Dövlətlər arasındakı münaqişə riski nəzərəçarpacaq şəkildə azalıb. Zorakılıq daha çox ölkələrin daxilindəki etnik, siyasi və dini ekstremizmdən doğur. İştirak edən dövlətlərin vasitəçiliyi və yardımı qəbul etməyə hazır olması həlledici amildir.

3. Biz razılığa gəlməyimizi gücləndirməliyik: prinsip və praktikalar arasında çox tez-tez fikir ayrılıqları olur. Biz öhdəliklərimizə dair böyük transporant qəbul etməli və elan etdiyimizin gördüyümüz işlər olduğunu sübuta yetirən birgə mexanizmlərin inkişaf etdirilməsini davam etdirməliyik.

4. Biz insan haqqlarını və əsas azadlıqları müdafiə etməliyik: insanlıq meyarları həmişə ATƏT-in fəaliyyətinin əsası olacaq. İnsan haqqlarına hörmət etmədən nə həmin təhlükəsizliyə, nə də əsl sabitliyə nail olmaq olar. O, milli azlıqların hüquqlarına tam hörməti, kişilər və qadınlar arasındakı bərabərliyi nəzərdə tutur. Zirvə toplantısının bəyanatı deyilənlərin mahiyyətini belə başa düşür: Bizim cəhdlərimizin məqsədi hər bir şəxsin həyatında müxtəliflik yaratmaqdır.

5. Biz rifahı birgə bölüşməliyik. İqtisadi inkişafdakı bərabərsizlik sabitliyə böyük təhlükə olan qarşıdurmanı əvəz edib. Biz rifah halını yaxşılaşdırmaq üçün cəhdlərimizi gücləndirməliyik. Bizim aramızda çoxları bunu reallığa çevirə bilər və çevirir.

Xanımlar və cənablar,

Təhlükəsizlik nizamnaməsinin qəbul edilməsi ilə biz böhranın qabağını almaq, ona mane olmaq və böhranı həll etmək üçün birgə səylərimizi gücləndirməliyik.

Mən Avropada adi silahlı qüvvələrin uyğunlaşdırılmasını alqışlayıram. Bu müqavilə ATƏT ərazisində sabitliyə və sülhə kömək etməkdə həlledici rol oynamalıdır və yenə də oynayacaqdır.

Çeçenistandakı vəziyyət ciddi məsələdir. Biz Rusiya Federasiyasının ərazi bütövlüyünə tamamilə hörmət edirik. Biz terrorizmi ittiham edir və buna qarşı mübarizə hüququnu dəstəkləyirik. Lakin biz qüvvələrin məqsədsiz işlənməsinə gözümüzü yuma bilmərik və həyəcanlı vəziyyət indi də davam edir. Biz zorakılığın sonunu gözləyirik. Biz Rusiya hökumətinin beynəlxalq yardımı qəbul etməsini və siyasi vasitələrin axtarılmasını

təkid edirik. Biz ATƏT sədrinin bu əraziyə səfər edəcəyi qərarını alqışlayırıq. ATƏT yardım etməyə hazırdır.

Biz ümid edirik ki, BMT-nin Qaçqınlar üzrə komissiyasının sədri Sadako Oqatanın dünənki səfəri Çeçenistandakı böhran qurbanlarına lazımi humanitar yardımın çatdırılmasını mümkün edəcəkdir.

Şimali Qafqazdakı hərbi ləvazimatlar AASQ haqqında müqavilənin bizim tərəfimizdən qəbul edilmiş hədlərini aşır. Bu çox ciddidir. Baş nazir Putin Oslodakı bəyanatında qeyd etdi ki, Rusiya transporant öhdəliklərini yerinə yetirmək və regionda qüvvələrini mümkün qədər tez azaltmaq arzusundadır. Bu təqdirəlayiq addım idi. Bu indən belə də davam etdirilməlidir.

Cənubi-Şərqi Asiyada Sabitlik sazişi Balkanlarda yeni münaqişələrin qarşısını almağa yeganə imkandır. Bu proses fəaliyyət göstərir, lakin bunu sürətləndirmək lazımdır. Regiondakı dövlətlər beynəlxalq birliyin güclü dəstəyi ilə bu prosesi irəli aparmalıdırlar.

Dağlıq Qarabağ üzrə Ermənistan və Azərbaycan arasındakı yüksək səviyyəli dialoqlar nikbinliyə əsas verir. Biz ümid edirik ki, bu tezliklə real nəticələrə gətirib çıxaracaqdır.

Mən Mərkəzi Asiya üçün ATƏT-in strategiyasını bəyənirəm. Bu, regionun maraqlarını müdafiə etməkdə hərtərəfli cəhdlərin ilk addımıdır. Mən Türkiyəyə bu zirvə toplantısını əla təşkil etməsinə görə təşəkkür etmək istəyirəm. Siz bunu zələzələnin ağır sınaqları ilə üzləşərkən etmişsiniz. Mən Türkiyə xalqına və hökumətinə bizim səmimi hüsn-rəğbətimizi bildirirəm. Həmsədrlik edən ölkənin başçısı kimi mən ATƏT-in bütün üzvlərinə bu il ərzində bizim birgə cəhdlərimizi müdafiə etdikləri üçün səmimi təşəkkürlərimi bildirmək istərdim.

Bu, çətinliklər ili olub. Biz Balkanlarda, Qafqazda və digər yerlərdə ciddi müqavimət göstərməkdə davam edəcəyik. Biz ümumi əzmlə və lazımi ehtiyatlarla bu çətinlikləri dəf etmək məsuliyyətində şərikik. Biz Avropanın bütövlüyü və azadlığı arzularını birgə həyata keçirməliyik. Təşəkkür edirəm.



## Gürcüstanın Prezidenti Eduard Şevardnadzenin[11] nitqi

Cənab Sədr!

Hörmətli həmkarlar!

Hər şeydən əvvəl, icazə verin, mən Türkiyə dövlət orqanlarının bizə göstərdiyi böyük qonaqpərvərliyə və bu görüşün yaxşı təşkil olunduğuna görə dərin minnətdarlığımı bildirim. Eyni zamanda mən qardaş qonşu dövlətin minlərlə günahsız vətəndaşının həyatını əlindən alan bir neçə dəhşətli zəlzələ ilə bağlı gürcü xalqının adından dərin hüznlə başsağlığı verməyi özümə borc bilirəm.

Mən ATƏT-in icraçı sədri, Norveç dövlətinin xarici işlər nazirinə öz fəaliyyəti dövründə səmərəli işinə görə təşəkkürümü bildirirəm və onu salamlayıram.

Sammitin işində iştirak etməyə başlamazdan əvvəl, mən Ukrayna dövlətinin prezident seçkilərində əldə etdiyi parlaq qələbəyə görə öz yaxın dostum Leonid Kuçmanı ürəkdən təbrik edirəm. Avropanın aparıcı dövləti olan Ukrayna vətəndaşları ölkənin müstəqillik və demokratik islahatlar xətti tutması üçün düzgün seçim keçirilməsini təmin etmişlər. Bu bizim qəlbimizə nikbinlik gətirir.

İstanbul Sammitində biz gələcək fəaliyyət prinsiplərini nəzərdə tutan xartiya imzalayırıq. Hər bir vətəndaşın bu xartiya prinsiplərinə əməl etməsi azad, demokratik və ATƏT çərçivəsində inteqrasiya olunmuş ölkələrin və onların vətəndaşlarının təhlükəsizliyinin təmin olunması deməkdir. Lakin bu sənəd XXI əsrin Avropa Konstitusiyası hesab edilə bilməz. Təklif olunmuş siyasi sənəd yalnız irəliyə doğru atılmış bir addımdır.

Bu sənədə tam dəqiqliklə əməl olunması dünyanın təhlükəsizlik prinsiplərinə çox mühüm bir töhfə olacaqdır. Bu sənədə əsasən qlobal şəkildə siyasi mühiti müəyyənləşdirən ATƏT çərçivəsində fəaliyyət prinsipləri işlənib hazırlanacaqdır. Əgər biz bu dəyişiklikləri həmişə və hər yerdə həyata keçirməyə başlasaq, bu zaman həmin xartiyada öz əksini tapan prinsiplər üzrə əməkdaşlıq etmiş olarıq, bu istiqamətdə ATƏT-in müsbət enerjisini də qəbul edərək dünyanın digər dövlətləri ilə rəqabət apara biləcək bir model yaradarıq.

Böhranlı vəziyyətlərin aradan qaldırılması və sülhün qorunması sahəsində ATƏT-nin fəaliyyətinin genişləndirilməsi üçün bu xartiyaya bir sıra gərəkli elementlərin daxil edilməsi faktı olduqca sevindiricidir. Bu elementlər münaqişəli bölgələri olan ölkələr və qeyri-stabilliyin yeni faciələrlə nəticələnə biləcəyi təhlükəli olan dövlətlər üçün daha bö-

yük əhəmiyyət kəsb edir. ATƏT nümayəndəliyinin Gürcüstanda fəaliyyəti Tsxinvali bölgəsində münaqişənin yatırılması prosesinin həyata keçirilməsində müsbət rol oynamışdır. Bu gündən etibarən biz Abxaziya münaqişəsinin nizamlanması üçün göstərilən səylərə ATƏT-in fəal şəkildə qoşulmasını böyük səbirsizliklə gözləyirik. Bu günədək bu münaqişə xalqımızın ən yaralı yerlərindən biri kimi qalmaqdadır. Qeyd etmək istərdim ki, Abxaziya bölgəsində baş verən cinayətlərə ən obyektiv qiymət verən ATƏT-in son sammitlərinin hər ikisinin yekun sənədlərində bu məsələ öz əksini tapmışdır. Bu cinayətlər nəticəsində, 300 minə qədər müxtəlif dərəcəli yaralar almış insanlar öz əsas hüquqlarından, öz doğma evlərində yaşamaq hüququndan məhrum olmuşlar. Etnik təmizləmə nəticəsində törədilən ağlasığmaz dəhşətləri, harada baş verməyindən asılı olmayaraq insanlığa qarşı yönələn bu cinayətləri anlamaq, şübhəsiz ki olduqca çətindir. Yalnız bu səbəbdən biz NATO-nun Kosovoda keçirdiyi hərbi əməliyyatları dəstəklədik.

Abxaziyada gürcülərin böyük işgəncələrə məruz qalaraq sıxışdırıldığı vaxtdan fərqli olaraq, bu gün Qafqaz beynəlxalq münasibətlərin maraqlarının kəsişdiyi bir bölgədir. Buna cavab olaraq icazə verin Abxaziyada baş verən bütün faciəni sizə xatırladım və baş vermiş qanlı hərbi qarşıdurmanı bu gün, 1994-cü ildən etibarən ikinci dəfə nəzərinizə çatdırım. Aydındır ki, olduqca təcavüzkar separatizm və etnik təmizləmə siyasətinin dəstəklənməsi son nəticədə bu cür bitəcəkdir.

Əslində tamamilə aydındır ki, Qafqazda baş verən münaqişələrin həllində hərbi qüvvədən istifadə etməklə son nəticədə uğur qazanmaq mümkün deyildir. Baxmayaraq ki, Rusiya rəhbərliyi tamam başqa mövqedə dayanıb, bu bölgədə dərinləşən qarşıdurma çoxşaxəli və ardıcıl yanaşma tələb edir. Siyasi və inzibati sərhədlərin mövcudluğuna baxmayaraq, Qafqaz vahid bir orqanizm kimi qalmaqdadır. Qafqazda baş verən münaqişələrin nizamlanmasına cəlb olunmuş bütün qüvvələr bu sadə aksiomaya uyğunlaşdırılmalıdır.

Sülhsevər və sabit Qafqaz bu gün nəinki yalnız bu bölgəyə daxil olan ölkələr, həm də bütün dünya dövlətlərinin diqqət mərkəzində olmalıdır. Qafqaz Yeni İpək Yolu adını almış nəhəng nəqliyyat və kommunikasiya xəttinin çox mühüm bir halqasıdır. Avrasiya qitələrinin qovuşuğunda kəsişən neft və qaz kəmərləri, nəqliyyat şosseləri və yüksək gərginlikli kabellər başəriyyətə böyük gəlir gətirəcəkdir.

Yalnız keçmiş sovet imperiyası ərazisində yeni müstəqil respublikalar yarandıqdan sonra Böyük İpək Yolu layihəsini həyata keçirmək mümkün olmuşdur. Bu respublikaların sabit və müstəqil inkişafı bu layihənin uğurla həyata keçirilməsi üçün ən mühüm şərtdir.



Xartiyanın II fəslində vermiş ümumi müddəalarda deyilir ki, bir dövlət ATƏT-in nüfuz dairəsinə daxil olan hər hansı başqa bir dövlətin ərazisinə müdaxilə edə bilməz. Hər bir iştirakçı dövlət öz təhlükəsizlik formalarını, o cümlədən Alyans müqavilələri də daxil olmaqla, seçmək və yaxud dəyişməkdə azaddır. Bu gün siz fikirləşə bilərsiniz ki, sivilizasiyalı xalqlar arasında məsələn, kannibalizm haqqında danışmağın yolverilməz olması kimi vacib bir həqiqəti təkrarlamaq bəlkə də artıqdır. Üçüncü minilliyin astanasında ATƏT çərçivəsində mövcud olan müxtəlif ideoloji fikir ayrılıqlarına, bəzi görünən və görünməyən maneələrə üstün gəldikdən sonra nüfuz dairəsi ifadəsinin ən azı anoxronizm olduğunu deməliyik. Ayrı-ayrı millətlərin öncə azad seçki hüququnu nəzərdə tutan beynəlxalq münasibətlərin demokratikləşdirilməsi prinsiplərinə əsasən bu, insan hüquqlarınnın qorunması qədər vacib olmalıdır.

Bu konteksdə, böyük bir ölkənin hökumət nümayəndələrinin verdiyi bəyanat bizi çox narahat etdi. Bu baxımdan, o hesab edir ki, Cənubi Qafqaz və Mərkəzi Asiya bölgəsində inkişaf onun ölkəsinin bu bölgədə strateji maraqlarını əhatə edir. Biz bu fikri necə başa düşə bilərik? Məgər o öz dövlətinin əvvəllər olduğu kimi gələcəkdə də bu bölgənin ATƏT üzvü olan müstəqil dövlətlərinə təsir etməkdə davam edəcəyini nəzərdə tutmurmu? Məgər bu, qonşu dövlətləri inhisara alaraq onların siyasi və iqtisadi həyatlarına müdaxilə etmək üçün göstərilən səylərin hələ də mümkünlüyü demək deyildirmi? Buna baxmayaraq, mən ümidvaram ki, bu məsələ ətrafında iştirakçı dövlətlərin fikri ölkənin ən yüksək siyasi rəhbərliyinin bu fəaliyyəti dəstəkləməsi fikri ilə üst-üstə düşmür.

İnanın mənə, Gürcüstanın hər hansı bir rəhbəri adi insani hisslərdən məhrum olaraq hər hansı bir qonşu dövlətlə münasibətlərə xələl gətirə bilərdi. Biz keçmişin yanlış təcrübəsinə deyil, bu gün imzalayacağımız sənəddə qarşıya qoyulan tam bərabərlik prinsipləri əsasında mümkün qədər ən yaxşı dostluq münasibətləri, hərtərəfli və çoxtərəfli münasibətlər qurmağa hazırıq.

Nə qədər mühüm müştərək siyasi sənədlər imzalamağımıza baxmayaraq, bu sənədlərin səmərəliliyi ilk növbədə imzalayan dövlətlərin siyasi rəhbərliyinin qiymətləndirmə bacarığından asılıdır. ATƏT-in bu sahədə təcrübəsi buna bir daha sübutdur. Helsinki Yekun aktı soyuq müharibə dövrünün ən inqilabi siyasi sənədlərindən biri olmuşdur. Bu sənəd qarşıdurmanın aradan qaldırılması işinə əvəzsiz bir töhfə oldu. Mən əminəm ki, İstanbul sammiti problemlərin həllində ən mühüm addımlardan biri olacaqdır.

## Ermənistan Respublikasının Prezidenti Robert Koçaryanın nitqi

Cənab Sədr,

Hörmətli həmkarlar,

Xanımlar və cənablar,

İlk öncə zirvə toplantısının yüksək səviyyədə təşkili üçün Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Süleyman Dəmirələ öz təşəkkürümü bildirmək istərdim. Biz Türkiyəyə zəlzələnin ağır nəticələrini tezliklə aradan qaldırmasını arzulayırıq.

Cənab Sədr,

Bu yaxınlarda Ermənistan müstəqilliyinin ən çətin mərhələlərindən birini yaşamışdı. Bugünkü forum həmçinin mənə imkan verir ki, anlaşma və yardımlar üçün yer kürəsindəki dostlarımıza erməni xalqının minnətdarlığını çatdırım. Həmişə olduğu kimi, biz seçilmiş islahatlar kursunu davam etdirmək yolunu tutmuşuq və Avropa inteqrasiyası prosesində iştirakımızı davam etdirmək niyyətindəyik. Bütün bu işlərdə Sizin yardımınıza arxalanırıq.

Biz müasir Avropaya çoxsahəli siyasi struktur kimi baxırıq və bu struktur daxilində təhlükəsizlik, demokratiya quruculuğu, insan hüquqları, qanunun aliliyi və daha mütərəqqi iqtisadi sistemə keçid məsələləri ilə bağlı səylərimizi birləşdiririk. Bu məsələlərlə məşğul olmaq imkanları baxımından ATƏT Avropa quruculuğunda özünəməxsus yer tutur. Ermənistan daim ATƏT-in həyata keçirdiyi proseslərdə möhkəm tərəfdaş, yardımçı olmaq və yararlanmaq məqsədi güdmüşdür.

ATƏT təsisatları ilə əməkdaşlıq demokratiyanı inkişaf etdirmək, seçki sistemini təkmilləşdirmək və qanunun aliliyi üçün təməli gücləndirməkdə bizə yardım etmək məqsədi daşıyır. Bu ilin əvvəllərində keçirilmiş parlament seçkiləri dövlət və cəmiyyətin demokratik dəyərlər əsasında təşəkkül tapdığını bir daha sübut edir. Biz Avropada Adi Silahlı Qüvvələr haqqında sazişin tam iştrakçısıyıq və bütün danışıq prosesi ərzində aşkar tərəfdaş kimi çıxış etmişik. Bizim Avropada Təhlükəsizlik Xartiyasına olan münasibətimiz bütün mərhələlərdə sabit və davamlı olaraq qalmışdır. Gələn əsrdə bütün ATƏT ərazisində sülh və tərəqqi yolunda biz bu xartiyanın əhəmiyyətli yer tutduğunu görmək istərdik.

Təəssüf ki, silahlı terrorizm beynəlxalq aləmin həyatında qaçılmaz məsələləyə çevrilmişdir. Bu fenomen acınacaqlı və hədsiz itkilərə səbəb olub. Elə bir ölkə yoxdur ki, terrorizmin ondan yan keçdiyini iddia edə bilsin. Beynəlxalq ictimaiyyətə məlum olan bütün metodlardan istifadə etməklə bu faciəni aradan qaldırmaq məqsədi ilə bütün qüvvələrimizi birləşdirməliyik. ATƏT bu prosesdə aparıcı rolu öz üzərinə götürə bilər.



Cənab Sədr,

Ermənistan həmişə Minsk qrupu həmsədriliyinin hazırkı tərkibini Dağlıq Qarabağ münaqişəsinin həllində ən məqsədəuyğun forma hesab etmişdir. Təəssüf ki, ATƏT-in Minsk qrupunun son təklifini Ermənistan və Dağlıq Qarabağ qəbul etsə də Azərbaycan tərəfi bunu rədd etmişdir. Bu davam edən gərginliyin qalmasına və yüz minlərlə qaçqının əziyyətinə səbəb olur. Belə ki, münaqişənin həllinin xalqlarımızın əsas maraqlarını təmin etməsini nəzərə alaraq, birbaşa danışıqlar yolu ilə bir-birimizə və bütün dünyaya məqsədimizin ciddiliyini çatdırmağa çalışırıq. Minsk qrupunun həmsədrlərinin iştrakı ilə əldə edilmiş ilkin razılıqlarımızın bütün ATƏT ictimaiyyətini adekvat dəstəyinə ehtiyacı vardır.

Hamımıza yaxşı məlumdur ki, Cənubi Qafqazda regional sabitliyin və əməkdaşlığın təşəkkül tapması Ermənistan-Türkiyə əlaqələrinin bu mərhələyə daxil olmadığı təqdirdə mümkün deyil. Bizim bu əlaqələrdə yeni səhifə açmaq üçün qarşılıqlı məramımız ayrı-seçkinlik və unutqanlıq üzərində bərqərar ola bilməz. Milli tariximizin təmkin səhifələrini və soyqırım acısını unuda bilmərik. Mübahisəli məsələlər ucbatından əlaqələrimizin inkişafını dayandırmağı arzulamırıq. Biz bu məsələlərin həlli üçün yollar axtarmalı və vurğulanan məsələləri müzakirə etməyə nail olmalıyıq.

Cənab Sədr,

Qafqaz daim etnik tərkibi, dini müxtəlifliyi, kəskin tarixi keçmişi və toqquşan maraqların çoxluğu səbəbindən həddindən artıq mürəkkəb və qaynar region olmuşdur. Sovet İttifaqı dağıldıqdan sonra yeni reallıqların öz həllini tapması davam edir. Görünür, Avropada Adi Silahlı Qüvvələr haqqında mövcud Saziş bizim həssas və mürəkkəb regionda hazırkı təhlükəsizlik məsələlərinin həlli üçün kifayət deyil. Beləliklə, Panavropa təhlükəsizliyinin daha geniş sistemi çərçivəsində Cənubi Qafqaz üçün regional təhlükəsizlik sisteminin işlənib hazırlanması zəruridir. Bu da bütün əlaqədar tərəflərə və xüsusən də regionda yerləşən dövlətlərə şamil ediləcək. Bu gün bizim ümumi vəzifəmiz Qafqazı silahlı münaqişə və mənasız terrorizm ocağına çevrilmiş bir regiondan sülh və çiçəklənmənin iqtisadi yolayrıcına yönəltməkdir.

Sağ olun.

# Avropada adi silahlı qüvvələr haqqında müqavilə imzalandı



ATƏT-in İstanbul zirvə görüşündə iştirak edən 30 ölkənin dövlət və hökumət başçıları noyabrın 19-da səhər "Lütfi Kirdar mərkəzi"nə gəldilər. Burada Avropada adi silahlı qüvvələr haqqında müqavilənin imzalanması mərasimi oldu.

Mərasimi Macarıstanın Baş naziri Viktor Orban açdı.

Türkiyə Prezidenti Süleyman Dəmirəl çıxış edərək imzalanacaq sənədin Avropada hər bir ölkənin təhlükəsizliyinə xidmət edəcəyinə əmin olduğunu bildirdi.

Sonra Avropada adi silahlı qüvvələr haqqında müqavilə imzalandı.




AZERBAIJAN
ARMENIA
UNITED STATES OF AMERICA


THE AGREEMENT ON ADAPTATION
OF THE TREATY ON CONVENTIONAL ARMED FORCES
IN EUROPE


AZERBAIJAN
ARMENIA
UNITED STATES OF AMERICA
GERMANY


CFE






# ATƏT-in zirvə görüşü başa çatdı

Noyabrın 19-da ATƏT-in İstanbul Zirvə görüşü öz işini davam etdirdi. Dövlət və hökumət başçıları növbə ilə çıxış etdilər, XXI əsrdə Avropada və dünyada sülhün, əmin-amanlığın bərpa edilməsi, münaqişə ocaqlarının söndürülməsi, qarşılıqlı surətdə faydalı əlaqələrin daha da möhkəmləndirilməsi və bir sıra qlobal problemlər barədə dəyərli fikirlər söylədilər, təkliflər irəli sürdülər. Həmin gün ATƏT-in İstanbul Zirvə görüşü öz işini başa çatdırdı. Zirvə görüşündə Avroranın təhlükəsizlik xartiyası imzalandı və İstanbul bəyannaməsi qəbul edildi. ATƏT-ə sədrlik Avstriyaya həvalə olundu.

Türkiyə Prezidenti Süleyman Dəmirəl zirvə görüşündə yekun nitqi söylədi və İstanbul sammitinin başa çatdığını elan etdi.





# REGION ÖLKƏLƏRİ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRİRLƏR

*Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 5-ci Zirvə görüşü*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi*





# Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 5-ci Zirvə görüşü

Noyabrın 17-də İstanbulda, Türkiyə Xarici İşlər Nazirliyinin bölgə nümayəndəliyinin binasında Qara dəniz İqtisadi Əməkdaşlıq (QİƏT) üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 5-ci Zirvə görüşü keçirildi.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev zirvə görüşündə iştirak edirdi.

Xatırladaq ki, Qara dəniz İqtisadi Əməkdaşlığı (QİƏ) 1992-ci ilin yaradılmışdır. O zaman 11 ölkənin - Azərbaycan, Albaniya, Bolqarıstan, Ermənistan, Yunanıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə və Ukraynanın dövlət və hökumət başçıları QİƏ-nin yaranması haqqında İstanbulda bəyannamə imzalamışdılar. Həmin sənəd üzv ölkələr arasında hərtərəfli əməkdaşlığı təşviq etməyi nəzərdə tuturdu.

Ötən müddət ərzində QİƏ-nin nüfuzu xeyli artmışdır, bir çox dövlətlər onun işində müşahidəçi kimi iştirak edirlər. 1998-ci ilin iyununda Yaltada keçirilmiş 4-cü zirvə görüşündə QİƏ Regional İqtisadi Təşkilata-Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QİƏT) çevrilmiş, onun nizamnaməsi imzalanmışdır. Nizamnamədə deyilir ki, QİƏT dostluq və mehriban qonşuluq ruhunda fəaliyyət göstərəcək, beynəlxalq hüququn prinsiplərini və normalarını əsas tutmaqla ikitərəfli və çoxtərəfli əməkdaşlığın daha da inkişafına və çoxşaxəli xarakter almasına kömək edəcək, iqtisadi əməkdaşlığı elə inkişaf etdirəcək ki, bu, iştirakçı dövlətlərin beynəlxalq öhdəliklərinə zidd olmasın. Nizamnaməyə əsasən QİƏT ona üzv olmaq istəyən hər bir dövlət üçün açıqdır. QİƏT-in daimi fəaliyyət göstərən və qərarlar qəbul edən orqanı Şuradır.

QİƏT-in İstanbulda keçirilən 5-ci zirvə görüşünü toplantının ev sahibi olan Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl açaraq görüş iştirakçılarını salamladı, onlara uğurlar arzuladı, Türkiyədə baş vermiş təbii fəlakət zamanı öz ölkəsinə və xalqına kömək və yardım göstərmiş üzv dövlətlərə türk xalqı adından minnətdarlığını bildirdi.



Natiq dedi ki, indi - XXI əsrin astanasında biz bir-birimizə dostluq əlimizi uzatmaq barədə düşünməliyik. Bizim üzərimizə çox böyük missiya



düşür ki, bu da Avropa ilə Asiya, Xəzər dənizi, Qara dəniz və Aralıq dənizi hövzələrinə daxil olan ölkələr arasında canlı bir əlaqə yaratmaqdan ibarətdir. Xalqlarımızı bir-birindən ayıran bu dənizlər QİƏT-in əməkdaşlıq mexanizmləri vasitəsilə bizi yenidən birləşdirir.

Cənab Süleyman Dəmirəl son dövrdə region ölkələri arasında əməkdaşlığın genişləndirilməsi üçün böyük əhəmiyyəti olan iki əlamətdar hadisəni vurğulayaraq dedi ki, bunlardan biri QİƏT-in 4-cü zirvə görüşündə imzalanmış nizamnamə, digəri isə 1998-ci ilin sentyabrında tarixi İpək yolunun bərpasına dair Bakıda keçirilmiş konfransdır.

QİƏT regionunda əməkdaşlığın inkişafından danışan Türkiyə dövlətinin başçısı Qara dəniz Ticarət və İnkişaf Bankının fəaliyyətə başlamasını müsbət qiymətləndirdi, iqtisadiyyatın özəl sektorunun bu əməkdaşlıqda rolunu xatırlatdı. O, eyni zamanda bildirdi ki, QİƏT-in əhatə etdiyi ərazidə hələ də mövcud olan münaqişələr əmkdaşlığın genişləndirilməsinə əngəl törədir. QİƏT regionu sülh və təhlükəsizlik regionu olmalıdır. Terrorizmə və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində birgə fəaliyyətin gücləndirilməsinin vacibliyi də vurğulandı.

Çıxışın sonunda natiq QİƏT-ə hazırda sədrlik edən Moldova Prezidentinə təşəkkürünü bildirdi.

Sonra Moldova Prezidenti Petru Luçinski[12] çıxış etdi. O, mehriban qonaqpərvərliyə və zirvə görüşünün yüksək səviyyədə təşkil olunmasına görə Türkiyə dövlətinə və Prezident Süleyman Dəmirələ təşəkkürünü yetirdi. Eyni zamanda xatırlatdı ki, Türkiyə və onun dövlət başçısı QİƏT-in yaradılmasında böyük rol oynamışdır.



QİƏT-i region ölkələrinin çoxtərəfli əməkdaşlığının yaxşı nümunəsi kimi səciyyələndirən cənab Luçinski Yalta bəyannaməsinin üzv dövlətlərin parlamentləri tərəfindən ratifikasiya olunmasını və Qara Dəniz Ticarət və İnkişaf Bankının fəaliyyətə başlamasını, QİƏT-in BMT statusu almasını, ümumiyyətlə onun beynəlxalq təşkilatlarla əməkdaşlığının genişlənməsini yüksək qiymətləndirdi.

QİƏT ölkələrinin Avropa strukturlarına inteqrasiyasından danışan natiq təkcə iştirakçı ölkələr üçün deyil, həm də Avropa Birliyindən ötrü maraq doğura biləcək iri layihələrin həyata keçirilməsi ideyasına diqqəti cəlb etdi. O, ümumiyyətlə Avropa birliyi ilə və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın konkret strategiyasını işləyib hazırlamağın vacibliyini vurğuladı.

Natiqin fikrincə, Qara dəniz regionunda azad ticarət zonasının yaradılması da məqsədəuyğun olardı. Cənab Luçinski hesab edir ki, QİƏT çərçivəsində əməkdaşlıqda əsas məqsəd bu yolla və beynəlxalq birliyin fəal iştirakı ilə regionda sülhün və təhlükəsizliyin təmin olunmasına kömək göstərməkdir.

Albaniyanın baş naziri İlir Meta öz çıxışında əvvəlki natiqlərin fikirlərinə şərik olduğunu söyləyərək, səmərəli və qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün regionda möhkəm sülhün vacibliyini bir daha xatırlatdı. O bildirdi ki, Albaniya hökuməti QİƏT çərçivəsində qaldırılan bütün təşəbbüslərə tərəfdardır. QİƏT-in İstanbul zirvə görüşünü regional və beynəlxalq təşkilatların sülh naminə inteqrasiyası yolunda mühüm mərhələ kimi qiymətləndirən natiq xalqların parlaq gələcəyinin reallığa çevriləcəyinə əmin olduğunu söylədi.

Ermənistan Prezidenti Robert Koçaryan dedi ki, İstanbulda QİƏT-in və ATƏT-in zirvə görüşlərinin keçirilməsi müəyyən dərəcədə müasir Avropanın reallıqlarını əks etdirir və dövlətlərin ümumi məqsədlər naminə birləşməyə qadir olduqlarını göstərir. Natiq QİƏT ölkələri arasında əməkdaşlığın hüquqi bazasını möhkəmləndirməyin, həmin ölkələrin işgüzar dairələrinin qarşılıqlı fəaliyyətini gücləndirməyin, Avropa Birliyi və digər beynəlxalq qurumlarla əlaqələri genişləndirməyin vacib olduğunu söylədi.



Sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə söz verildi. Türkiyənin təşəbbüsü ilə QİƏT-in növbəti zirvə görüşünün İstanbulda keçirilməsini yüksək qiymətləndirən dövlətimizin başçısı ötən dövrdə təşkilatın fəaliyyətinin müəyyən nəticələr verdiyini, Yalta toplantısının bəyannaməsində göstərilən müddəaların reallaşdırılmasında bəzi irəlilə-

yişlər əldə edildiyini vurğuladı, eyni zamanda QİƏT-in fəaliyyətini canlandırmaq üçün hələ xeyli imkanlar olduğunu söylədi.

Prezident Heydər Əliyev dedi ki, QİƏT regionunda sülhün, təhlükəsizliyin və sabitliyin təmin edilməsi həm Azərbaycan, həm də digər iştirakçı dövlətlər üçün ən vacib vəzifədir və bu məqsədlə qəti tədbirlər görülməlidir. Çünki bu, genişmiqyaslı əməkdaşlıq üçün böyük imkanlar açardı.

Bolqarıstan Prezidenti Petr Stoyanov[13] dedi ki, QİƏT yüksək ixtisaslı əməkdaşlara malik olan və beynəlxalq nüfuz qazanmış əsl regional təşkilata çevrilmişdir. Əməkdaşlıq sahəsində əldə olunmuş nəticələrdən razı qaldığını söyləyən natiq Qara Dəniz Ticarət və İnkişaf Bankının fəaliyyətinə böyük ümid bəslədiyini, onun regionda investisiya mühitinə müsbət təsir göstərəcəyini bildirdi. Bolqarıstan rəhbəri də Avropa strukturları, xüsusən Avropa birliyi ilə əlaqələrin genişləndirilməsi barədə deyilmiş fikirləri dəstəklədi. Ticarət əlaqələrinin genişləndirilməsindən söhbət açan cənab Stoyanov Böyük İpək yolunun bərpası prespektivini XXI əsrin ən nəhəng layihələrindən biri adlandırdı və Avropanın Qafqaz vasitəsilə Mərkəzi Asiya ilə birləşdirilməsində ölkəsinin mühüm rol oynaya biləcəyini vurğuladı.

Gürcüstan Prezidenti Eduard Şevardnadze çıxışının əvvəlində Qafqazda baş verən hadisələrə toxunaraq bildirdi ki, biz birgə səylər göstərib hərbi əməliyyatların daha da genişlənməsinə yol verməməliyik. Çünki bu, QİƏT regionunda həyata keçirilən və gələcəkdə nəzərdə tutulan iri layihələrin reallaşdırılması yolunda ciddi əngəllər törədə bilər. Bir çox beynəlxalq təşkilatların Qafqazdakı vəziyyətə lazımınca diqqət göstərmədiyini vurğulayan Gürcüstan rəhbəri dedi ki, QİƏT-in rəhbərliyinin məqsədlərindən biri Qara dəniz regionunun taleyi barədə düşünmək olmalıdır. Başqa sözlə, QİƏT ölkələri iqtisadi fəallıqla yanaşı, siyasi fəallığı da artırmalıdırlar. QİƏT iqtisadi əməkdaşlıq ilə regional təhlükəsizlik arasında tarazlıq tapmalı, XXI əsr Avropasının regional təşkilatları sırasında öz yerini müəyyənləşdirməlidir. Cənab Şevardnadze də Avropa birliyi ilə əlaqələrin genişləndirilməsinə tərəfdar olduğunu söylədi. Natiqin fikrincə, Qara dəniz əməkdaşlığının uğurla həyata keçirilməsi üçün bütün bunların böyük əhəmiyyəti var.



Yunanıstan hökumətinin Qara dəniz hövzəsi ölkələri çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət verdiyini bildirən bu ölkənin Baş naziri Konstantinos Simitis dedi ki, QİƏT artıq yetkin təşkilata çevrilmişdir. Ona görə də gələcəkdə uğurlu fəaliyyətimizi təmin edəcək zəruri mexanizmləri səmərəli şəkildə işləyib hazırlaya bilərik. Natiq Avropa Birliyi ilə əlaqələrin genişləndirilməsi barədə səslənmiş fikirləri dəstəklədi və belə əməkdaşlığın tezliklə qarşılıqlı fayda verəcəyinə ümid bəslədiyini söylədi. Yunanıstan hökumətinin başçısı QİƏT ölkələri arasında iqtisadi əməkdaşlıq məsələlərinin həllində Qara dəniz Ticarət və İnkişaf Bankının imkanlarından istifadə olunmasının yaxşı səmərə verə biləcəyini vurğuladı.



Rumıniya Prezidenti Emil Konstantinesku ölkəsinin QİƏT üzvləri ilə əməkdaşlığı yüksək qiymətləndirdiyini söyləyərək ticarət əlaqələrinin əhəmiyyətini vurğuladı. Bu baxımdan o, azad ticarət zonası yaradılmasının vacib olduğunu bildirdi və xatırlatdı ki, Rumıniya, Türkiyə və Bolqarıstanla bu barədə sazişlər imzalanmışdır. Natiq dedi ki, iştirakçı ölkələrin əlaqələrinin genişləndirilməsi üçün mümkün olan bütün layihələrdən və təşəbbüslərdən istifadə edilməli və bunlar müvafiq investisiyalarla dəstəklənməlidir. Rumıniya rəhbərinin fikrincə, həmin layihələrə qoyulan sərmayələr eyni zamanda regionda sülhün və təhlükəsizliyin qorunmasına xidmət edəcəkdir.

İclasa sədrlik edən Moldova Prezidenti Petru Luçinski Rumıniya Prezidenti cənab Konstantineskuya təşəkkürünü bildirdi və onu anadan olmasının 60 illiyi münasibətilə zirvə görüşünün bütün iştirakçıları adından təbrik etdi.

Rusiya Federasiyasının fövqəladə hallar naziri Sergey Şoyqu çıxışında dedi ki, təşkilatın yaradıldığı vaxtdan ötən müddətdə iştirakçı ölkələrin əməkdaşlığı genişlənib və hazırda yeni səviyyəyə qalxmaqdadır. Bu isə onu göstərir ki, ölkələrimiz ayırıcı xətlər olmayan yeni Avropa arxitekturası yaradılması prosesinin real iştirakçılarıdır. Natiqin fikrincə, əməkdaşlıq üçün mövcud imkanlardan hələ tam istifadə olunmur və ona görə də bu istiqamətdə fəaliyyət gücləndirilməli, yeni birgə layihələr hazırlanmalıdır. Bu isə iştirakçı ölkələrin iqtisadi inteqrasiyasının genişləndirilməsinə istiqamətləndirilməli, eyni zamanda Qara dəniz Ticarət və İnkişaf Bankının əməliyyat fəaliyyəti gücləndirilməlidir. Nazir təbii fəlakətlərin və texnogen qəzalarının nəticələrinin aradan qaldırılmasında QİƏT ölkələrinin qarşılıqlı fəaliyyət haqqında hökumətlərarası sazişin konkret məqamlarının yerinə yetirilməsi məsələsinə də toxundu, Rusiya hökumətinin Qara Dəniz Xilasetmə Mərkəzi yaratmağı təklif etdiyini bildirdi.

İclasın sədri Petru Luçinski Ukrayna Prezidenti Leonid Kuçmaya[14] söz verməzdən əvvəl yenidən ölkəsinin Prezidenti seçilməsi münasibətilə onu bir daha təbrik etdi və bildirdi ki, bu, cənab Kuçmanın həmin vəzifəyə seçildikdən sonra ilk çıxışı olacaqdır.

Ukrayna Prezidenti Leonid Kuçma QİƏT-in qısa müddət ərzində tamhüquqlu beynəlxalq təşkilata çevrildiyini vurğuladı və dedi ki, bu, regionumuz və ümumən dünya qarşısında məsuliyyətimizi artırır. Avropa Birliyi ilə əlaqələrinin vacibliyi məsələsinin hələ QİƏT-in Yaltada keçirilmiş 4-cü zirvə görüşündə qaldırıldığını xatırladan natiq eyni zamanda Qara dəniz regionunda ticarəti daha da inkişaf etdirməyin, o cümlədən azad ticarət zonaları yaratmağın zəruri olduğunu söylədi. Ukrayna rəhbərinin



fikrincə, iqtisadi əməkdaşlıqla yanaşı, bütün digər sahələrdə də əlaqələrin genişləndirilməsi diqqət mərkəzində durmalıdır. O cümlədən təhlükəsizlik, ekologiyanın qorunması kimi problemlər ətrafında daim və ciddi düşünmək lazımdır. Natiq bu baxımdan Kosovo hadisələri ilə əlaqədar Dunay çayında gəmiçilik üçün yaranmış çətinliklərə diqqəti cəlb etdi.

Çıxışının sonunda cənab Leonid Kuçma yenidən Ukraynanın Prezidenti seçilməsi münasibətilə onu təbrik etmiş zirvə görüşünün iştirakçılarına dərin minnətdarlığını bildirdi.

* * *

Sonra zirvə görüşünün iştirakçıları İstanbul bəyannaməsi qəbul etdilər.

İclasa sədrlik edən Moldova Prezidenti Petru Luçinski Türkiyənin çətin günlərində İstanbulda QİƏT-in, habelə ATƏT-in zirvə görüşlərinin keçirilməsi üçün möhkəm iradə, böyük cəsarət və müdriklik göstərmiş Prezident Süleyman Dəmirələ iştirakçılar adından dərin minnətdarlığını bildirdi.

Türkiyə Prezidenti Süleyman Dəmirəl iştirakçılara təşəkkürünü bildirdi və zirvə görüşünü bağlı elan etdi.

* * *

QİƏT üzvü olan ölkələrin dövlət və hökumət başçıları İstanbul bəyannaməsində təşkilatın 1998-ci ildə qəbul olunmuş Yalta bəyannaməsinin müddəalarına sadiq qaldıqlarını təsdiqlədilər və çoxtərəfli iqtisadi əməkdaşlıq vasitəsilə QİƏT regionunda sülh və təhlükəsizlik işinə töhfə vermək əzmində olduqlarını bir daha bəyan etdilər. Sənəddə deyilir ki, QİƏT ilə ATƏT arasında əməkdaşlığın genişləndirilməsi bütün ATƏT regionunda sabit sülhə və tərəqqiyə xidmət göstərəcəkdir.

Bəyannamədə bildirilir ki, QİƏT Cənub-Şərqi Avropa üçün sabitliyə dair paktın həyata keçirilməsində iştirak etməyə dəvət olunmasını, BMT Baş Məclisində müşahidəçi statusu almasını alqışlayır və bunlar təşkilatın beynəlxalq səviyyədə bərabərhüquqlu tərəfdaş kimi çıxış etməsinə imkan yaradacaqdır. Sənəddə göstərilir ki, QİƏT Avropa Birliyi ilə başlanmış dialoqun davam etdirilməsinə tərəfdardır, QİƏT regionuna dair hərtərəfli strategiyanın işlənib hazırlanmasına, konkret regional layihələrin tərtibinə və həyata keçirilməsinə kömək göstərmək xahişi ilə Avropa Birliyinə müraciət edir.

Sənəddə daha sonra deyilir ki, yeni mərhələdə konkret birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi QİƏT-in fəaliyyətinin əsasını təşkil etməlidir.









## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi

Hörmətli cənab sədr, zati-aliləri, xanımlar və cənablar!

Biz Qara dəniz Əməkdaşlıq Təşkilatının əsası qoyulduğu İstanbul şəhərində Türkiyənin təşəbbüsü ilə bu zirvə görüşünün keçirilməsini yüksək qiymətləndiririk.

Türkiyədə baş vermiş dəhşətli dağıdıcı zəlzələ nəticəsində minlərlə



adamın həlak olması bizi dərindən kədərləndirdi. Biz qardaş türk xalqının dərdini öz dərdimiz hesab edirik və "keçmiş olsun" deyirik.

Hörmətli həmkarlarım!

Təşkilatımızın fəaliyyətinin müəyyən nəticələrini qeyd etmək lazımdır. Yalta zirvə görüşünün bəyannaməsində göstərilən müddəaların həyata keçirilməsində bəzi irəliləyişlər əldə edilmişdir. Eyni zamanda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətini canlandırmaq üçün hələ istifadə edilməmiş xeyli imkanlar vardır. Ümidvaram ki, bu günkü görüşdə biz yeni minilliyin astanasında regionda yaranmış siyasi-iqtisadi şəraiti nəzərə alaraq, Qara dəniz İqtisadi Təşkilatının üzvü olan ölkələr arasında əməkdaşlığın gələcək inkişaf istiqamətlərini müəyyən edə biləcəyik.

Zənnimcə, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı regionunda sülhün, təhlükəsizliyin və sabitliyin təmin edilməsi həm Azərbaycan üçün, həm də digər iştirakçı dövlətlər üçün ən vacib vəzifədir. 1992-ci il İstanbul bəyannaməsində əksini tapmış məqsədlərə nail olmaq yolunda qarşıya çıxan problemlər və çətinliklər təşkilatımızın mövcud olduğu yeddi il ərzində özünü əyani şəkildə göstərmişdir. İştirakçı dövlətlərin mehriban qonşuluq münasibətləri əsasında regionda sülhü və təhlükəsizliyi təmin etmək məqsədi ilə biz hamımız qəti tədbirlər göstərməliyik. Bu isə öz növbəsində genişmiqyaslı iqtisadi əməkdaşlıq üçün böyük imkanlar açardı.

Bu baxımdan, qeyd etmək istəyirəm ki, görüşümüzün ATƏT-in sammiti ərəfəsində keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Ümidvaram ki, ATƏT-in sabahkı zirvə görüşünün yekunları hərtərəfli regional əməkdaşlıq üçün yeni perspektivlər açacaqdır.

Çıxışımın sonunda bu görüşün təşkilinə görə və Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı regionunda sülh, təhlükəsizlik və tərəqqi naminə əməkdaşlığın möhkəmləndirilməsi işinə Türkiyənin verdiyi töhfəyə görə Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirələ və Türkiyə hökumətinə minnətdarlığımı bildirirəm.

Diqqətinizə görə təşəkkür edirəm.




# BAKI-CEYHAN NEFT KƏMƏRİ MÜSTƏQİLLİYƏ VƏ TƏRƏQQİYƏ TƏMİNATDIR

*"Çırağan sarayı"nda tarixi sənədlərin imzalanması mərasimi*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi*

*Gürcüstanın Prezidenti Eduard Şevardnadzenin nitqi*

*Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin nitqi*

*Türkmənistanın Prezidenti Saparmurad Niyazovun nitqi*

*Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin nitqi*

*Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun nitqi*

# "Çırağan sarayı"nda tarixi sənədlərin imzalanması mərasimi





Noyabrın 18-də İstanbulun "Çırağan sarayı"nda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında saziş"in, "Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan və Qazaxıstan Respublikası arasında İstanbul bəyannaməsi"nin, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsinə dair digər sənədlərin, "Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan və Türkmənistan arasında Hökumətlərarası bəyannamə"nin imzalanması mərasimi oldu.

Salona toplaşanlar Azərbaycan Prezidenti Heydər Əliyevi, Türkiyə Prezidenti Süleyman Dəmirəli, ABŞ Prezidenti Bill Klintonu, Gürcüstan Prezidenti Eduard Şevardnadzeni, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi[15], Türkmənistan Prezidenti Saparmurad Niyazovu[16], Norveçin Baş naziri Kyel Maqne Bondeviki, Türkiyənin Baş naziri Bülənd Eceviti[17] və bu ölkələrin digər rəsmi şəxslərini alqışlarla qarşıladılar.

Mərasimi Türkiyə Cümhuriyyətinin Prezidenti **Süleyman Dəmirəl** giriş sözü ilə açaraq dedi:

- Əziz dostlar, möhtərəm qonaqlar!

Dəyərli mətbuat nümayəndələri!



Biz bu gün buraya qısa bir müddətdən sonra bölgəmizin in-

kişafında mühüm rol oynayacaq tarixi sənədlərin imzalanması mərasiminə toplaşmışıq. XXI yüzilliyə möhürünü vuracaq bu sənədlər bölgəmizin parlaq gələcəyinin təməlini atacaqdır.

Həmin sənədlərin adlarını çəkən Prezident Süleyman Dəmirəl əlavə etdi ki, bütün bu sənədlərin tərəfdaş ölkələrə xeyirli olmasını ürəkdən arzulayıram. Sonra isə imzalanma mərasimi başladı.

* * *

"Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında saziş"i prezidentlər Heydər Əliyev, Eduard Şevardnadze və Süleyman Dəmirəl imzaladılar.

"Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan və Qazaxıstan Respublikası arasında İstanbul bəyannaməsi"ni prezidentlər Bill Klinton, Heydər Əliyev, Süleyman Dəmirəl, Eduard Şevardnadze və Nursultan Nazarbayev imzaladılar.

Sonra prezidentlər "Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan və Türkmənistan arasında Hökumətlərarası bəyannamə"ni imzaladılar.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi və digər prezidentləri Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə sənədlərin imzalanması münasibətilə hərarətlə, səmimiyyətlə təbrik etdi.



**Süleyman Dəmirəl:** Çıxış etmək üçün ilk sözü Azərbaycan Respublikasının Prezidenti, əziz qardaşım, hörmətli Heydər Əliyevə verirəm.





## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi

- Hörmətli prezidentlər!

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Mən bu gün böyük iftixar hissi keçirirəm. Ona görə ki, beş il bundan öncə, 1994-cü ilin sentyabr ayında Bakıda imzalanmış "Əsrin müqaviləsi" adlı böyük neft müqaviləsinə, Xəzər dənizinin neft və qaz ehtiyatlarından müştərək istifadə etmək üçün yaranmış konsorsiumun tərkibinə Azərbaycan, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri, Türkiyə və Rusiya daxildirlər və bu müqavilənin imzalanmasından beş il keçəndən sonra həmin müqavilə imzalanarkən nəzərdə tutulmuş Bakı-Tbilisi-Ceyhan neft kəmərinin həyata keçirilməsi üçün artıq bu gün bu sənədlər imzalandı.

Məlumdur ki, bu, asan iş deyildi. Bizim qarşımızda çox böyük çətinliklər var idi. "Əsrin müqaviləsi"ni imzalayanda da biz böyük çətinliklərlə rastlaşdıq. Sonra da Bakı-Ceyhan neft kəmərini çəkmək üçün bizim qarşımızda çox böyük maneçiliklər, əleyhimizə çıxanlar var idi. Ancaq biz öz iradəmizi itirmədik, başladığımız işi axıra çatdırdıq.

Bu barədə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında olan əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Ona görə də mən Türkiyə Cümhuriy-

yətini, Türkiyə xalqını və Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəli ürəkdən təbrik edirəm.

Biz bu boru xəttini Gürcüstandan keçiririk. Şübhəsiz ki, əgər bu xəttin Gürcüstan ərazisindən keçməsi mümkün olmasaydı, bu, baş tutmazdı. Ona görə də Gürcüstan Prezidenti cənab Şevardnadzenin də bu məsələnin həll edilməsi üçün çox böyük səyləri olmuşdur. Mən gürcü xalqını, Gürcüstanı və əziz dostum, qardaşım Eduard Şevardnadzeni ürəkdən təbrik edirəm.

Ancaq onu da bəyan edirəm ki, əgər bu məsələləri həyata keçirmək üçün Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı biz bunların heç birisini edə bilməzdik.

"Əsrin müqaviləsi"nin imzalanmasından əvvəl müstəqil Azərbaycana qarşı bir il böyük təzyiqlər göstərildi. Bizim qarşımızı almaq istəyirdilər. Məhz Amerika Birləşmiş Ştatlarının, onun Prezidenti, hörmətli dostum cənab Bill Klintonun dəstəyi nəticəsində biz 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"ni imzaladıq. Amma ondan sonra da problemlərimiz çox oldu. Bakı-Ceyhanı başqa ölkələr qəbul etmirdilər. Ancaq hörmətli cənab Prezident Bill Klinton bu məsələ ilə ardıcıl surətdə məşğul olurdu, bizə dəstək, ruh verirdi və Türkiyəni, Azərbaycanı, Gürcüstanı, Xəzəryanı başqa ölkələri bu məsələyə cəlb edirdi, öz hörməti, öz nüfuzu ilə, bu barədə ardıcıl siyasəti ilə biz belə böyük "Əsrin müqaviləsi"nin imzalanmasına nail olduq.

Ona görə də mən, biz hamımız birlikdə Amerika Birləşmiş Ştatlarına, onun Prezidenti, əziz dostumuz cənab Bill Klintona təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Hörmətli cənab Prezident Bill Klinton, mən sizi də bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu boru xəttinin, yəni neft kəmərinin istifadə edilməsi layihəsinə indi Qazaxıstan da qoşulubdur. Qazaxıstan da öz neftinin böyük bir hissəsini bu kəmər vasitəsilə keçirəcəkdir.

Biz Azərbaycan olaraq, - Gürcüstan da bunu qəbul edibdir, bunu qəbul etmişik və üzərimizə düşən bütün öhdəlikləri həyata keçirəcəyik. Hesab edirəm ki, Qazaxıstan bu yolla, bu boru xətti ilə neftin ixracında böyük uğurlar əldə edəcəkdir. Ona görə də mən qazax xalqını və Qazaxıstan Prezidenti, əziz dostum Nursultan Nazarbayevi ürəkdən təbrik edirəm.

Mən Türkiyə xalqına, Türkiyənin vətəndaşlarına hörmət və ehtiramımı bildirirəm və onları təbrik edirəm. Beş ildir ki, Türkiyəyə hər dəfə gələndə mənə sual verirdilər: Bakı-Ceyhan boru xətti nə vaxt olacaqdır? Mən də hər dəfə deyirdim ki, olacaqdır, olacaqdır, olacaqdır! Artıq bu gün bu, oldu və saziş imzalandı. Hamınızı ürəkdən təbrik edirəm!

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və gurultulu, sürəkli alqışlarla qarşılandı.

* * *

Sonra mərasimdə Gürcüstan Prezidenti Eduard Şevardnadze nitq söylədi.





## Gürcüstanın Prezidenti Eduard Şevardnadzenin nitqi

- Əgər 10 il əvvəl kimsə belə bir layihə irəli sürsəydi, yəqin deyərdilər ki, bu, xülyadır, real deyildir.

Bu gün biz həqiqətən böyük bir hadisənin şahidiyik. Gəlin, yaxşı yadda saxlayaq: 18 noyabr - biz Avropa xartiyasını imzalamaq məsələsini həll etdik və bu gün, indicə tarixi, çox böyük əhəmiyyətə malik layihələr - Heydər Əliyeviç Əliyevin dediyi kimi, əsrin layihələrini imzaladıq.

Mən sizin hamınızı təbrik edirəm və fotoqraf-jurnalistləri bu fotoşəkilləri qoruyub saxlamağa çağırıram, bir müddətdən sonra onlar nadir və bahalı şəkillər olacaqdır.

Mənim dostum, mənim qardaşım Heydər Əliyeviç Əliyev Bakı-Tbilisi-Ceyhan layihəsinin,- şübhəsiz ki, Qazaxıstanın, bu ölkə Prezidentinin iştirakı ilə, Qazaxıstanın bu layihədə iştirak etməsi onun iradəsidir, - əhəmiyyətindən çox yaxşı, gözəl danışdı. Mən onun sözlərinə qoşuluram. Amma xatırlatmaq istəyirəm ki, biz bu sazişi imzalamazdan öncə Bakı-Supsa layihəsi olmuşdur. Bunu unutmayaq. Bu, ilkin neftlə bağlı layihədir və o, sınaqdan çıxarılmışdır, fəaliyyət göstərir, işləyir və indi Xəzər nefti Qərb marşrutu ilə axır.



Bununla vurğulamaq istəyirəm ki, indi bu çox mühüm kontraktları, çox mühüm müqavilələri imzalamış ölkələr etibarlı ölkələrdir. O cümlə-

dən də mənim vətənim - o da etibarlı və sabit ölkədir. Bizə inanmaq olar.

Çox mühümdür ki, qazın Transqafqaz, Transxəzər magistralı adlandırılan magistralla nəqli kimi prinsipial məsələ həll edilir. Bu da Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə üçün və bir çox digər ölkələr üçün tarixi hadisədir.

Hətta Prezidentlər arasında tamamilə müxtəlif mövqelərin mövcud olduğu vaxtda da hökm sürmüş əməkdaşlıq, qarşılıqlı anlaşma və qarşılıqlı hörmət ruhunu qeyd etməyə bilmərəm. onu da deməyə bilmərəm ki, biz çətinlik çəkdikdə, - belə çətinliklər isə olmuşdur, - amerikalı dostlarımız, xüsusən Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton həmişə bizim yanımızda olmuşdur.

Mən, təəssüf ki, öz nefti və qazı olmayan bir ölkəni təmsil edirəm. Biz onları ancaq öz ərazimizdən ya buraxa, ya da buraxmaya bilərik. Bununla əlaqədar mən Amerika Birləşmiş Ştatlarının Prezidenti ilə dəfələrlə danışmalı olmuşam. Onun bu işdə şəxsən maraqlı olduğunu, özü də təkcə öz şirkətlərinin, öz ölkəsinin iqtisadi faydası baxımından yox, hər cəhətdən maraqlı olduğunu bilirəm. O, ən başlıca cəhəti gözəl anlayırdı ki, bu cür layihələr - əsrin ən iri layihələri ölkələrimizin müstəqilliyinin, azadlığının və demokratik inkişafının çox mühüm əsasıdır, yəni gələcəyimizin əsasıdır.

Hörmətli Prezidentlər, əziz dostlar, əziz qardaşlar, mən sizi bu tarixi gün münasibətilə təbrik edirəm. Bir daha çağırıram - fotoşəkilləri qoruyub saxlayın.

* * *

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə söz verildi.







## Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin nitqi

- Çox sağ olun, cənab Prezident Dəmirəl!

Hörmətli xanımlar və cənablar!

Transxəzər nəqliyyat sistemi yaratmaq ideyasının əməli surətdə gerçəkləşməsindəki mühüm tərəqqini Qazaxıstan da alqışlayır. Həmin sistemin bünövrəsi bu ilin yazında Bakı-Supsa boru kəmərinin istismara verilməsi ilə qoyulmuşdur və təkcə cari ildə Qazaxıstan bu boru kəməri ilə 2 milyon tondan artıq neft ixrac etməlidir.

Bu gün İstanbul bəyannaməsinin, digər sənədlərin imzalanması Şərq-Qərb enerji dəhlizinin marşrutlarından birinin - çoxdan gözlədiyimiz marşrutun texniki, hüquqi və kommersiya cəhətlərinə nəhayət, müəyyənlik gətirdi. Ümidvaram ki, bu, neft şirkətlərinə, potensial sərmayədarlara əlverişli şərait yaradacaq, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin iqtisadi cəhətlərinin cazibədarlığını yüksəldəcəkdir ki, bunda da bizim hamımızın böyük marağı var.



Böyük Xəzər neftinin çoxvariantlı marşrutlarının inkişafı haqqında özünün prinsipial mövqeyini əsas tutaraq, Qazaxıstan Transxəzər nəqliyyat sistemi layihəsinin həyata keçirilməsində əməkdaşlığa hazırdır, neft və qazın həmin marşrutla ixracı üçün neftçıxaran şirkətlərə qarşılıqlı surətdə məqbul şərait yaradılmasından ötrü bütün lazımi tədbirləri görəcəkdir.

Mən Prezident Şevardnadze ilə razıyam. O dedi ki, bu gün sənədlərin imzalanması, qəbul etdiyimiz qərarlar yalnız dövlətlərimizin müstəqilliyi şəraitində mümkün olmuşdur. Müstəqilliyin qorunub saxlanması və möhkəmləndirilməsi bizim başlıca məqsədimizdir. Buna görə də hesab edirəm ki, bu gün tarixi sənəd imzalanmışdır.

Qazaxıstanda biz hamımız Şimali Xəzər yataqlarında kəşfiyyat qazmasının nəticələrini ümidlə gözləyirik. Bütün ekspertlər Qazaxıstandan başlanan nəqliyyat dəhlizlərinin inkişaf perspektivlərini və dünya iqtisadiyyatının Xəzər enerji daşıyıcıları ilə təmin edilməsini həmin yataqlarla bağlayırlar.

Neft-qaz sektorunun inkişaf etdirilməsi Qazaxıstan üçün üstün vəzifədir. Biz bu sahəyə sərmayələr cəlb olunması üçün fəal çalışırıq. Hesab edirik ki, Xəzər neftinin nəqli üçün etibarlı, ekoloji cəhətdən təhlükəsiz, kommersiya baxımından sərfəli marşrutun çəkilməsi ən əvvəl müstəqilliyimizin, Xəzər bölgəsi ölkələrinin iqtisadi sərbəstliyinin möhkəmlənməsinə, xalqlarımızın rifahının yaxşılaşmasına xidmət edəcəkdir.

Ölkəmin mehriban qonşuluq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsiplərinə sadiqliyini nəzərə çarpdıraraq, mənim həmkarlarım, sizi əmin etmək istəyirəm ki, Qazaxıstan bu perspektivli layihənin iştirakçılarından biri olmağa hazırdır. Ümidvaram ki, bu gün biz Xəzər dənizi hövzəsinin neft və qazının dünya bazarına sabit, qarşılıqlı surətdə faydalı ixracı üçün bünövrəni möhkəmlətdik.

Hazırlıq işlərində yaxından iştirak etdiklərinə görə bütün Prezidentləri təbrik edir və onlara təşəkkürümü bildirirəm. Zənnimcə, bu gün biz Birləşmiş Ştatların və onun indiki Prezidenti cənab Bill Klintonun liderliyini ədalətlə vurğulayırıq.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonra mərasimdə Türkmənistan Prezidenti Saparmurad Niyazov nitq söylədi.







## Türkmənistanın Prezidenti Saparmurad Niyazovun nitqi

- Hörmətli xanımlar və cənablar!

Möhtərəm Türkiyə Prezidenti, dostumuz və qardaşımız Süleyman Dəmirəl!

Bu gün dövlət başçılarının - Türkmənistan Prezidentinin, Azərbaycan Prezidenti Heydər Əliyeviç Əliyevin, Gürcüstan Prezidenti Eduard Amvrosiyeviç Şevardnadzenin tarixi qərarını imzalamaq Türkmənistan üçün böyük səadətdir və bu sazişin Amerika Birləşmiş Ştatlarının görkəmli Prezidenti cənab Klintonun imzası ilə təsdiqlənməsi bizim üçün şərəf və iftixardır.

Türkmənistan öz qazını Türkiyə bazarına çıxarmağa səkkiz il çalışmışdır. Biz dünyanın təbii qaz ehtiyatlarının 30 faizinə malikik və Türkmənistanın enerji daşıyıcılarını Türkiyəyə və Avropaya nəql etməyin alternativ yollarına çoxdan can atırıq. Çoxları buna siyasi don geydirirdi, lakin bu, enerji daşıyıcıları ilə başqa regionlara, Avropaya çıxmaq üçün alternativ yola malik olmaq arzusu, zəruriyyəti idi və biz buna Türkmənistanın milli müstəqilliyini möhkəmlətmək kimi baxırdıq.



Uzun müddət bir şeyə nail ola bilmədik. Amma indi Birləşmiş Ştatların rəhbərliyinin yardımı ilə bu layihə çox-çox irəliləmişdir. Biz Türkiyə ilə qazın qiyməti, həcmi haqqında saziş imzalamışdıq. 2002-ci ildə Türkiyəyə 30 milyard kubmetr Türkmənistan qazı çatdırılacaqdır. Qiymətlər razılaşdırıl-

mışdır. Biz mehriban qonşularımızla - Azərbaycan və Gürcüstanla qazımızın onların ərazisi vasitəsilə tranzitinin şərtləri barədə razılığa gəlmişik. Bu, artıq real layihədir və o, bizim hamımız üçün XXI əsrdə çox böyük iqtisadi sərfəni, iqtisadi əlaqələr sahəsində əməkdaşlığı təmin edəcəkdir.

Fürsətdən istifadə edərək nəzərə çarpdırmaq istəyirəm ki, Türkmənistan bu layihəyə sadiq olacaq və onu fəal surətdə həyata keçirəcəkdir. Biz öz tərəfdaşlarımızla hər şey edəcəyik ki, Türkmənistan qazı 2002-ci ildə Türkiyəyə çatdırılsın. Türkiyə tərəfi 16 milyard kubmetr qaz qəbul edəcək, öz ərazisi ilə Avropaya 14 milyard kubmetr qaz göndərməkdə bizə kömək edəcəkdir. Biz konsorsiumla birlikdə işləyəcəyik.

1990-cı ildən ölkəmiz Türkmənistan-Özbəkistan-Qazaxıstan-Rusiya boru kəməri ilə ildə 90 milyard kubmetrdən çox qaz nəql etmişdir. Fürsətdən istifadə edərək, biz Amerika rəhbərliyindən xahiş etmək istərdik ki, Türkmənistan qazının alternativ olaraq Cənub-Şərqi Asiyaya - Çin vasitəsilə Yaponiyaya çıxması məsələsinə baxsın. Biz bu layihə üzərində də işləyirik və əgər dostumuz, Amerika Birləşmiş Ştatlarının hörmətli Prezidenti Bill Klinton öz həmkarları ilə bu layihəni dəstəkləsəydi, minnətdar olardıq. Bu, XXI əsrdə bizi dostluq və iqtisadi əməkdaşlıq telləri ilə bağlayardı.

Bu gün bizə belə mühüm tarixi sazişi - türkmən xalqının taleyində çox böyük rol oynayacaq sazişi imzalamağa imkan verildiyinə görə təşəkkür edirəm. Bizi dəstəklədiyinizə və imzalanmış sənədə görə sizin hamınıza təşəkkür edirəm. Sağ olun.

* * *

**Eduard Şevardnadze:** Mən etiketi pozmalı olacağam. Çünki həmvətənlərim indi məni dinləyir və qoy onlar bilsinlər ki, bu neftin və bu qazın müəyyən hissəsi Gürcüstanda qalacaqdır.

* * *

Sonra mərasimdə Türkiyə Prezidenti Süleyman Dəmirəl nitq söylədi.







## Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin nitqi

- Azərbaycan Prezidenti, əziz qardaşım hörmətli Heydər Əliyev!

Gürcüstan Prezidenti, əziz qardaşım hörmətli Eduard Şevardnadze!

Qazaxıstan Prezidenti, əziz qardaşım hörmətli Nursultan Nazarbayev!

Türkmənistan Prezidenti, əziz qardaşım hörmətli Saparmurad Niyazov!

Amerika Birləşmiş Ştatlarının Prezidenti, əziz dostum hörmətli Bill Klinton!

Norveçin Baş naziri, hörmətli Kyel Maqne Bondevik!

Dəyərli qonaqlar!

Biz bu gün buraya, Asiya ilə Avropanın qucaqlaşdığı yerə, İstanbulun ürəyinə, dünyada təbii gözəlliyi ilə məşhur olan Bosfor boğazına yeni bir tarix yaratmaq üçün toplaşmışıq. Biz bu gün burada yeni və parlaq bir gələcəyə doğru yola birlikdə çıxırıq. Biz bu gün burada təkcə Xəzər və Aralıq dənizlərini deyil, talelərimizi də bir-birinə bağlayırıq. Bu gün burada nəhayət, ortaq xəyallarımızı gerçəkləşdiririk.

Bir az bundan əvvəl imza atdığımız sənədlər sülhə və rifaha xidmət edəcəkdir. Xəzər hövzəsinin neft və təbii qaz ehtiyatlarını təhlükəsiz, iqtisadi cəhətdən sərfəli və ətraf mühitə zərər verməyəcək şəkildə dünya

bazarlarına çatdırmaq istiqamətində iradəmizi nümayiş etdirərkən, biz eyni zamanda tarixin çağırışına da cavab vermiş oluruq.

Cənab Prezident Klintonun iki gün əvvəl dediyi kimi, bizim imzalarımız gələcək nəsillərin xoşbəxtliyi və rifahı üçündür. Dost və qardaş Azərbaycanın, Gürcüstanın, Qazaxıstanın və Türkmənistanın prezidentlərinə - əziz qardaşlarıma gələcəyimizin birgə qurulması sahəsində göstərdikləri mətanətə və uzaqgörənliyə görə öz təşəkkürümü bildirirəm. Onlar Avrasiyanı konkret reallığa çevirən prosesin öncülləridir.

Amerika Birləşmiş Ştatlarının Prezidenti, əziz dostum Bill Klintona və onun əməkdaşlarına da minnətdarlıq edirəm. Mən hər kəsin nə etdiyinin ən yaxşı şahidiyəm. Prezident Klintonun liderliyi altındakı Amerika Birləşmiş Ştatları hökuməti Avrasiyanın rifah və sabitlik üçün, qlobal sülh üçün əhəmiyyətini vaxtında görmüşdür.

Əziz dostlarım!

Bölgəmizin gələcəyini müəyyənləşdirəcək tarixi bir anı sizinlə bölüşməkdən böyük səadət duydum. Bu gün imzaladığımız sənədlərin bu gözəl şəhərdə yaşayan insanlar üçün xüsusi əhəmiyyəti və mənası vardır. Çünki bu layihələrin həyata keçirilməsi ilə İstanbul qorxulu bir kabusdan qurtaracaqdır. Bu gün biz burada bəşəriyyətin ortaq sərvəti olan İstanbulu və Bosfor boğazını da təhlükədən xilas etmiş oluruq. Bəli, bu layihələr eyni zamanda ətraf mühitin qorunmasına və təbii müvazinətin pozulmamasına zəmanət verən addımlardır.

Bosforun hər iki sahilindən göz işlədikcə uzanan Avropa və Asiyaya baxarkən XXI əsrin ümidlərlə dolu dünyasını görə bilirik. Bu dünya qlobal əməkdaşlıq dünyası olacaqdır. Bu dünya düşmənçilik yerinə həmrəylik və ortaq tale şüuruna malik bir dünya olacaqdır. Bu dünyada elm insanlığın ortaq səadətinin təməlini təşkil edəcəkdir. Bu dünya birimizin bədbəxtliyinin digərimizin xoşbəxtliyi mənasına gəlmədiyi, hamımızın bir-birinin taleyində pay sahibi olduğu, hegemoniyanın öz yerini həmrəyliyə və əməkdaşlığa verdiyi bir dünya olacaqdır.

Hamınızı ortaq nailiyyətimiz münasibətilə bir daha təbrik edir, daha gözəl bir dünyaya doğru yolda hamımıza sülh və ümid dolu əmin-amanlıq arzulayıram. Sağ olun.

* * *

Sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton nitq söylədi.





## Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun nitqi

- Prezident Dəmirəl, Baş nazir Bondevik, çox sağ olun.

Qazaxıstan, Türkmənistan, Azərbaycan və Gürcüstan Prezidentlərinə xüsusi minnətdarlığımı ifadə edirəm. Bu günün onlar üçün xüsusi mənası var. Bu gün bizim uzunmüddətli səylərimizin kulminasiyası və yeni başlanğıcın günüdür.

Əsrlər boyu Xəzər hövzəsi regionu bəşər tarixində müxtəlif yolların kəsişdiyi və xüsusi əhəmiyyətə malik region olmuşdur. Lakin o, heç zaman bugünkü qədər əhəmiyyətli olmamışdır. İndicə imzalanmış sənədlərin həqiqətən tarixi mənası var. Bu sənədlər regionun inkişafı və təhlükəsizliyini ön plana çəkəcəkdir. Bu isə dünyanın bütün qalan hissəsi üçün də əhəmiyyətlidir.

Qədim İpək yolu üzərində yerləşən bu ərazilərdə baş verəcək hadisələrin Rusiyanın gələcəyinə, Avropanın təhlükəsizliyinə, Qərblə müsəlman dünyasının əlaqələrinə, qlobal iqtisadiyyatın güclənməsinə və Amerika iqtisadiyyatının davamlı yüksəlişinə təsiri olacaqdır.

Bir qədər əvvəl deyildiyi kimi, Amerika Birləşmiş Ştatları Bakı-Ceyhan və Transxəzər layihələri üzrə bu ölkələrin hamısı ilə intensiv işləmişdir. Biz bu işi dörd məqsədi əsas tutaraq görmüşük.

Birincisi, enerji ehtiyatlarının müdrikcəsinə inkişaf etdirilməsi Xəzər ətrafındakı yeni müstəqillik qazanmış ölkələrin istiqlaliyyətini bir daha

möhkəmlədərək onlara ayaq üstə möhkəm durmaqda və öz talelərini müəyyən etməkdə yardım göstərəcəkdir. Həm də bu vasitə ilə Mərkəzi Asiya və Qərb arasında ticarət və siyasət körpüsü salınacaqdır. Ağ evdə fəaliyyətə başladığım gündən etibarən bu, mənim hökumətimin üstünlük verdiyi əsas istiqamətlərdən biri olmuşdur.

İkincisi, bu boru xətlərinin inşası sübut edəcəkdir ki, həmin ölkələr siyasi rəqabətdənsə, iqtisadi və kommersiya əlaqələrindən daha çox qazanc əldə edə bilərlər.

Üçüncüsü, Xəzərin təbii sərvətləri bizim ümumi qlobal enerji təchizatımızı daha təhlükəsiz və daha rəngarəng edəcəkdir. Bütün dünya üçün təminat siyasəti demək olan bu boru kəmərləri enerji resurslarının bir nöqtədən deyil, müxtəlif boru kəmərləri vasitəsilə daşınmasına yardım göstərəcəkdir.

Nəhayət, sonuncusu, - bu, çox vacibdir, Prezident Dəmirəl bir qədər əvvəl bu haqda dedi, - müdrik planlaşdırma və müasir texnologiya nəticəsində enerji resurslarının inkişafı ətraf mühitə lazımsız təsir etmədən həyata keçiriləcəkdir. Bu isə o deməkdir ki, burada, sahilində olduğumuz, böyük türk milləti üçün həyati məna daşıyan Bosforun gözəl suları həmin boru kəmərləri ilə axıdılacaq neftin ləkələri ilə çirklənməyəcəkdir.

1995-ci ildən etibarən Birləşmiş Ştatlar Xəzər regionundan enerji məhsullarının beynəlxalq bazarlara daşınması üçün müxtəlif boru kəmərləri yaradılması fikrinin tərəfdarı kimi çıxış edir. Bunların bəziləri tikilib, yaxud da tikilmək üzrədir.

Mən istəyirəm hamınız biləsiniz ki, biz sizin səylərinizi və sizinlə işləyən enerji şirkətlərimizi dəstəkləməkdə davam edəcəyik. Diplomatlarımız və enerji məsələləri üzrə ekspertlərimiz Xəzəryanı dövlətlərin, Türkiyənin ehtiyaclarını və tələbatını ödəyən nəticələrin işlənib hazırlanmasına yardım göstərəcəklər. Energetika naziri Riçardsonun bu gün burada iştirak etməsi bizim gələcəkdə də bu işə sadiq olacağımıza sübutdur.

Biz anlayırıq ki, bugünkü gün ümumi işimizin intensiv kommersiya bazasının yalnız başlanğıcıdır. Üzümüzə gələn aylarda bizim ixrac-



idxal bankı, xarici ölkələrə sərmayə ayıran şəxsi investisiya korporasiyalarımız və eləcə də ticarət və inkişaf agentliyimiz - onların hamısı kommersiya-maliyyə paketinin işlənib hazırlanması üçün sizinlə birgə çalışacaqlar.

Təxminən 700 il bundan əvvəl dünyanın bu hissəsi neftlə o qədər zəngin idi ki, Bakıya gələn səyahətçi onu bütün gecə püskürən alova bənzətmişdir. Uzun illər boyu bu regionun əhalisi azadlıq və təhlükəsizliyə malik olmamışdır ki, öz zəngin potensialından istifadə etsin. İndi onların azadlığı var, təhlükəsizliyi var və onların liderləri gələcəyi görmək qabiliyyəti nümayiş etdirmişlər. Bu isə qədim yolayrıcına dünyanı bir daha işıqlandırmaq və bizim hamımızın gələcəyini bir daha parlatmaq imkanı verir.

Çox sağ olun.

* * *

Sənədlər imzalandıqdan sonra prezidentlər bu tarixi hadisə münasibətilə bir-birini bir daha təbrik etdilər, həmin layihələrin həyata keçirilməsində uğurlar arzuladılar.















# YÜKSƏK SƏVİYYƏDƏ GÖRÜŞLƏR


*Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin Fransa Prezidenti Jak Şirak ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin İsrailin Baş naziri Ehud Barak ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin AFR Kansleri Herhard Şröder ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin Ukrayna Prezidenti Leonid Kuçma ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin Moldova Prezidenti Petru Luçinski ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin Türkmənistan Prezidenti Saparmurad Niyazov ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşü*

*Azərbaycan və Ermənistan prezidentlərinin, ATƏT-in icraçı sədri və ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin xarici işlər nazirlərinin görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin ATƏT-in Parlament Assambleyasının sədri Helle Den ilə görüşü*

# Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşü



ATƏT-in İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 19-da Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə görüşdü.

Bir-birini dostcasına, qardaşcasına səmimiyyətlə salamlayan Prezidentlər Zirvə görüşünün uğurla keçməsini məmnuniyyət hissi ilə qeyd etdilər. Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in İstanbul Zirvə görüşünün çox gözəl təşkil olunduğuna və səmərəli iş üçün hər cür şərait yaradıldığına görə Prezident Süleyman Dəmirələ təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı Heydər Əliyev Türkiyədə baş vermiş dağıdıcı zəlzələ zamanı minlərlə adamın həlak olmasından kədərləndiyini bir daha bildirdi və bu fəlakətin nəticələrinin tezliklə aradan qaldırılması üçün Türkiyə hökuməti tərəfindən görülən tədbirləri yüksək qiymətləndirdi.

Qardaş Türkiyənin ATƏT-in növbəti sammitinin ev sahibi olmasından, zirvə görüşünün Türkiyədə keçirilməsindən, qəbul edilən əsas sənədlər-









dən birinin "İstanbul xartiyası" adlandırılmasından iftixar hissi duyduğunu bildirən Prezident Heydər Əliyev İstanbul Bəyannaməsini də böyük əhəmiyyəti olan tarixi hadisə kimi qiymətləndirdi və Bakı-Ceyhan əsas ixrac boru kəmərinin, Transxəzər qaz magistralının inşası barədə sənədlərinin imzalanması münasibətilə Türkiyə Prezidenti Süleyman Dəmirəli ürəkdən təbrik etdi, ölkələrimizin iqtisadi tərəqqisi yolunda bu layihələrin əvəzsiz rol oynayacağını bir daha vurğuladı.

Bakı-Ceyhan boru kəmərinin tikintisi barədə müqavilənin imzalanması münasibətilə Azərbaycan Prezidenti Heydər Əliyevi səmimi qəlbdən təbrik edən Türkiyə Prezidenti Süleyman Dəmirəl bu layihənin həyata keçirilməsi üçün əziz dostu və qardaşı Prezident Heydər Əliyevin xüsusi rolunu, ardıcıl səylərini və əzmkarlığını yüksək dəyərləndirdi.

Dövlət başçıları ATƏT-in İstanbul Zirvə görüşünün gedişi, müzakirəyə çıxarılan məsələlər barədə geniş fikir mübadiləsi apardılar.

Prezident Süleyman Dəmirəl Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli sahəsində Azərbaycanın mövqeyinin Türkiyə tərəfindən bundan sonra da dəstəklənəcəyini bildirdi.

Prezidentlər ikitərəfli və regional münasibətlərə dair bir sıra məsələlər haqqında ətraflı fikir mübadiləsi apardılar.

Görüş ənənəvi dostluq və səmimiyyət şəraitində keçdi.







# Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton ilə görüşü

ATƏT-in Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 19-da "Çırağan sarayı"nda Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton ilə görüşdü.

Azərbaycan Prezidentini çox səmimiyyətlə salamlayan cənab Klinton ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının İstanbul sammitində Prezident Heydər Əliyevlə yenidən görüşündən çox şad olduğunu söylədi.

ABŞ dövlətinin başçısı Bill Klinton Bakı - Ceyhan əsas ixrac boru kəməri barəsində sənədlərin imzalanmasını böyük tarixi hadisə kimi dəyərləndirdi və bu münasibətlə respublikamızın Prezidentini təbrik etdi. Azərbaycan Prezidenti Heydər Əliyev uzaqgörən, ardıcıl siyasəti sayəsində 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"nin Xəzər dənizinin enerji ehtiyatlarının bütün dünyaya açılmasının əsasını qoyduğunu nəzərə çarpdıran ABŞ Prezidenti Bill Klinton Bakı - Ceyhan kəmərinin reallığa çevrilməsində respublikamızın rəhbərinin misilsiz xidmətlərini yüksək qiymətləndirdi. Transxəzər qaz kəmərinin çəkilişinə dair imzalanmış sənədi də yüksək dəyərləndirən Prezident Bill Klinton əmin olduğunu bildirdi ki, bu kəmərlər region dövlətlərinin suverenliyinin və müstəqilliyinin daha da möhkəmləndirilməsində mühüm rol oynayacaq və onların iqtisadi tərəqqisinə böyük töhfə verəcəkdir.

Amerika-Azərbaycan əməkdaşlığının sürətlə inkişaf etdirilməsi sahəsində respublikamızın rəhbərinin göstərdiyi səylərdən məmnunluqla danışan Prezident Bill Klinton Prezident Heydər Əliyevlə özü arasında yaranmış



şəxsi dostluq münasibətlərini həmişə çox dəyərləndiyini vurğuladı.

ABŞ Prezidenti Bill Klinton ilə hər bir görüşünün onda həmişə xoş hisslər yaratdığını nəzərə çarpdıran Azərbaycan Prezidenti Heydər Əliyev 1999-cu ilin aprel ayında NATO-nun 50-illik yubiley tədbirlərində iştirak etmək üçün Vaşinqtona səfəri zamanı və xüsusən Klivlendə müalicə olunarkən ona göstərilən diqqət və qayğıya görə cənab Bill Klintona, Amerika hökumətinə və xalqına bir daha dərin minnətdarlığını bildirdi.

Bakı - Ceyhan əsas ixrac kəmərinin, Transxəzər qaz magistralının reallaşması sahəsində Amerika dövlətinin prinsipial mövqeyindən və şəxsən Bill Klintonun bu məsələlərə daim xüsusi diqqət yetirməsindən razılıqla söhbət açan dövlətimizin başçısı Heydər Əliyev məhz bu ardıcıl səylərin nəticəsində İstanbulda belə tarixi sənədlərin imzalandığını vurğuladı.

Prezident Heydər Əliyevin liderliyi ilə Qafqazda və Mərkəzi Asiyada sülhün, sabitliyin bərqərar olunması sahəsində görülən işlərdən məmnunluqla bəhs edən cənab Bill Klinton Ermənistan və Azərbaycan dövlətləri başçılarının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün son vaxtlar apardıqları birbaşa danışıqların Amerika hökuməti tərəfindən rəğbətlə qarşılandığını və diqqətlə izlənildiyini nəzərə çarpdırdı.

Azərbaycan və Ermənistan prezidentlərinin, ATƏT-in icraçı sədrinin



və Minsk qrupunun həmsədrləri olan ölkələrin xarici işlər nazirlərinin İstanbulda keçirilmiş görüşündən də məmnun qaldığını söyləyən Bill Klinton bir daha bəyan etdi ki, Minsk qrupunun həmsədrlərindən biri kimi Amerika Birləşmiş Ştatları münaqişənin dinc vasitələrlə aradan qaldırılması üçün öz fəallığını daha da artıracaqdır.

Müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatları ilə dostluq və əməkdaşlıq əlaqələrinin, strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə daha da sıxlaşdırılmasına daim xüsusi diqqət yetirdiyini və əhəmiyyət verdiyini vurğulayan Prezident Heydər Əliyev Amerika Konqresinin 1992-ci ildə qəbul etdiyi 907-ci düzəlişin bu əməkdaşlığın sürətli inkişafına maneçilik törətdiyini bir daha nəzərə çarpdıraraq həmin düzəlişin aradan qaldırılmasının vacib olduğunu bildirdi.

Prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, ikitərəfli Amerika-Azərbaycan əlaqələri son illər ərzində Prezident Bill Klinton ilə birgə yaratdıqları möhkəm dostluq və əməkdaşlıq təməlinə söykənərək daim uğurlu olacaq, xalqlarımızın mənafelərinə xidmət edəcək, onların rifah halının yüksəlməsinə, ölkələrimizin iqtisadi dirçəlişinə kömək edəcək, bütün Qafqaz regionunda sülhün, sabitliyin və əmin-amanlığın bərqərar



olunması üçün böyük imkanlar açacaqdır.

Prezidentlər Azərbaycan ilə Amerika arasında həm enerji sektorunda, həm də digər sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin möhkəmləndirilməsi, iqtisadi münasibətlərin daha da sıxlaşdırılması ilə bağlı məsələləri müzakirə etdilər.



ATƏT-in İstanbul Zirvə görüşünün tarixi sənədlərində irəli sürülmüş müddəaların həyata keçirilməsi sahəsində qarşıda duran vəzifələr barədə söhbət edən prezidentlər beynəlxalq aləmdə, Qafqazda vəziyyət, regionda əməkdaşlığın perspektivləri və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər haqqında da ətraflı fikir mübadiləsi apardılar.



# Azərbaycan Prezidenti Heydər Əliyevin Fransa Prezidenti Jak Şirak ilə görüşü





ATƏT-in İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev noyabrın 18-də İstanbulda Fransa Prezidenti Jak Şirak ilə görüşdü.

ATƏT-in sammitində Fransa dövlətinin başçısı ilə görüşməkdən məmnun qaldığını bildirən Prezident Heydər Əliyev cənab Jak Şirakın zirvə görüşündəki nitqini böyük maraqla dinlədiyini nəzərə çarpdırdı.

Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın səylərinə böyük ümidlər bəslədiyini vurğuladı. Prezident Jak Şirak ilə səmimi dostluq münasibətlərini və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün onun şəxsi səylərini yüksək qiymətləndirən Prezident Heydər Əliyev cənab Jak Şirakın zirvə görüşündəki nitqində bütün iştirakçı ölkələrin dövlət başçılarının diqqətini bu problemin həllinə cəlb etdiyinə görə ona dərin minnətdarlığını bildirdi.

Fransa Prezidentinin diqqətini torpaqlarımızın hələ də işğal altında qaldığına, yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox vətəndaşımızın çadırlarda ağır şəraitdə yaşadığına yönəldən dövlətimizin başçısı Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında Jak Şirakdan öz şəxsi səylərini artırmağı xahiş etdi.

Azərbaycan-Fransa iqtisadi əməkdaşlığından söhbət açan Prezident Heydər Əliyev Xəzərin zəngin enerji ehtiyatlarının istismarında Fransa şirkətlərinin fəal iştirakını yüksək dəyərləndirdiyi-

ni nəzərə çarpdırdı.

Bakı-Ceyhan əsas ixrac boru kəmərinin inşası barədə sənədlərin imzalanması münasibətilə dövlətimizin başçısı Heydər Əliyevi səmimi qəlbdən təbrik edən Fransa Prezidenti Jak Şirak bu layihənin beynəlxalq əhəmiyyətini, region dövlətlərinin və Qərb ölkələrinin iqtisadi yüksəlişi üçün böyük rol oynayacağını vurğuladı.

Prezident Heydər Əliyevin ATƏT-in zirvə görüşündəki nitqini yüksək qiymətləndirən cənab Jak Şirak Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması, regionda sabitliyin və əmin-amanlığın bərqərar edilməsi üçün dövlətimizin başçısının apardığı müdrik və uzaqgörən siyasətin tezliklə müsbət nəticələr verəcəyinə əmin olduğunu bildirdi.







Azərbaycanın və Ermənistanın dövlət başçılarının birbaşa görüşlərinin bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün əhəmiyyətli olduğundan danışan Prezident Jak Şirak nizamasalma prosesində Minsk qrupunun həmsədri kimi öz ölkəsinin də səylərini artıracağını xüsusi qeyd etdi.

Görüşdə Fransa-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi və dərinləşdirilməsi məsələləri nəzərdən keçirildi, bir sıra beynəlxalq və regional problemlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

Görüş dostluq və qarşılıqlı anlaşma şəraitində keçdi.

# Azərbaycan Prezidenti Heydər Əliyevin AFR Kansleri Herhard Şröder ilə görüşü





Noyabrın 19-da "Çırağan sarayı"nda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə Almaniya Federativ Respublikasının kansleri Herhard Şröder arasında görüş oldu.

AFR kanslerini səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev Almaniya ilə bütün sahələrdə əlaqələrin genişləndirilməsinə Azərbaycanın həmişə xüsusi diqqət yetirdiyini nəzərə çarpdırdı.

Prezident Heydər Əliyev 1947-ci ildə Azərbaycana gətirilmiş Bremen qalereyası rəsmlərinin Almaniyaya qaytarılması haqqında sərəncamı və məktubu AFR kanslerinə təqdim etdi. İkinci dünya müharibəsi qurtardıqdan sonra bir zabitin həmin əsərləri Bakıda satmağa cəhd göstərərkən respublikamızın müvafiq orqanları tərəfindən yaxalandığını xatırladan dövlətimizin başçısı dedi ki, bu əsərlər o vaxt Azərbaycan Dövlət İncəsənət Muzeyinə verilmiş və orada saxlanılmışdır. Lakin 1992-ci ildə muzeydən 130 əsər, o cümlədən Bremen qalereyasının 10 əsəri oğurlanmışdır. Həmin əsərlərin 1997-ci ildə Amerikanın Nyu-York şəhərində tutulduğunu və oğruların orada məhkəməsi olduğunu vurğulayan Prezident Heydər Əliyev dedi:

- Cənab kansler, biz bu iki əsəri və Nyu-Yorkda məhkəmə orqanlarının sərəncamında olan əsərləri sizə veririk. Mən 1947-ci ildən muzeyimizdə saxladığımız həmin əsərlərlə bağlı sənədləri də sizə təqdim edirəm.

Çox səmimi dostluq hərəkətinə görə dövlətimizin başçısı Heydər Əliyevə ürəkdən təşəkkür edən cənab Şröder əmin olduğunu bildirdi ki, bu addım Azərbaycan ilə Almaniya arasında bütün sahələrdə, həmçinin mədəniyyət sahəsində əlaqələrin daha da inkişaf etməsinə layiqli töhfə olacaqdır.

Kansler Herhard Şröder daha sonra dedi:

- Cənab Prezident, mən Bremen şəhərinin rəhbərliyinə bu barədə məlumat verəcəyəm və biz müsadirə edilmiş bu əsərlərlə əlaqədar mülkiyyət hüququnu müəyyənləşdirəcəyik. Mən əminəm ki, təkcə bremenlilər deyil, Almaniyanın bütün sakinləri də sizin bu addımınızı və mədəniyyət sahəsində əməkdaşlığımızı yüksək qiymətləndirəcək, münasibətlərimizə hörmətlə yanaşacaqlar. Bu əsərlərin bizə verilməsi ölkələrimizin siyasi, iqtisadi və mədəni sahədə qarşılıqlı münasibətlərinin daha da inkişaf etməsinə sizin töhfəniz olacaqdır. Mən sizə çox minnətdaram.

Görüşdə Azərbaycan Prezidenti Heydər Əliyev və AFR kansleri Herhard Şröder arasında bu barədə sənəd imzalandı.

Müstəqillik yolu ilə inamla addımlayan Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu və demokratik islahatların həyata keçi-



rilməsi sahəsində qazanılmış uğurlardan söhbət açan respublikamızın Prezidenti daha sonra Ermənistan-Azərbaycan münaqişəsinin ölkəmiz üçün ən ağrılı problem olduğunu nəzərə çarpdırdı.

Azərbaycanın 1988-ci ildən bəri Ermənistan silahlı qüvvələrinin təcavüzünə məruz qaldığını cənab Şrödera ətraflı izah edən dövlətimizin başçısı Heydər Əliyev bu münaqişə nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunmasından, bir milyondan çox vətəndaşımızın çadırlarda ağır vəziyyətdə yaşamasından geniş bəhs etdi.

Bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün Ermənistan Prezidenti ilə apardığı birbaşa danışıqlardan söhbət açan respublikamızın rəhbəri dedi ki, biz ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasını, yerlərindən zorla qovulmuş qaçqınlarımızın doğma yurdlarına qayıtmasını istəyirik və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək idarəetmə statusu verməyə tərəfdarıq.

Cənab Şröder ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin tezliklə həll olunması üçün Almaniyanın öz səylərini artıracağını və Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəyini nəzərə çarpdırdı.



Söhbət zamanı ölkələrimizin bütün sahələrdə əməkdaşlığının daha da möhkəmləndirilməsindən, yaradılmış birgə müəssisələrin fəaliyyətinin genişləndirilməsindən, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində Almaniya şirkətlərinin yaxından iştirakından razılıqla bəhs edildi və bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

Prezident Heydər Əliyev kansler Herhard Şröderi Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.







# Azərbaycan Prezidenti Heydər Əliyevin Ukrayna Prezidenti Leonid Kuçma ilə görüşü

ATƏT-in İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbulda Ukrayna Prezidenti Leonid Kuçma ilə görüşdü.

Yenidən Ukraynanın Prezidenti seçilməsi münasibətilə Leonid Kuçmanı ürəkdən təbrik edən Azərbaycan Prezidenti Heydər Əliyev ölkələrimiz arasında getdikcə möhkəmlənən iqtisadi əməkdaşlığa və strateji tərəfdaşlığa böyük əhəmiyyət verdiyini vurğuladı.

Ukrayna Prezidenti Leonid Kuçma səmimi təbrikə və onun siyasi xəttini daim dəstəklədiyinə görə Azərbaycan Prezidenti Heydər Əliyevə son dərəcə minnətdarlığını bildirdi.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası ilə bağlı sənədlərin İstanbul Zirvə görüşünün keçirildiyi günlərdə yüksək səviyyədə imzalanması münasibətilə dövlətimizin başçısını səmimi qəlbdən təbrik edən Prezident Leonid Kuçma böyük tarixi əhəmiyyətli həmin sazişin reallaşmasının bu layihənin təşəbbüskarı Prezident Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti, ardıcıl və məqsədyönlü fəaliyyəti sayəsində mümkün olduğunu nəzərə çarpdırdı.

ATƏT-in İstanbul Zirvə görüşünün yüksək səviyyədə təşkilindən və gedişindən bəhs edən Azərbaycan və Ukrayna prezidentləri müzakirə olunan məsələlərə münasibətdə yekdil mövqedə durduqlarını bir daha razılıq hissi ilə təsdiqlədilər.

Xəzərin zəngin enerji ehtiyatlarının nəqli və emalı sahəsində Azərbaycan-Ukrayna əməkdaşlığından məmnun qaldığını nəzərə çarpdıran Prezident Heydər Əliyev bu layihənin region dövlətlərinin müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsinə, iqtisadi tərəqqisinə xidmət edəcəyinə əmin olduğunu bildirdi.

Dövlət başçıları bir sıra digər beynəlxalq və regional məsələlər barəsində də fikir mübadiləsi apardılar.

Görüş ənənəvi dostluq və səmimilik şəraitində keçdi.

# Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə görüşü





ATƏT-in İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çırağan sarayı"nda Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə görüşdü.

Cənab Eduard Şevardnadzeni səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev ölkələrimizin qədim dostluq ənənələrinə malik əlaqələrinin gündən-günə inkişaf etməsini bir daha yüksək qiymətləndirdi.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası ilə əlaqədar sənədlərin ATƏT-in İstanbul Zirvə görüşünün keçirildiyi günlərdə yüksək səviyyədə imzalanmasından son dərəcə məmnun olduğunu bildirən Gürcüstan Prezidenti Eduard Şevardnadze bu layihənin reallaşması yolunda ölkələrimizin məruz qaldığı təzyiqlərdən, qarşılaşdığı maneələrdən, çətinliklərdən də söhbət açdı.

Gürcüstan Prezidenti bu boru kəmərinə dair sazişin imzalanmasının məhz həmin layihənin təşəbbüskarı və müəllifi olan Azərbaycan Prezidenti Heydər Əliyevin ardıcıl və məqsədyönlü siyasəti, qətiyyətli mövqeyi, əzmkarlığı sayəsində gerçəkləşdiyini xüsusi vurğuladı və bu münasibətlə dövlətimizin başçısını səmimi qəlbdən təbrik etdi.

Azərbaycan Prezidenti Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan kəmərinin inşasına dair sənədlərin imzalanması münasibətilə Gürcüstan Prezidenti Eduard Şevardnadzeni ürəkdən təbrik edərək, qonşu Gürcüstanın ərazisindən keçəcək əsas ixrac boru kəmərinin dost ölkənin iqtisadi tərəqqisi, regionda sülhün və sabitliyin yaranması üçün əhəmiyyətli olduğunu nəzərə çarpdırdı.

ATƏT-in İstanbul Zirvə görüşünün gedişindən söhbət açan cənab Eduard Şevardnadze Azərbaycan Prezidenti Heydər Əliyevin nitqində Cənubi Qafqazda sülhün, əmin-amanlığın və sabitliyin bərqərar edilməsi üçün irəli sürülən təklifləri yüksək dəyərləndirdi.

Prezident Heydər Əliyev İstanbul sammitində qaldırılan məsələlərə toxunaraq, dövlətlərimizin müstəqilliyinin möhkəmləndirilməsi və iqtisadi yüksəlişi üçün əlbir səylər göstərilməsinin vacibliyini vurğuladı.

Görüşdə Cənubi Qafqazdakı vəziyyət, ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində qarşıda duran vəzifələr barədə geniş fikir mübadiləsi aparıldı.

Prezidentlər bir sıra digər beynəlxalq və regional məsələləri də nəzərdən keçirdilər.

Görüş ənənəvi dostluq və səmimiyyət şəraitində keçdi.





# Azərbaycan Prezidenti Heydər Əliyevin Moldova Prezidenti Petru Luçinski ilə görüşü

ATƏT-in İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbulda Moldova Prezidenti Petru Luçinski ilə görüşdü.

Moldova Prezidentini səmimiyyətlə salamlayan dövlətimizin başçısı ölkələrimizin əməkdaşlığının hazırki vəziyyətindən razılıqla söhbət açdı və bu əlaqələrin daha da inkişaf etdirilməsinin hər iki tərəf üçün çox faydalı olduğunu vurğuladı.

Bakı-Tbilisi-Ceyhan əsas boru kəmərinin, Tranxəzər qaz magistralının çəkilişi ilə əlaqədar sənədlərin ATƏT-in zirvə görüşünün keçirildiyi günlərdə müvəffəqiyyətlə imzalanması münasibətilə respublikamızın rəhbərini səmimi qəlbdən təbrik edən Moldova dövlətinin başçısı böyük tarixi əhəmiyyətə malik olan bu hadisəni Prezident Heydər Əliyevin uzaqgörən siyasəti, gərgin və ardıcıl səylərinin nəticəsi kimi qiymətləndirdi.

Azərbaycan Prezidenti Heydər Əliyev səmimi təbriklərə görə Moldova Prezidenti Petru Luçinskiyə təşəkkür etdi. Ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsinin və sıxlaşdırılmasının zəruriliyindən danışan dövlətimizin başçısı Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair İstanbulda imzalanmış sənədlərin region dövlətlərinin müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsinə, iqtisadi yüksəlişinə böyük töhfə verəcəyinə əmin olduğunu bildirdi.

ATƏT-in İstanbul Zirvə görüşündə dövlət və hökumət başçılarının nitqlərində qaldırılmış məsələlər ətrafında fikir mübadiləsi aparan prezidentlər ayrı-ayrı münaqişə ocaqlarının söndürülməsi üçün beynəlxalq birliyin səylərinin daha da artırılmasının vacib olduğunu nəzərə çarpdırdılar.

Azərbaycanın və Moldovanın dövlət başçıları bir sıra digər beynəlxalq və regional məsələləri də müzakirə etdilər.

Görüş ənənəvi dostluq və səmimiyyət şəraitində keçdi.

# Azərbaycan Prezidenti Heydər Əliyevin Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ilə görüşü





ATƏT-in İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çırağan sarayı"nda Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ilə görüşdü.

Cənab Nazarbayev respublikamızın rəhbərini mehribanlıqla salamladı, Prezident Heydər Əliyevlə görüşdən çox məmnun qaldığını bildirdi və Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin durmadan möhkəmləndirilməsinin hər iki tərəf üçün çox faydalı olduğunu vurğuladı.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası barədə tarixi əhəmiyyəti olan sənədlərin imzalanması münasibətilə Azərbaycan Prezidenti Heydər Əliyevi ürəkdən təbrik edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev bu layihənin gerçəkləşdirilməsi üçün dövlətimizin başçısının göstərdiyi qətiyyət və əzmkarlığı yüksək qiymətləndirdi.

Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan boru kəmərinə dair sənədlərin imzalanması münasibətilə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi səmimi təbrik edən Azərbaycan Prezidenti Heydər Əliyev bu layihənin müstəqillik yolu ilə inamla irəliləyən dövlətlərimizin suverenliyinin möhkəmləndirilməsi, iqtisadi yüksəlişi, bölgədə sülh və əmin-amanlığın yaranması işinə sanballı töhfə olduğunu xüsusi qeyd etdi.

ATƏT-in zirvə görüşündə qaldırılmış məsələlərə toxunan prezidentlər regionda sabitliyin bərqərar edilməsi üçün irəli sürülmüş təşəbbüslərin böyük əhəmiyyət daşıdığını vurğuladılar.

Dövlət başçıları Azərbaycan-Qazaxıstan iqtisadi əlaqələrinin inkişafına, Xəzərin enerji ehtiyatlarının nəqli sahəsində əməkdaşlığa böyük əhəmiyyət verdiklərini nəzərə çarpdırdılar.

Prezidentlər ikitərəfli və regional münasibətlərə dair bir sıra digər məsələlər barəsində də fikir mübadiləsi apardılar.

Görüş ənənəvi dostluq və səmimiyyət şəraitində keçdi.

# Azərbaycan Prezidenti Heydər Əliyevin Türkmənistan Prezidenti Saparmurad Niyazov ilə görüşü





ATƏT-in İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çırağan sarayı"nda Türkmənistan Prezidenti Saparmurad Niyazov ilə görüşdü.

Türkmənistan dövlətinin başçısını səmimiyyətlə salamlayan Prezident Heydər Əliyev ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin sıxlaşdırılmasının vacibliyini nəzərə çarpdırdı.

Xəzərin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin və Transxəzər qaz magistralının tikintisi barədə sənədlərin ATƏT-in Zirvə görüşünün geçirildiyi günlərdə yüksək səviyyədə, böyük müvəffəqiyyətlə imzalanması münasibətilə dövlətimizin başçısını səmimi qəlbdən təbrik edən cənab Saparmurad Niyazov Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin məhz Prezident Heydər Əliyevin gərgin səyləri hesabına reallaşdığını vurğuladı, Azərbaycan ilə Türkmənistan arasında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsindən məmnun qaldığını bildirdi.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin, Transxəzər qaz magistralının çəkilişi ilə əlaqədar sənədlərin imzalanması münasibətilə Türkmənistan Prezidentini ürəkdən təbrik edən Azərbaycan Prezidenti Heydər Əliyev bu layihələrin region dövlətlərinin müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, iqtisadi tərəqqisi üçün son dərəcə əhəmiyyətli rol oynadığını, ölkələrimizin əməkdaşlığının daha da genişlənməsinə və möhkəmlənməsinə xidmət etdiyini nəzərə çarpdırdı.

ATƏT-in İstanbul sammitinin yüksək səviyyədə təşkilindən və keçirilməsindən razılıqla söhbət açan Azərbaycan və Türkmənistan prezidentləri regionda möhkəm sülh və sabitlik yaranması üçün beynəlxalq birliyin öz səylərini artırmasının vacibliyini qeyd etdilər.

Prezidentlər bir sıra digər beynəlxalq və regional məsələlər barəsində də fikir mübadiləsi apardılar.

Görüş ənənəvi dostluq və səmimiyyət şəraitində keçdi.

# Azərbaycan Prezidenti Heydər Əliyevin Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşü



ATƏT-in İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev "Çırağan sarayı"nda Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşdü.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələləri müzakirə olundu.

Prezidentlər münaqişənin nizama salınması üçün ikitərəfli görüşlərin və danışıqların əhəmiyyətini vurğuladılar və bunların davam etdirilməsinin vacibliyini qeyd etdilər. Dövlət başçıları tam sülh əldə olunana qədər tərəflərin atəşkəs rejiminə əməl edəcəklərini və bunu möhkəmləndirəcəklərini bildirdilər.

Prezidentlər Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün hər iki tərəfin konstruktiv mövqe tutmasının zəruriliyini qeyd etdilər.

Prezident Heydər Əliyev və Prezident Robert Koçaryan münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in və onun Minsk qrupu həmsədrlərinin fəaliyyətinin davam etdirilməsi vacibliyini vurğuladılar.



# Azərbaycan Prezidenti Heydər Əliyevin İsrailin Baş naziri Ehud Barak ilə görüşü





ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının İstanbul sammitində iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev ilə İsrailin Baş naziri Ehud Barak arasında noyabrın 18-də "Çırağan sarayı"nda görüş oldu.

İsrail hökumətinin rəhbəri ilə görüşdən məmnun qaldığını bildirən Prezident Heydər Əliyev cənab Barak Baş nazir seçilərkən ona təbrik məktubu göndərdiyini xatırlatdı.

Azərbaycan-İsrail əlaqələrinin hazırkı vəziyyətindən razılıqla bəhs edən dövlətimizin başçısı bütün sahələrdə ölkələrimizin əməkdaşlığının daha da inkişaf etdirilməsinin vacib olduğunu nəzərə çarpdırdı.

Prezident Heydər Əliyev ilə ilk görüşündən böyük məmnunluq duyduğunu vurğulayan cənab Ehud Barak Azərbaycan xalqına onun salamlarını çatdırmağı xahiş etdi.

Kiçik bir xalq olsa da yəhudilərin dünyanın çox yerlərində yaşadığından bəhs edən Baş nazir qonşu ölkə ilə İsrail arasında yaranmış münaqişədən söhbət açaraq dedi ki, biz dövlətimizin güclü, dostlarımızın çox olmasına həmişə xüsusi diqqət yetiririk.

Azərbaycan ilə İsrail arasında əməkdaşlığın gündən-günə inkişaf etməsinə öz hökumətinin xüsusi əhəmiyyət verdiyini söyləyən cənab Ehud Barak Azərbaycanla bir çox sahələrdə, o cümlədən ticarət sahəsində əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətli olduğunu bildirdi. O, İsrail hökumətinin Azərbaycana həmişə dəstək verməyə hazır olduğunu nəzərə çarpdırdı.

Səmimi sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə İsrail ilə sıx əlaqələr yaranmasına daim ciddi diqqət yetirdiyini xatırlatdı, müstəqillik yolu ilə inkişaf edən Azərbaycanın bir sıra çətinliklərlə qarşılaşdığını vurğuladı.

Ermənistanın Azərbaycana təcavüzündən, ölkəmizin ərazilərin 20 faizindən çoxunun işğal olunmasından, bir milyondan çox vətəndaşımızın yerindən, yurdundan zorla qovulmasından, qaçqınların böyük əksəriyyətinin çadırlarda ağır şəraitdə yaşamasından bəhs edən dövlətimizin başçısı Azərbaycanın belə ağır problemlə üzləşməsinə baxmayaraq Amerika Konqresinin 1992-ci ildə respublikamıza qarşı ədalətsiz 907-ci düzəliş qəbul etməsindən bir daha təəssüflə söhbət açdı.

Azərbaycan və yəhudi xalqlarının tarixən yaxın dost olduqlarını nəzərə çarpdıran dövlətimizin başçısı Heydər Əliyev ölkəmizdə yaşayan



yəhudilərə müstəqil respublikamızın bərabərhüquqlu vətəndaşları kimi həmişə xoş münasibət bəslənildiyini vurğuladı.

Amerikaya səfəri zamanı orada yaşayan yəhudi icmaları konfransının başçıları ilə keçirdiyi görüşdən, apardığı səmərəli danışıqlardan məmnun qaldığını bildirən respublikamızın Prezidenti xaricdə yaşayan yəhudilərin nümayəndələrinin tez-tez ölkəmizi ziyarət etməsindən razılıqla söhbət açdı.



Ölkələrimiz arasında əlaqələrin daim inkişaf etməsi üçün geniş imkanlar olduğunu nəzərə çarpdıran Prezident Heydər Əliyev bu münasibətlərin daha da genişləndirilməsinin zəruriliyindən danışdı.

Baş nazir Ehud Barak Azərbaycanda yaşayan yəhudilərə göstərilən dostluq münasibətinə görə Prezident Heydər Əliyevə və xalqımıza dərin minnətdarlığını və təşəkkürünü bildirdi.

Görüşdə hər iki tərəfi maraqlandıran bir sıra məsələlər, beynəlxalq və regional əməkdaşlıq barədə geniş fikir mübadiləsi aparıldı.

Cənab Ehud Barak dövlətimizin başçısını İsrailə rəsmi səfərə dəvət etdi. Prezident Heydər Əliyev də İsrail hökumətinin başçısını Azərbaycana rəsmi səfərə dəvət etdi. Qarşılıqlı dəvətlər məmnunluqla qəbul olundu.



# Azərbaycan və Ermənistan prezidentlərinin, ATƏT-in İcraçı sədrinin və ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin xarici işlər nazirlərinin görüşü






Noyabrın 18-də İstanbuldakı "Çırağan sarayı"nda Azərbaycan Prezidenti Heydər Əliyevin, Ermənistan Prezidenti Robert Koçaryanın, ATƏT-in icraçı sədri, Norveçin xarici işlər naziri Knut Vollebekin və ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin xarici işlər nazirlərinin - ABŞ-ın dövlət katibi Madlen Olbraytın[18], Fransanın xarici işlər naziri Huber Vedrinin və Rusiyanın xarici işlər naziri İqor İvanovun görüşü keçirildi.

Görüşü giriş sözü ilə açan Fransanın xarici işlər naziri Huber Vedrin iştirakçıları səmimiyyətlə salamlayaraq bildirdi ki, müstəqillik yolu ilə gedən Azərbaycan və Ermənistanın inkişafı regionda sülh və sabitlikdən asılıdır. ATƏT-in Minsk qrupunun və onun həmsədrlərindən biri olan Fransanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması sahəsində apardığı işdən söhbət açan cənab Vedrin öz ölkəsinin regionda sülhün və sabitliyin bərqərar edilməsinə hər cür kömək göstərməyə hazır olduğunu nəzərə çarpdırdı.

Bu görüşdən məmnun olduğunu vurğulayan ABŞ-ın dövlət katibi xanım Madlen Olbrayt Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün böyük əhəmiyyət daşıdığını, bununla yanaşı Minsk qrupu həmsərlərinin öz fəaliyyətlərini genişləndirməyə hazır olduqlarını, ABŞ-ın regionda sülhün və sabitliyin bərqərar olmasında və münaqişənin tezliklə həll edilməsində marağı olduğunu bildirdi.

Qafqazda sabitliyin bərqərar olunmasına öz ölkəsinin əhəmiyyət verdiyini nəzərə çarpdıran Rusiyanın xarici işlər naziri İqor İvanov ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiyanın münaqişənin dinc vasitələrlə aradan qaldırılmasını zəruri hesab etdiyini, Azərbaycan-Ermənistan prezidentlərinin birbaşa ikitərəfli görüşlərini dəstəklədiyini və bu görüşlərin davam etdirilməsini zəruri saydığını söylədi.







Azərbaycan Prezidenti Heydər Əliyev bu görüşə və regionun problemlərinə böyük diqqət yetirdiyinə görə görüş iştirakçılarına səmimi minnətdarlığını bildirdi. Dövlətimizin başçısı müstəqillik yolu ilə irəliləyən Azərbaycanın inkişafı üçün böyük çətinliklər doğurmuş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin 12 ildən bəri davam etdiyini və sülh əldə olunmasının həyati zəruriliyini vurğuladı.

Münaqişə nəticəsində Azərbaycanın ərazisinin 20 faizinin hələ də işğal altında qaldığına, bir milyondan çox soydaşımızın çadır şəhərciklərində ağır vəziyyətdə yaşadıqlarına görüş iştirakçılarının diqqətini cəlb edən Prezident Heydər Əliyev bu münaqişənin tezliklə həlli üçün hər cür səylər göstərilməsini xahiş etdi.

Azərbaycan Prezidenti 1992-ci ildən fəaliyyət göstərən Minsk qrupunun müəyyən iş apardığını, lakin hələ hər hansı bir nəticə əldə olunmadı-



ğını təəssüf hissi ilə nəzərə çarpdırdı.

Azərbaycan və Ermənistan prezidentlərinin ikitərəfli görüşlərinin gedişindən söhbət açan dövlətimizin başçısı belə görüşlərin davam etdirilməsi ilə yanaşı Minsk qrupu həmsədrlərinin fəaliyyətinin daha da gücləndirilməsi zəruriliyini qeyd etdi.

Azərbaycan Prezidenti Heydər Əliyev görüşdə iştirak edən xarici işlər nazirlərinin öz ölkələrinin həm ATƏT-in Minsk qrupu çərçivəsində, həm də ayrı-ayrılıqda münaqişənin həlli üçün səylər göstərməyə hazır olduqlarını bəyan etməsindən məmnun qaldığını bildirdi.

Ermənistan Prezidenti Robert Koçaryan bu görüşün təşkilinə və regionda sülh yaradılmasına göstərilən marağa görə iştirakçılara təşəkkür etdi. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün iki ölkə prezidentlərinin birbaşa görüşləri-



nin əhəmiyyətini vurğulayaraq ATƏT-in vasitəçilik missiyasının da vacibliyini nəzərə çarpdırdı.

ATƏT-in icraçı sədri, Norveçin xarici işlər naziri Knut Vollebek Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində həlli sahəsində atılan addımları, atəşkəs rejiminə əməl olunmasını, iki ölkə başçısı arasında aparılan dialoqu yüksək qiymətləndirdiyini vurğuladı.

Görüşə yekun vuran cənab Huber Vedrin geniş fikir mübadiləsinə görə görüş iştirakçılarına təşəkkür etdi və münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün beynəlxalq birliyin, ATƏT-in öz səylərini artırmağa hazır olduğunu bildirdi.



# Azərbaycan Prezidenti Heydər Əliyevin Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşü





Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 19-da İstanbulda Avropa Komissiyasının sədri Romano Prodi[19] ilə görüşmüşdür.

Mehribancasına salamlaşan Azərbaycan Prezidenti Heydər Əliyev və Avropa Komissiyasının sədri Romano Prodi bu görüşdən şad olduqlarını bildirdilər.

Avropa Komissiyasının Sədri seçilməsi münasibətilə Romano Prodini ürəkdən təbrik edən Prezident Heydər Əliyev Avropa Birliyinin strukturları ilə ölkəmiz arasında əlaqələrinin genişlənməsinə və sıx əməkdaşlığa böyük əhəmiyyət verdiyini nəzərə çarpdırdı.

Tarixi İpək yolunun bərpası və TRASEKA proqramları üzrə əməkdaşlığın genişlənməsindən razılıq hissi ilə söz açan dövlətimizin başçısı Heydər Əliyev Avropa ilə Asiya arasında nəqliyyat kommunikasiyalarının inkişafında bu layihələrin xüsusi rol oynadığını vurğuladı.

Avropa Birliyinin humanitar və texniki yardımlarını minnətdarlıq hissi ilə qeyd edən Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğaldan azad edilmiş rayonlarımızın bərpasında Avropa Komissiyasının TASİS proqramı çərçivəsində köməyini yüksək qiymətləndirdiyini, Romano Prodinin rəhbərliyi ilə bu proqramların müvəffəqiyyətlə davam etdiriləcəyinə əmin olduğunu bildirdi.

Avropa Komissiyasının Sədri seçilməsi münasibətilə səmimi təbriklərinə görə Azərbaycan Prezidenti Heydər Əliyevə təşəkkür edən cənab Romano Prodi Avropa Birliyinin ölkəmizlə əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğuladı və Avropa strukturlarının Cənubi Qafqaz regionu ilə təkcə iqtisadi əlaqələrə deyil, bütün sahələrdə hərtərəfli əməkdaşlığa maraq göstərdiyini nəzərə çarpdırdı.

Cənab Romano Prodi Böyük Tarixi İpək yolunun bərpasına dair 1998-ci ilin sentyabrında Bakıda keçirilmiş beynəlxalq konfransı yüksək qiymətləndirərək regionun inkişaf strategiyasının müəyyən edilməsində bu tədbirin əhəmiyyət daşıdığını xüsusi vurğuladı.

Müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycan Respublikasında demokratikləşmə prosesinin və islahatların uğurla həyata keçirilməsindən bəhs edən Prezident Heydər Əliyev Xəzərin enerji ehtiyatlarının istifadəyə verilməsi və nəqli sahəsində görülən işlərdən, ölkəmizin bu layihələrin təşəbbüskarı olduğundan, 1994-cü ildə Bakıda böyük səylər hesabına imzalanmış "Əsrin müqaviləsi" adlanan ilk neft müqaviləsinin sonrakı genişmiqyaslı neft layihələrinin həyata keçirilməsində əhəmiyyətindən danışdı.

Xəzər neftinin dünya bazarlarına çıxarılması üçün Bakı-Novorossiysk kəməri ilə yanaşı, bu ilin aprel ayında Bakı-Supsa boru xəttinin də istifadəyə verilməsini qeyd edən Prezident Heydər Əliyev neft nəqlinin etibarlılığının təmin edilməsi üçün əsas ixrac boru kəməri kimi Bakı-Tbilisi-Ceyhan xəttinin inşası barədə İstanbulda imzalanmış sənədlərin böyük tarixi əhəmiyyətini vurğuladı və bu yolda qarşıya çıxan maneələrdən, ölkəmizə göstərilən təzyiqlərdən, region dövlətlərində qeyri-sabitlik yaratmaq cəhdlərindən ətraflı söhbət açdı. Azərbaycan Prezidenti bütün bu çətinliklərə baxmayaraq Bakı-Tbilisi-Ceyhan kəmərinin inşasının reallaşmasından məmnunluq duyduğunu vurğuladı.

Dövlətimizin başçısı Heydər Əliyev Xəzərin zəngin enerji ehtiyatlarının hasilatında ölkəmizin xarici şirkətlərlə geniş əməkdaşlığından danışaraq, karbohidrogen yataqlarının işlənməsində İtaliyanın "ENİ-ACİP" şirkətinin də fəal iştirakını məmnuniyyət hissi ilə qeyd etdi.

Müstəqillik yolu ilə irəliləyən Azərbaycan dövlətinin qarşılaşdığı ən böyük problem olan Dağlıq Qarabağ münaqişəsindən söz açan Prezident Heydər Əliyev bu münaqişənin 12 ildən bəri davam etdiyini, erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan torpaqlarının beşdə bir hissəsinin işğal olunduğunu, bir milyon soydaşımızın qaçqın vəziyyətinə düşərək çadır şəhərciklərində ağır şəraitdə yaşadığını bildirdi. Prezident Heydər Əliyev bütün bunlara baxmayaraq ölkəmizin Ermənistan-Azərbaycanın münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olduğunu bir daha təsdiqlədi. Beş ildən bəri atəşkəs rejiminə əməl edildiyini xatırladan dövlətimizin başçısı ATƏT-in Minsk qrupunun 1992-ci ildən fəaliyyət göstərdiyini, lakin arzu etdiyimiz nəticələrin hələ də əldə olunmadığını nəzərə çarpdırdı.





Azərbaycan və Ermənistan prezidentləri arasında son vaxtlar bir neçə görüş keçirildiyini bildirən Prezident Heydər Əliyev münaqişəni nizamasalma prosesinin eyni zamanda ATƏT-in Minsk qrupu çərçivəsində davam etdirilməsinin zəruriliyini vurğuladı.

Azərbaycan Prezidenti Heydər Əliyev dedi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində və onun nəticələrinin aradan qaldırılmasında ölkəmiz beynəlxalq birliyin köməyinə ümid bəsləyir.

Xəzər dənizinin enerji ehtiyatlarının və dünya bazarlarına nəqlinin əhəmiyyətini yüksək dəyərləndirən cənab Romano Prodi Bakı-Ceyhan əsas ixrac boru kəmərinin inşası ilə bağlı sənədlərin imzalanması münasibətilə dövlətimizin başçısını səmimi qəlbdən təbrik etdi.

Azərbaycan ilə Avropa Birliyi arasında tərəfdaşlığın və əməkdaşlığın inkişafı üçün geniş perspektivlər açıldığını, rəhbərlik etdiyi təşkilatın bölgədə sülh və sabitlik yaranmasına hər cür kömək göstərməyə hazır olduğunu nəzərə çarpdıran cənab Romano Prodi bu görüşdən və maraqlı söhbətdən məmnun qaldığını bildirdi.

Görüş səmimiyyət və qarşılıqlı anlaşma şəraitində keçdi.

# Azərbaycan Prezidenti Heydər Əliyevin ATƏT-in Parlament Assambleyasının sədri Helle Den ilə görüşü





ATƏT-in İstanbul Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 19-da "Çırağan sarayı"nda ATƏT-in Parlament Assambleyasının sədri xanım Helle Den ilə görüşdü.

Xanım Helle Deni mehribanlıqla salamlayan və ATƏT-in zirvə görüşünün yüksək səviyyədə keçməsi, uğurla başa çatması münasibətilə onu səmimi qəlbdən təbrik edən dövlətimizin başçısı Heydər Əliyev İstanbul sammitində qəbul olunmuş sənədləri yüksək qiymətləndirdi.

Səmimi sözlər və onunla görüşə vaxt ayırdığı üçün Azərbaycan Prezidentinə minnətdarlığını bildirən xanım Helle Den İstanbul sammitinin keçirildiyi günlərdə nail olduğu müvəfəqiyyətlərə görə dövlətimizin başçısı Heydər Əliyevi ürəkdən təbrik etdi.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün aparılan birbaşa danışıqlardan razılıqla bəhs edən xanım Helli Den belə danışıqları müsbət qiymətləndirdi.

Gələn ilin aprel ayında Azərbaycana səfər etmək niyyətində olduğunu bildirən Parlament Assambleyasının sədri ATƏT-in İstanbul zirvə görüşündə Azərbaycan Prezidentinin nitqini böyük diqqətlə dinlədiyini və maraqla qarşıladıqını nəzərə çarpdırdı. Prezident Heydər Əliyevin dərin məzmunlu nitqində qaldırdığı məsələləri və irəli sürdüyü təklifləri yüksək dəyərləndirən xanım Helle Den Bakıda dövlətimizin başçısı ilə bu barədə ətraflı söhbət edəcəyini bildirdi.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə ATƏT-in Parlament Assambleyasının çox böyük maraq göstərdiyini vurğulayan xanım Helle Den dedi: cənab Prezident, biz münaqişənin tezliklə həll olunması sahəsində Sizə hər cür yardım göstərməyə, dəstək verməyə hazırıq.

Xanım Helle Denə dərin təşəkkürünü bildirən dövlətimizin başçısı Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması üçün yeddi il bundan əvvəl yaradılmış ATƏT-in Minsk qrupu çərçivəsində görülmüş işlərdən danışaraq, indiyə qədər bir nəticə əldə edilməməsindən təəssüfləndiyini vurğuladı.

Azərbaycan və Ermənistan prezidentiləri arasında son vaxtlar keçirilmiş birbaşa danışıqlardan bəhs edən respublikamızın rəhbəri Heydər Əliyev münaqişənin sülh yolu ilə həllində ATƏT-in köməyinə çox böyük ehtiyac duyulduğunu nəzərə çarpdırdı.

ABŞ Prezidenti Bill Klintonla, Fransa Prezidenti Jak Şirakla, Almaniya Kansleri Herhad Şröderlə, ATƏT-in icraçı sədri

Knut Vollebeklə, Norveçin Baş naziri Kiyel Maqne Bondeviklə keçirdiyi görüşlərdə bu barədə ətraflı fikir mübadiləsi apardığını bildirən Prezident Heydər Əliyev ATƏT-in Parlament Assambleyasının da bu məsələyə yaxından kömək göstərməsinin vacib olduğunu bəyan etdi.

Xanım Helle Denin gələn ilin aprel ayında ölkəmizə səfər etmək niyyətini məmnunluqla qarşılayan Azərbaycan Prezidenti ATƏT-in Parlament Assambleyasının sədri ilə ölkəmizdə bir çox məsələlər barədə ətraflı söhbət aparacağına əmin olduğunu bildirdi.

Həmin səfərə qədər Ermənistan-Azərbaycan münaqişəsinin həlli barədə danışıqlar prosesinin davam edəcəyini vurğulayan dövlətimizin başçısı bu prosesə ATƏT-in Parlament Assambleyasının da təsir göstərməsinin





zəruri olduğunu nəzərə çarpdırdı.

Prezident Heydər Əliyevin fikirləri ilə həmrəy olduğunu bildirən xanım Helle Den dedi ki, ATƏT-in Parlament Assambleyası bu prosesi irəli aparmaq üçün hər cür yardım göstərməyə hazırdır. O bildirdi ki, Parlament Assambleyası sülh prosesini dəstəkləmək üçün bütün vasitələrdən istifadə edəcəkdir.

Hökumətlərin bir-biri ilə danışıq apara bilmədiyi bir sıra məsələlərin həllinə Parlament Assambleyasının və onun üzvlərinin kömək etmək iqtidarında olduğunu söyləyən xanım Helle Den ATƏT-in Parlament Assambleyasının sülh prosesinə təsir göstərməsinin vacibliyi barədə Azərbaycan Prezidenti Heydər Əliyevin fikrini bir daha yüksək dəyərləndirdi.

Prezident Heydər Əliyev ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçıları ilə İstanbulda keçirdiyi çoxsaylı görüşlərdən məmnunluqla söhbət açan xanım Helle Den ATƏT-in parlament Assambleyasının tədbirlərində iştirak edən Azərbaycan Parlamenti üzvlərinin həmin görüşlərdə bu mövzuda geniş məlumat verməsinin vacibliyini vurğuladı.

Xanım Helle Denin fikri ilə şərik olduğunu nəzərə çarpdıran dövlətimizin başçısı Azərbaycan parlamenti deputatlarının belə tədbirlərdə bundan sonra da fəal iştirak edəcəyini bildirdi.

ATƏT-in Parlament Assambleyasının sədri Helle Den Prezident Heydər Əliyevə qarşıdakı işlərində yeni-yeni uğurlar arzuladı və respublikamızın rəhbəri ilə Bakıdakı görüşünü səbirsizliklə gözləyəcəyini bəyan etdi.

Dövlətimizin başçısı Heydər Əliyev də xanım Helle Denə uğurlar dilədi və onu Azərbaycanda səbirsizliklə gözləyəcəyini bildirdi.





# İSTANBUL SAMMİTİ MÜSTƏQİL AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ YENİ UĞURDUR

*Azərbaycan Prezidenti Heydər Əliyevin İstanbula səfəri başa çatdı*

*Azərbaycan Prezidenti Heydər Əliyevin Binə hava limanında jurnalistlərlə görüşü*

*Prezident sarayında respublika ictimaiyyəti nümayəndələrinin ATƏT-in İstanbul Zirvə görüşünün yekunlarına həsr olunmuş toplantısı*





# Azərbaycan Prezidenti Heydər Əliyevin İstanbula səfəri başa çatdı

ATƏT üzvü olan ölkələrin və hökumət başçılarının İstanbul Zirvə görüşündə iştirak etmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə səfəri noyabrın 20-də başa çatdı.

İstanbul şəhərinin Atatürk hava limanında respublikamızın rəhbərini Türkiyənin dövlət və hökumət nümayəndələri mehribanlıqla, səmimiyyətlə yola saldılar.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbuldan Bakıya qayıdarkən təyyarədə jurnalistlərlə görüşdü.

Dövlətimizin başçısı Heydər Əliyev dedi:

- Mənə çatdırdılar ki, siz təyyarədə mənimlə görüşmək, sammitdə və ümümiyyətlə İstanbulda baş vermiş böyük beynəlxalq hadisələr haqqında qısa məlumat almaq istəyirsiniz.

Təbiidir ki, vaxt çox azdır, çox şeyi demək olmaz. Ancaq ona bildirmək istəyirəm ki, həqiqətən bu, bəşər tarixə daxil olacaq bir hadisədir. Çünki XX əsrin sonunda bu qədər geniş əhəmiyyətli beynəlxalq toplantı, sammit keçirilir. Güman edirəm ki, XX əsrin sonuna qədər belə bir şey artıq olmayacaqdır.

Bunun ən böyük əhəmiyyəti ondan ibarətdir ki, bu, ATƏT-in sammitidir, zirvə görüşüdür. Gördüyünüz kimi, oraya çox yüksək səviyyəli nümayəndə heyətləri - prezidentlər, baş nazirlər və bir çox beynəlxalq təşkilatların nümayəndələri gəlmişdilər.

Siz müzakirələri gördünüz. Amma nəticə bundan ibarətdir: birincisi, xartiya qəbul olundu. 1975-ci ildə Helsinkidə qəbul olunan sənədlərdən sonra 1990-cı ildə Paris xartiyası qəbul edilmişdir. Bu isə ATƏT-in 25 illik tarixində üçüncü belə sənəddir, İstanbul xartiyasıdır. Bu xartiyanın çox böyük mənası, əhəmiyyəti vardır. Yəni Avropada təhlükəsizliyin, sülhün, əmin-amanlığın təmin edilməsi üçün bu xartiyada çox lazımlı maddələr - indiki reallıq, yəni Paris xartiyasından sonra baş vermiş hadisələr və onlara olan münasibət əks olunubdur. Yenə də deyirəm, burada xarti-

yanın əsas məğzi olan məsələlər - ölkənin bütövlüyünün, müstəqilliyinin qorunması, təhlükəsizliyin təmin olunması, sülhün möhkəmləndirilməsi, insan haqlarının qorunması, demokratiyanın inkişaf etdirilməsi və başqa məsələlər öz əksini tapıbdır.

Ona görə də bu xartiya üzərində çox iş getdi.Biz də Azərbaycanın mənafelərini gələcəkdə təmin etmək üçün xartiyanın üzərində öz səylərimizi göstərdik və təkliflərimizi həyata keçirə bildik. Şübhəsiz ki, siz onu oxuyanda tapa bilməzsiniz ki, orada hansı cümlə kimə aiddir. Amma biz bilirik ki, orada cümlələr üzərində çalışmışıq və onların qəbul edilməsinə nail olmuşuq.

Mən ümumiyyətlə bu xartiyadan çox məmnunan və hamı bundan məmnundur. Mən bunu ATƏT-in fəaliyyətinin böyük nailiyyəti kimi qiy-





mətləndirirəm və onun Azərbaycan xalqı üçün də çox böyük əhəmiyyəti olduğunu bildirmək istəyirəm.

Bilirsiniz ki, ondan sonra siyasi bəyannamə qəbul olundu. Sammitin gedişində müzakirə edilən məsələlər bu sənəddə əksini tapıbdır. Orada ümumi məsələlər vardır . Amma konkret məsələlər Avropa qitəsinin ayrı-ayrı ölkələrindəki münaqişələrə- Bosniya və Herseqovina, Yuqoslaviya, Dnestryanı, Ermənistan-Azərbaycan, Gürcüstan və başqa münaqişələrə, onlara münasibətə aiddir. Hesab edirəm ki, orada Azərbaycan haqqında yazılmış maddə - 20-ci maddə bu günün reallığını əks etdirir və biz bundan məmnunuq.

Keçən sammitdə biz vuruşduq, çarpışdıq və konsensus olmadığına görə yekun sənədinə maddə düşmədi. Bunun nəticəsində biz ATƏT sədrinin bəyanatını aldıq. Amma biz istədiklərimizin hamısı orada öz əksini tapdı. Bu dəfəki sammitin bəyannaməsində isə maddə var. Hesab edirəm ki, reallığa görə biz bu maddəni qəbul edirik. Yəni bizim buna etirazımız yoxdur və həmin maddənin formalaşdırılması üzərində özümüz işləmişik.

İkinci ən böyük hadisə Avropada adi silahlar haqqında qəbul olunmuş, artıq imzalanmış müqavilədir. Mən yazıçılarla, şairlərlə bu yaxınlarda keçirdiyim görüşdə bu barədə ilk dəfə danışmışdım. Əvvəllər heç vaxt mən bunu mətbuata verməmişdim. Ancaq bilirsiniz ki, 1990-cı ildə Varşava paktı ilə NATO arasında adi silahlar haqqında müqavilə qəbul edilmişdi, NATO-nun hansı ölkələrdə nə qədər adi silah saxlaması və Varşava paktının hansı ölkələrdə nə qədər silah saxlaması müəyyən olmuşdu. Sovet İttifaqı, Varşava paktı dağıldı. Bilirsiniz ki, 1992-ci ildə bu məsələyə yenidən baxıldı. Rusiya başçılıq etdi, MDB ölkələrinin başçılarını 1992-ci il mayın 14-15-də Daşkənddə topladı. Keçmiş Sovetlər İttifaqına daxil olmuş ölkələrin orada kvotaları müəyyən edildi.

Mən demişəm, bir də təkrar edirəm: Müsavat və başqa təşkilatlar Mütəllibov hakimiyyəti ilə hakimiyyət uğrunda mübarizə apardı. Mütəllibov istefa verdi, bundan sonra tərəfdarları onu yenidən hakimiyyətə

qaytarmağa çalışdılar və bir günlük qaytardılar. Xalq ayağa qalxdı. Bundan istifadə edən Xalq Cəbhəsi, Müsavat və onlarla birlikdə olan başqa təşkilatlar burada boğuşan zaman, may ayında bu məsələlər həll edilirdi. Azərbaycan bizim ekspertlər tərəfindən əvvəlcədən hazırlanmış təklifləri - Cənubi Qafqazda Azərbaycanın kvotası Gürcüstanla, Ermənistanla bərabər ola bilməz - orada həyata keçirə bilmədi. Çünki oraya Rəhim Qazıyev getmişdi. O, həm Xalq Cəbhəsinin, həm də Mütəllibovun nümayəndəsi idi. Oraya gedənlərdən biri də Əzizbəyov idi. Əzizbəyov o vaxt Nazirlər Soveti sədrinin müavini idi, heç bir siyasi hüquqa, yəni siyasi biliyə malik olan adam deyildi. Oraya bir də Abbas Abbasov getmişdi. İndi o, izah edir ki, o, elə bunları müşayiət edirdi. Təəsüf ki, belə hallarda o, müşaiyət etmək işləri ilə vaxtılə çox məşğul olubdur. Ancaq o vaxt Azərbaycana xəyanət edilibdir. Çünki Rəhim Qazıyev Qraçovla sövdələşmişdilər, Ermənistana, Azərbaycana, Gürcüstana eyni kvota müəyyən olunmuşdu - 220 tank, 220 BMP, nə bilim, nə qədər təyyarə, nə qədər top və filan.

Biz 4 ildir bunun qarşısını alırdıq. Bax, bu müqaviləni imzalamağa amerikalılar daha çox tərəfdar idilər. Çünki amerikalılar bunu yenidən imzalamadığı halda Rusiya nəzarətsizlikdən istifadə edərək silahları yayırdı. Amma biz müqaviləyə razılıq verməyə məcbur olduq və o imzalandı. Bizim kvotamız əvvəl təyin olunduğu kimi qaldı. Təəsüflər olsun ki, Ermənistanın da öz kvotası var, bundan əlavə, Rusiyanın orada təxminən 170 tankı, hərbi maşınları və sair vardır. Nəzarətdə olmayan bir region kimi Dağlıq Qarabağda olan silahlar bu müqaviləyə düşmür.

Mən bunu elan etmişəm. Biz amerikalılara həmişə demişik ki, bunu uçota almaq lazımdır. Onlar deyirlər ki, onda ya gərək Dağlıq Qarabağ bu müqavilənin subyekti olduğuna imza atsın, yaxud da ki, sizin ərazidir - bu, sizin üstünüzə yazıla bilər. Yaxud, siz deyirsiniz, bu silahlar Ermənistanındır, onda siz etiraf edin ki, bu, Ermənistanındır, bunu Ermənistanın üzərinə yazaq. Biz çıxılmaz vəziyyətdə idik. Ona görə də biz artıq müqavimət göstərmədik, bu müqavilə də imzalandı. Bu, sammitin ilk müqaviləsi idi. Ancaq onun əsas nəticəsi, orada olan mühit, işgüzarlıq, hesab edirəm ki, XX əsrin sonunda dünyada gedən dəyişiklikləri əks etdirir.

Mən bu sammitdən çox məmnunam. Hesab edirəm ki, mənim 1994-cü ildə Budapeştdə, 1996-cı ildə Lissabonda iştirak etdiyim sammitlərə nisbətən bu, öz məzmununa, qəbul olunan sənədlərə görə çox yüksək səviyyəli sammit idi. Qardaş Türkiyənin bu sammitin ev sahibi olması və bu sammitin İstanbul sammiti, orada qəbul edilən əsas sənədlərdən birinin İstanbul xartiyası adlanması və bu toplantının Türkiyədə keçirilməsi şübhəsiz ki, bizim üçün iftixar hissidir. Türkiyə nəyə qadir olduğunu dünyaya bir daha göstərdi. Əvvəlki sammitlərdə siz də olmusunuz. Demək istəyirəm ki, burada sammitin işi üçün yaradılmış şərait hamısından yüksək idi. "Çırağan sarayı" bunun üçün nə qədər uyğun bir yer idi.



Xatirimdədir, Lissabonda bizim üçün taxtadan ayrı-ayrı otaqlar ayırmışdılar, bu otaqda danışanı o birisi eşidirdi və gedib danışırdı. Ancaq burada çox gözəl şərait yaradılmışdı. Əlbəttə ki, bu da mənim üçün çox əhəmiyyətlidir. Çünki mən istəyirəm ki, qardaş Türkiyə bildirsin, dünyaya göstərsin, o, həqiqətən nəyə qadirdir, nə edə bilər.

Təbiidir ki, Türkiyə bizim üçün qardaş, dost ölkə olduğu üçün Prezident Klintonun beş gündən artıq Türkiyədə olması, həm Türkiyəni, həm bu ölkənin bəzi tarixi yerlərini ziyarət etməsi, həm də sammitdə fəal iştirakı - təkcə Klintonun yox, dünyanın başqa böyük dövlətlərinin başçılarının da fəal iştirakı - bizi çox sevindirir. Dünən axşam Süleyman Dəmirəllə biz bir yerdə yemək yeyirdik. Bilirsiniz ki, mən artıq hava limanına gəlirdim, siz də hava limanında idiniz. O, mənə telefon edərək dedi ki, mən Klintonu bu dəqiqə yola saldım, ancaq səninlə görüşmək istəyirəm. Dedim ki, mən yol üstəyəm. Soruşdu ki, nədir? Dedim ki, təyyarə artıq uçmağa hazırdı. Bildirdi ki, təyyarə sənin təyyarəndi? Dedim ki, bəli. Dedi ki, əmr elə, qoy sabah uçsun. Mən də bunu etdim. Biz axşam görüşdük, bir yerdə ailəvi yemək yedik, həm sammitin yekunları, həm də Bakı - Ceyhan boru kəməri haqqında ətraflı söhbət etdik.

Burada bizim üçün, Türkiyə üçün və bütün dünya üçün baş verən ən tarixi hadisə Bakı-Ceyhan neft kəməri müqaviləsinin imzalanması mərasimidir. Bu imzalanma mərasiminin bu qədər yüksək səviyyədə, bu qədər möhtəşəm, əzəmətli şəraitdə keçməsi, şübhəsiz ki, Bakı-Ceyhan kəmərinin nə qədər əhəmiyyətli olduğunu bildirir.

Bilirsiniz, orada bir neçə sənəd, dövlətlərarası sənədlər imzalandı. Azərbaycan - Türkiyə - Gürcüstan sənədi Bakı-Ceyhan boru xətti haqqında. Bundan əlavə, bəyannamə imzalandı. O bəyannaməyə həm Klinton, həm də Nazarbayev imza atdılar, yəni bizdən başqa, bu dövlətlər - Amerika da, Qazaxstan da, - bir halda ki, o, bu boru xətti ilə neft keçirmək istəyir, - bu layihənin həyata keçirilməsi üçün üzərlərinə öhdəliklər götürürlər. Bu da çox böyük hadisədir. Başqa sənədlər də imzalandı, onları bizim şirkətlər imzaladılar. Böyük bir paket imzalandı. Bu, tarixi hadisədir.

Siz orada mənim çıxışımı eşitdiniz. Biz beş ildir çalışırıq. Təbiidir ki, hamı bilir bunun əsasını biz qoymuşuq. Əgər biz "Əsrin müqaviləsi"ni imzalamasaydıq, Bakı-Ceyhan haqqında söhbət ola bilməzdi. "Əsrin mü-

qaviləsi"ni imzaladıq, onu həyata keçirdik, neft hasil etdik. Hamı, dünya inandı ki, Xəzərdə neft var və çoxdur, Azərbaycanın nefti həddindən artıq çoxdur. Ona görə də belə bir baha qiymətli kəmərin tikilməsi üçün qərar qəbul olundu. Bu asan məsələ deyil. Beş ildir biz bundan ötrü çalışırıq. Mən özüm bu barədə nə qədər işlər görmüşəm, onu dünən dedim. Hər dəfə Türkiyəyə gələndə bunu məndən soruşurdular, - heç kəsdən yox, - Bakı-Ceyhan nə vaxt olacaq? Mən də dedim, oldu!

Mən çox şadam. Çünki bu gün həm Azərbaycanın hörmətini qaldırdıq, həm Türkiyənin hörmətini qaldırdıq, həm də dünyaya sübut etdik ki, bəli, Azərbaycanın bəyan etdiyi neft ehtiyatları Xəzər dənizində, xüsusən Azərbaycan sektorunda var və ondan da artıqdır.

Bilirsiniz ki, sonra Türkmənistan qazının nəqli haqqında da müqavilə imzalandı. Hesab edirəm, bu da çox əhəmiyyətli bir haldı. Çünki beş-altı ildir ki, Türkmənistan öz qazını haradan keçirmək barədə çalışır. İrandan





keçirmək istədi və Türkiyə ilə müqaviləsi vardı. Amma bu, mümkün olmadı. Sonra bir layihəsi var idi ki, Əfqanıstan vasitəsi ilə Pakistana keçirilsin. Üç-dörd il bundan əvvəl Amerikanın "Yunokal" şirkətinin nümayəndəsi mənə dedi ki, biz layihə hazırlamaq istəyirik. Mən dedim ki, siz əcəb işlə məşğul olursunuz. Soruşdular ki, nə üçün? Dedim ki, bu, mümkün deyildir, - sadəcə, vəziyyəti anlamırsınız. Amma bir-iki ildən sonra mənimlə yenidən görüşəndə etiraf etdi ki, siz düz deyirsiniz. Ona görə də Türkmənistan qazı satmaq üçün yol axtarırdı. Buradan da keçməsini həm istəyirdi, həm də istəmirdi. Ancaq indi gördü ki, başqa yol yoxdur. Şübhəsiz ki, Amerika Birləşmiş Ştatları da onlara həm təsir etdi, həm də dəstək verdi. Qaz kəmərinin çəkilməsi haqqında sənədi də Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə imzaladılar.

Amma eyni zamanda biz ayrıca bir memorandum da imzaladıq. Birinci imzalanmış sənəddə deyilir ki, gələcəkdə Azərbaycanın qazı da bu kəmərdən keçəcəkdir. Amma əlavə bir memorandum da imzaladıq ki,Türkiyə öhdəlik götürür ki, gələcəkdə Azərbaycanın nə qədər qazı olsa, onu alacaq və təkcə özü üçün yox, Avropaya da çıxaracaqdır. Bu da çox böyük hadisədir. Ona görə də mən hesab edirəm ki, biz böyük qələbələrlə geriyə dönürük. Bizim millətimiz, xalqımız, ölkəmiz sevinməlidir ki, belə böyük nailiyyətlər əldə etmişik.

Mən bu sammiti və Bakı-Ceyhan layihəsinin, Xəzər qaz layihəsinin Türkiyədə, İstanbulda imzalanmasını bir daha xüsusi qeyd edirəm. Türk xalqı kimi, Azərbaycan xalqı buna sevinir. Ona görə də dünən axşam əziz dostum Süleyman Dəmirəllə bir yerdə keçirdik və bu nailiyyətləri bir yerdə qeyd etdik. Mənim sizə deyəcəyim sözlər budur.

**Jurnalist:** Biz dünən bütün axşamı, gecəni İstanbulu gəzdik. Siz görəydiniz ki, hamı bizi necə hərarətlə qarşılayırdı. Ən sadə türk adamları küçələrdə, mağazalarda, restoranda Bakı-Ceyhan haqqında ağızdolusu danışır, sevinirdilər. Mən ömrümdə belə şey görməmişdim. Özü də türk xalqı o qədər də siyasiləşmiş xalq deyildir. Amma aşağıdan yuxarıya qədər hamı bu hadisəni müzakirə edirdi. Hamı deyirdi ki, bunu Heydər Əliyev edibdir.

**Heydər Əliyev:** Bəli, hamı da bunu bilir. Ona görə də, Türkiyədə Azərbaycana və şəxsən Azərbaycanın Prezidenti Heydər Əliyevə həmişə çox böyük məhəbbət olubdur. Amma Bakı-Ceyhana görə bu məhəbbət həddindən artıqdır.

**Jurnalist:** Özü də inanmırdılar ki, bu layihə barədə saziş imzalana-



caqdır.

**Heydər Əliyev:** Bəli, bəli, inanmırdılar.

**Jurnalist:** Viktor Kalyujnı bəyanat verib ki, bu neft kəməri iqtisadi baxımdan sərfəli deyil, siyasi mülahizələrə əsaslanır.

**Jurnalist:** Xahiş edirik ikitərəfli görüşləriniz barədə danışasınız.

**Heydər Əliyev:** İkitərəfli görüşlərim də çox oldu və bunlar çox da səmərəli oldu. Prezident Klintonla çox gözəl görüşümüz, danışıqlarımız oldu. Bütün məsələlər haqqında, o cümlədən də, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barəsində danışdıq. Prezident Şirakla çox gözəl görüşümüz və danışıqlarımız oldu. Almaniyanın Kansleri Şröderlə görüşüm oldu. Bilirsiniz ki, mən bizdə olan bir-iki rəsm əsərini təqdim etdim. On iki əsərdən ikisi bizdədir, qalanları Nyu-Yorkda saxlanılıb. Mən ona təsdiq etdim ki, bunlar da sizinkidir. Başqa əlaqələrimiz haqqında, Ermənistan-Azərbaycan münaqişəsi barədə danışdıq.

Bütün bu görüşlərdə Ermənistan-Azərbaycan münaqişəsi, Azərbaycanın düşdüyü vəziyyət və bu məsələnin sülh yolu ilə həll edilməsi mövzusu birinci yer tuturdu. Mənim apardığım danışıqların hamısını bilirsiniz,



bunları sadalamaq istəmirəm. Mən bunların hamısını çox uğurlu hesab edirəm. Bir də, güman edirəm ki, siz mənim sammitdəki çıxışıma diqqətlə baxmısınız. Mən çox sərt çıxış etdim, amma eyni zamanda konstruktiv çıxış idi. Konstruktivliyi də ondan ibarətdir ki, Cənubi Qafqazda sülh və təhlükəsizliyin yaranması üçün paktın hazırlanmasını təklif etdim. Həm Amerika Birləşmiş Ştatlarını, həm Avropa Birliyini, həm Türkiyəni, həm Gürcüstanı, həm Ermənistanı, həm ATƏT-in bu işdə marağı olan başqa ölkələrini dəvət etdim ki, bu paktın hazırlanıb bağlanması üçün səylərini göstərsinlər. Amma şərtlər qoydum. Şərtlər də ondan ibarətdir ki, Cənubi Qafqazdan bütün silahlar çıxarılmalıdır, ayırıcı xətlər olmamalıdır, təhlükəsizlik təmin edilməli, terrorizm, etnik təmizləmə, separatizm aradan qaldırılmalı, ikili standartlara, baş vermiş faktlar əsasında hərəkətlərə yol verilməməlidir. Bunlar çox ciddi məsələlərdir. Mən bunları qaldırdım və hesab edirəm ki, ATƏT-in üzvlərinin əksəriyyətini Azərbaycanın bu təklifinə cəlb etdik. Bu da çox böyük hadisədir.

Dağlıq Qarabağ haqqında da kəskin mövqeyimi bir daha bildirdim,



Minsk qrupunu tənqid etdim. Amma Ermənistan prezidenti ilə danışıqlarımızı da müsbət qiymətləndirdim. Mən bu gün də belə fikirdəyəm. Hesab edirəm ki, bu danışıqlar davam edəcəkdir. İndi həm Minsk qrupu işləyəcək, həm də bu danışıqlar davam edəcək ki, məsələni sülh yolu ilə həll edək.

**Jurnalist:** Deyəsən, birgə bəyanat olmalı idi.

**Heydər Əliyev:** Birgə bəyanat yox. Ancaq biz, Amerikanın xarici işlər naziri xanım Olbrayt, Fransanın xarici işlər naziri Vedrin, Rusiyanın xarici işlər naziri İvanov, - bir də Ermənistan Prezidenti və Azərbaycan Prezidenti Minsk qrupunun fəaliyyətini gücləndirmək üçün görüş keçirib müzakirə apardıq. Mən Minsk qrupunun fəaliyyətsizliyini üzlərinə dedim və tələb etdim ki, Minsk qrupu fəaliyyətini artırsın. Onlar da söz verdilər ki, artıracaqlar.

Yəni Azərbaycanın mənafelərini təmin etmək üçün qısa bir müddətdə nə mümkündürsə, mən etdim. Daha bir sözünüz var?

İndi gedin o ağlayanlara, qara yaylıq bağlayanlara, sonra "yürüş edənlərə" deyin ki, onları İstanbul küçələrində görmədik. Onlar harada idilər? Gəlib burada nümayiş keçirmək istəyirdilər. Siz bilirsiniz ki, biz Klinton qalan oteldə yaşayırdıq, Həmin oteldə təkcə Klinton yaşayırdı, bir də Azərbaycan Prezidenti. Biz orada yaşayırdıq. Siz də oraya gəlib-gedirdiniz, hamınızın imkanı vardı. Yəqin ki, elə bunun özü də Azərbaycana və Azərbaycan Prezidentinə göstərilən münasibətdir.

**Jurnalist:** İmzalanma zamanı deyirdilər ki, Klinton gəlməyəcək, olmayacaq, onu burada gözləməyin, onun nümayəndəsi gələcəkdir. Dedik ki, axı o, Heydər Əliyevə söz vermişdir, məktubunda da yazmışdır ki, İstanbula şəxsən gələcəkdir. Amma o gələndə hamı rahat oldu.

**Heydər Əliyev:** Əlbəttə, onun bayrağı orada idi, belə şey ola bilməzdi. O, bu işə çox maraqlı bir şəxsdir, bu məsələnin həll olunması üçün şəxsən çox işlər görübdür. Mən bunu orada öz çıxışımda qeyd etdim, siz eşitdiniz. Sonra onunla təkbətək görüşümdə də xidmətlərini qeyd etdim. Biz çalışdıq, çox işlər gördük. Amma Amerika Birləşmiş Ştatlarının, şəxsən Bill Klintonun bu işə daimi dəstəyi olmasaydı və məsələni həyata keçirmək üçün maliyyə vəsaiti tapmaqdan ötrü onun tədbir görəcəyi barədə bəyanatlar verilməsəydi, təbiidir ki, bunu etmək bir az çətin olacaqdı. Sağ olun.



# Azərbaycan Prezidenti Heydər Əliyevin Binə hava limanında jurnalistlərlə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev elə həmin gün vətənə qayıtdı.

Dövlətimizin başçısı Binə hava limanının şərəf salonunda jurnalistlərin suallarına cavab verdi.

Prezident Heydər Əliyev dedi:

- Güman edirəm ki, siz televiziya vasitəsilə hər şeyi görmüsünüz, hər şeyi eşitmisiniz. Ona görə sizə geniş məlumat verməyə ehtiyac yoxdur. Təyyarədə də məni müşayiət edən televiziya, qəzet jurnalistləri xahiş etdilər, mən təxminən 40-45-50 dəqiqə onlara izahat verdim. Ona görə indi siz məndən tam geniş məlumat almaq istəyirsinizsə, bu, mənim vaxtımı çox alacaqdır. Ancaq onu qeyd edə bilərəm ki, İstanbul sammiti dünya tarixində, XX əsrdə ən böyük hadisələrdən biridir və ATƏT-in XX əsrdə son sammitidir, bundan sonra daha olmayacaqdır. Bunun da İstanbulda keçməsi, şübhəsiz ki, Türkiyə üçün və Türkiyənin dostu olan bir ölkə kimi bizim üçün də çox böyük əhəmiyyət kəsb edir. Çünki orada qəbul olunmuş sənədlər artıq İstanbul sənədləri adlanacaqdır. Bu, zahiri tərəfi, yəni xarici tərəfi. Daxili tərəfi də ondan ibarətdir ki, çox məzmunlu bir sammit oldu - həm məsələlərin müzakirə edilməsi, həm qəbul olunan sənədlərin sayı, həm də onların dünya üçün əhəmiyyəti və məzmunu.

Bilirsiniz ki, orada üç sənəd qəbul olundu. Birincisi - İstanbul xartiyasıdır. 1975-ci ildə Helsinki xartiyasından sonra 1990-cı ildə Paris xartiyası qəbul edilmişdir. İndi isə - 1999-cu ildə İstanbul xartiyası qəbul olundu. Bu xartiya dünyada sülhün, təhlükəsizliyin təmin olunması, bu gün dünyada olan reallıqlara söykənərək və Helsinki aktından sonra dünyanın inkişaf etməsi, müstəqil dövlətlərin yaranması - çünki Paris xartiyası qə-

bul olunanda hələ indiki müstəqil dövlətlər yox idi, nəinki Sovetlər İttifaqından ayrılmış ölkələr, eyni zamanda Şərqi Avropa ölkələri də hələ Varşava paktının içində idilər - ona görə də bu, reallıqlara söykənən bir xartiyadır. Xartiyanın əsas mənası, məqsədi Avropada sülhü təmin etmək, əmin-amanlığı təmin etmək, təhlükəsizliyi təmin etmək, ölkələrin ərazi bütövlüyünü qorumaq və baş vermiş ixtilafları, münaqişələri sülh yolu ilə həll etmək, demokratiyanı inkişaf etdirmək, insan haqlarına xüsusi fikir vermək və s. - bax, bu məsələlərdir. Yəqin ki, bizim mütəxəssislər bu xartiya haqqında sonra sizə geniş məlumat verəcəklər.

Bu xartiyanı Azərbaycan imzaladı, mən Azərbaycanın xalqı adından, Azərbaycanın dövləti adından imzaladım. Hesab edirəm ki, imzamı, Azərbaycanın imzasını tarixi bir sənədə qoymuşam. Çünki Azərbaycanın imzası keçmişdə heç bir yerdə yox idi. Siz bilirsiniz ki, indi, müstəqillik əldə edəndən sonra mən bir çox yerlərdə Azərbaycanın adından belə beynəlxalq sənədlərə imzalar atmışam. Bunların içərisində ən mühümü İstanbul xartiyasıdır.

İkinci sənəd Avropada adi silahlar haqqında sənəddir. Mən bu yaxınlarda Azərbaycanın hörmətli şairləri, yazıçıları ilə görüşərkən bu barədə bir az izahat vermişdim. Çünki bizim ictimaiyyətimizin bu müqavilə haqqında az məlumatı var və ictimaiyyətdə bu barədə heç vaxt müzakirə getməmişdir.

Ancaq biz özümüz Azərbaycan dövləti olaraq dörd ildən artıqdır ki, bu məsələ ilə məşğul idik və öz mövqelərimizi qorumağa çalışırdıq.

Avropada adi silahlar haqqında bu müqavilə 1990-cı ildə NATO ilə Varşava paktı arasında imzalanıbdır. Ona görə imzalanıb ki, hər bir tərəf o biri tərəfin adi silahlarının həm miqdarını, həm də yerləşdiyi regionları müəyyən etsin, beləliklə də təhlükəsizlik təmin edilsin. Ancaq Varşava paktı dağılandan sonra və ondan sonra da Sovetlər İttifaqı dağılandan sonra, Sovetlər İttifaqına mənsub olan respublikalar dövlət müstəqilliyini əldə edəndən sonra şübhəsiz ki, bu müqavilə pozulmuş hesab olunur. Ona görə də Amerika tərəfi, yəni NATO tərəfi çalışırdı ki, bu müqaviləni yeniləşdirsin. Bunun üçün onlar, yəni NATO tərəfindəki kvotalar məlum idi. Ancaq keçmiş Sovetlər İttifaqının ərazisində silahlar harada nə qədər olmalıdır - bunu müəyyən etmək lazım idi, bu tələb olunurdu.



O vaxt - 1992-ci ilin may ayının 14-15-də MDB üzvü olan dövlətlərin nümayəndələri Daşkənddə toplaşmışdılar və bu məsələni müzakirə edirdilər. Amma bu, elə bir gündə müzakirə olunmamışdı.Bu məsələ müzakirə olunan zaman hər bir dövlət öz nümayəndə heyətini göndərmişdir. Orada bu müqavilənin hazırlanması prosesi gedirdi.

O vaxt Azərbaycanda hakimiyyətsizlik olduğuna baxmayaraq, daxildə hakimiyyət mübarizəsi getdiyinə baxmayaraq Azərbaycanın da ekspertləri gedib Daşkənddə bu barədə işlər görmüşdülər və mənə indi verilən məlumatlardan bəlli olur ki, Azərbaycan ekspertləri - indi onlar aşağı vəzifəli insanlardır - orada vətənpərvərlik göstəriblər, Azərbaycanın mənafelərini müdafiə etməyə çalışıblar və sübut ediblər ki, bu kvotalar müəyyən ediləndə Cənubi Qafqazda Azərbaycan ilə Gürcüstanın və Ermənistanın kvotaları fərqli olmalıdır. Azərbaycan həm ərazisinə görə, həm də əhalisinə görə digər iki respublikadan böyükdür. Ona görə də Azərbaycana daha çox kvota verilməlidir və buna nail olublar. Ekspertlər səviyyəsində Azərbaycana təxminən 415, ya 420 tank, o qədər də BMP, o qədər də top, ümumiyyətlə beş növ silah nəzərdə tutulurdu. Ancaq təəsüflər olsun ki, Azərbaycan bir tərəfdən Azərbaycanın rəhbərləri və ikinci tərəfdən o rəhbərlərə müxalifət çıxıb hakimiyyəti ələ keçirən qüvvələr o həlledici dövrdə Azərbaycanın sabitliyini saxlaya bilməmişlər.

Bilirsiniz, o dövr - Sovetlər İttifaqının dövrü keçmiş Sovetlər İttifaqına daxil olmuş hər bir ölkə üçün, xalq üçün çox əhəmiyyətli idi. Çünki Sovetlər İttifaqının bu qədər tezliklə dağılmasını heç kəs gözləmirdi, heç kəs təsəvvür edə bilməzdi. Bu dağılma prosesi gedirdi. Amma heç kəs təsəvvür edə bilməzdi ki, birdən-birə Sovetlər İttifaqı dağıla bilər. Deməli, bu dağılan kimi hər bir ölkə, hər bir dövlət müstəqilliyini aldı. Bu müstəqillik də elan olunmuşdu.

Məsələn, Azərbaycan bu prosesi görürdü. Düzdür, Azərbaycan burada təşəbbüskar deyildi. Çünki Azərbaycan 1991-ci ilin mart ayında keçirilən sessiyada Sovetlər İttifaqının, SSRİ-nin saxlanılması haqqında referendumu dəstəklədi və Azərbaycanda doxsan neçə faiz səs toplandı ki, azərbaycanlılar hamısı istəyirlər ki, Sovetlər İttifaqı yaşasın. Bir neçə başqa respublika isə bunu etmədilər. Amma SSRİ çoxluq əldə etdiyinə görə qərar qəbul etdi ki, SSRİ-yə daxil olan respublikalar SSRİ-nin sax-

lanılmasını istəyirlər. Bu mart ayının 17-də oldu. Amma avqust ayında Moskvada qiyam və onunla əlaqədar hadisələr oldu. Ondan sonra isə dərhal bir neçə ölkə öz müstəqilliyini elan etdi. Məsələn, sentyabrda elan edən oldu.

Amma Azərbaycan hələ yenə də qorxurdu. Deyirdi ki, hələ bəlkə SSRİ-nin tərkibində qalmaq lazımdır. Ona görə də demək olar ki, başqa ölkələrdən ən gec - oktyabr ayının 18-də müstəqillik haqqında Konstitusiya aktı qəbul olundu və o qərarla da təyin edildi ki, dekabr ayının 30-da referendum keçiriləcəkdir. Nə üçün referendum keçiriləcəkdir? Əgər mart ayında bunlar o referendumda Sovetlər İttifaqının, SSRİ -nin saxlanılmasına camaatın səsini süni olaraq toplayıb verməsəydilər, indi SSRİ-dən ayrılmaq üçün nə referendum? Müstəqilliyini elan etdin, qurtardı getdi! Bu referendum da dekabrın 30-da keçirildi. Demək, hüquqi nöqteyi-nəzərdən belə çıxır ki, Azərbaycan dövləti öz müstəqilliyini 1991-ci ilin dekabr ayında aldı. Ancaq biz oktyabrın 18-də Konstitusiya aktının qəbul olunmasını əsas götürürük.

Yəni bu proseslər gedirdi, həm hakimiyyətdə olan qüvvələr, həm də müxalifətdə olan qüvvələr gərək Azərbaycanın milli məfeləri haqqında düşünəydilər, bir-biri ilə vuruşmaq, dava etmək, hakimiyyət mübarizəsi aparmaq haqqında yox. Bu vaxt bir tərəfdən də Ermənistanla müharibə gedirdi, torpaqlarımız işğal olunurdu.

Bilirsiniz ki, həmin o may ayında Azərbaycanın başına nə kimi fəlakətlər gəldi. Həmin may ayında müxalifət - Xalq Cəbhəsi, Müsavat və onların ətrafında toplaşan adamlar xalqı öz arxası ilə aparırdılar. Çünki xalq o vaxtlar hakimiyyətdən o qədər narazı idi və həqiqətən müstəqillik istəyirdi - kim meydana çıxırdı, onun dalınca gedəcəkdi və getdi. Amma o vaxt, may ayında bu vuruşmanın nəticəsi nə oldu? May ayının 8-də ermənilər Şuşanı işğal etdilər.

O vaxt da mənə demişdilər və indi də mən Ermənistanın nümayəndələri ilə, xüsusən prezident Koçaryanla - o zaman Stepanakertdə oturmuş adamdır - danışıqlar aparıram. O dedi ki, Şuşanı biz işğal etmədik. Sadəcə, Şuşanı azərbaycanlılar tərk edib getdilər, biz də gəldik ora. O, mənə danışır ki, orada kilsə vardır, - bilirsiniz, o kilsə də bərpa olunmuşdur. O vaxtlar, bizim vaxtımızda bərpa işi qurtarmışdı, - deyir o kilsə-



də o qədər silah var idi ki, onlarla bütün Stepanakerti dağıtmaq olardı. Biz gəldik, silahların hamısını götürdük və ondan sonra başladıq hərəkət etməyə.

Amma Azərbaycanda nə var idi bu vaxt? Hakimiyyət mübarizəsi gedirdi. Mütəllibov yenidən hakimiyyətə qayıtmaq istəyirdi, müxalifət onun qarşısını alırdı və nəhayət, ayın 15-də də həmin o məlum hadisələr baş verdi. Ayın 15-də də Azərbaycanın müqəddəratı Daşkənddə həll olunurdu. Görün, ona biganə qaldılar. Rəhim Qazıyev satqınlıq etdi, xəyanət etdi. Getdi, Qraçovla sövdələşdi və onlar tələb edən, Rusiya tələb edən - bizim ekspertlərin tələbi qaldı - imza atıldı. Özü də həmin o Əzizbəyov buna imza atdı. Onlar Azərbaycan xalqına böyük xəyanət ediblər.

Bundan üç gün sonra - ayın 17-də yenə də hakimiyyət mübarizəsi gedirdi. Bilirsiniz ki, mayın 18-də Ali Sovetin sessiyası keçirilirdi. Xalq Cəbhəsi Ali Soveti ələ keçirmək istəyirdi və o vaxt İsa Qəmbəri Ali Sovetin sədri seçdilər. O gün də Laçın işğal olundu. Bəli, həmin o gün Laçın işğal olundu. Çünki onlar hamısı burada hakimiyyət mübarizəsi ilə məşğul idilər, orada da rayonlar işğal edilirdi.

Beləliklə, o vaxt edilən xəyanət, şübhəsiz ki, bizə böyük bir zərbə olubdur. Azərbaycanın hərbi potensialına zərbə olunubdur. Bunu sizə ona görə deyirəm ki, dörd il bundan öncə amerikanlılar bu müqavilənin yeni şəraitə uyğunlaşdırılması prosesini başlayarkən biz bunun qarşısını alırdıq. Məqsədimiz də o deyildi ki, bunun uyğunlaşdırılmasına yol verməyək. Məqsədimiz ondan ibarət idi ki, biz çalışırdıq müqavimət göstərək, çalışırdıq ki, kvotamızı artıraq. Amma bizim kvotamızı artırmadılar.

Mən keçən dəfə demişdim, - Lissabon sammitindən əvvəl Amerikanın böyük nümayəndə heyəti gəldi. Bizdən nə qədər xahiş etdilər biz buna razı olmadıq. Mənə Lissabonda ən yüksək səviyyədə nə qədər müraciət etdilər, mən buna razı olmadım. Amma ondan üç il keçibdir. Nə edək? İndi bu müqavilənin yeni şəraitə uyğunlaşdırılmaması, şübhəsiz ki, təhlükəni daha da artırır. Yəni Rusiya, məsələn, Şimali Qafqazda bu kvotadan artıq silah saxlayır. Amma orada, o müqavilədə cinahlar məsələsi vardır - hansı cinahda nə ola bilər. Məsələn, cənub cinahında Rusiya nə qədər silah saxlaya bilər. Həddindən artıq silah saxlayır. İndi, bu müqavilə imzalandan sonra, şübhəsiz ki, hər şey qanunlaşdırılmalıdır.

Ona görə də bu müqavilənin imzalanmasına biz razılıq verdik və bu müqavilə imzalandı.

Hesab edirəm, indi biz burada ağır vəziyyətdə olmağımıza baxmayaraq - əgər mənim çıxışımı dinlədinizsə, orada dedim, - Azərbaycan, bizim region hərbiləşdirildiyi halda, hərbi silahla doldurulduğu bir halda və nəzarət olmayan - yəni Dağlıq Qarabağı deyirəm - bölgədə həddindən artıq silah olduğu halda biz kvotamızın az olmasına baxmayaraq belə bir müqavilənin imzalanmasına səs vermişik və imzalayırıq. Deməli, bu da əsas sənədlərdən biridir, imzalandı. Hesab edirəm ki, bu da sammitin ən gözəl nəticəsidir.

Üçüncüsü, siyasi bəyanat, siyasi bəyannamə. Bu, hər sammitdə qəbul olunur. Orada bugünkü reallıqlar əks olunur - harada hansı münaqişə var, harada hansı məsələlər olmalıdır və s.

Bilirsiniz ki, Lissabon sammitində biz çox mübahisə apardıq ki, bizi qane edən sənəd, maddə qəbul olunsun. Ermənistan buna konsensus vermədi. Mən isə bütün sənədə konsensus vermədim. O maddə, yəni biz istədiyimiz maddə oradan çıxarıldı. Amma mən bütün sənədə konsensus vermədiyimə görə həmin o maddənin məzmunu, müddəaları ondan geniş şəkildə ATƏT-in sədrinin bəyanatında əks olundu. Bu bəyanat da 53 dövlətinin səs verməsi ilə qəbul edildi.

Bu dəfə belə bir mübahisə aparmağa ehtiyac yox idi. Orada bizim bugünkü reallığı nəzərə alaraq, hesab edirəm ki, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşləri yüksək qiymətləndirilir. Onu bir çox natiqlər çıxışlarında da dedilər və orada da yazılıbdır ki, bu, Minsk qrupunun fəaliyyəti ilə bərabər, məsələnin sülh yolu ilə həll olunmasına bizi yaxınlaşdırır.

Mənim çıxışımı siz eşitmisiniz, oxumusunuz. Mən çox sərt çıxış etdim. Eyni zamanda çox konstruktiv çıxış etdim və konstruktivlik də ondan ibarətdir ki, mən təklif etdim ki, Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı yaransın. Bu, ciddi bir məsələdir. Mən orada onun şərtlərini də dedim. Yəqin o şərtləri oxumusunuz. Həmin o şərtlər ki, buradan xarici silahlar tamamilə çıxarılmalıdır və ikili standartlara yol verilməməlidir, terrorizmin, ekstremizmin, separatizmin və s. - bunların qarşısı alınmalıdır, münaqişələr sülh yolu ilə həll olunmalıdır baş



vermiş faktlar əsasında qərarlar qəbul edilməməlidir. Mən bunu bir çox müddəalarla bağladım. Güman edirəm ki, indi biz bu sahədə öz işimizi aparacağıq.Çünki belə bir paktın qəbul olunması, şübhəsiz ki, Cənubi Qafqazda münaqişələrin aradan götürülməsini təmin etməlidir. Biz bunu edəcəyik.

Bu da siyasi bəyannamə - üç əsas sənəd.

Yekunlaşdıraraq onu demək istəyirəm ki, hesab edirəm, bu, çox müsbət nəticəli bir sammitdir. Mən bundan çox məmnunam və hamı, iştirakçılar da məmnundur. Belə bir məmnunluqla da biz bir-birimizdən ayrıldıq.

Ancaq orada bizim üçün və Türkiyə üçün, bizim bölgə üçün daha da böyük əhəmiyyət kəsb edən tarixi bir hadisə baş verdi ki,o da Bakı -Ceyhan neft kəməri haqqında müqavilənin imzalanması idi. Müqaviləni Azərbaycan, Türkiyə, Gürcüstan imzaladılar. Sonra dövlətlərin öhdəliyinə dair siyasi bəyannamə imzalandı. Bunu prezident Klinton imzaladı. Nazarbayev də Qazaxıstanın bizim bu Bakı -Ceyhan xəttinə qoşulması barədə bəyanat verdi, o da imzalandı. Bir çox başqa sənədlər də imzalandı. Beş il öncə bizim başladığımız iş indi öz nəticəsini verdi. Əgər eşitmisinizsə, - mən orada çıxışımda da dedim, -"Əsrin müqaviləsi"ni yaratmasaydıq, Bakı - Ceyhan olmayacaqdı. Amma Bakı - Ceyhanı da beş il müddətində həyata keçirmək üçün çox böyük maneələrin qarşısını aldıq, çox işlər gördük. Nəhayət, buna nail olduq. Bu, bizim üçün böyük bir hadisədir - həm Azərbaycan üçün, həm Türkiyə üçün. Eyni zamanda əgər Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı və bu barədə fəal iştirakı olmasaydı, bunu etmək mümkün deyildi. Çünki bunun əleyhinə çox qüvvələr var idi.

Türkmənistan qazının Xəzər dənizindən, Azərbaycan, Gürcüstan, Türkiyəyə keçməsi barədə Xəzər qaz kəmərinin layihəsi vardır. O da çoxdan hazırlanırdı. Bunu da imzaladıq. Orada da mənafelərimiz təmin olunub ki, bizim qazımız da o kəmər vasitəsilə keçəcəkdir. Əlavə bir memorandum da imzalandı ki, gələcəkdə Türkiyə həm özü üçün, həm Avropaya keçirmək üçün Azərbaycandan qaz almağı öz öhdəsinə götürür.

Mənim bir çox ikitərəfli görüşlərim oldu, onları da bilirsiniz. Yəqin ki, qəzetlərdə verəcəklər, yazacaqlar. Prezident Klinton ilə, Prezident Şirak ilə, Almaniyanın kansleri Şröder ilə, İsrailin Baş naziri ilə, prezi-

dentlər Şevardnadze, Kuçma və Nazarbayev ilə - bizim bu dostlarımızın hamısı ilə. Avropa Birliyinin yeni sədri Prodi ilə çox əhəmiyyətli danışıqlarımız oldu, görüşlərimiz oldu. Türkiyə Prezidenti Süleyman Dəmirəllə bir neçə dəfə və dünən axşam da, sammit qurtarandan sonra biz bir yerdə oturduq, çox ətraflı söhbətlər etdik. Bunların hamısı ilə də, bu görüşlərdə əsas məsələ Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələsi idi və burada da mən həm Amerika Birləşmiş Ştatlarının, həm Fransanın həmsədrlər kimi dəstəklərini hiss edirəm, görürəm. Orada ayrıca bir görüş də keçirildi: həmsədr olan ölkələrin xarici işlər nazirləri - ABŞ-ın dövlət katibi xanım Olbrayt, Fransanın Xarici işlər naziri Vedrin, Rusiyanın xarici işlər naziri İvanov və bir də Azərbaycan, Ermənistan prezidentləri. Orada da biz müzakirə apardıq. Düzdür, bu, qapalı müzakirədir. Hər halda qısa bir zamanda çox işlər gördük və bunların da hamısını Azərbaycan xalqının naminə gördük. Bunları siz daha da dəqiq, daha da ətraflı televiziyada, mətbuatda görəcəksiniz.

**Jurnalist:** Cənab Prezident, Sizcə, İstanbul sammiti Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması sahəsində aparılan danışıqlara yeni təkan verəcəkmi?

**Heydər Əliyev:** Mütləq verəcəkdir. Elə mənim də gördüyüm iş bundan ibarətdir.

**Jurnalist:** İstanbul bəyannaməsində Azərbaycanın ərazi bütövlüyünün qeyd olunmamasını necə qiymətləndirirsiniz?

**Heydər Əliyev:** Bilirsiniz, birincisi, o, keçən sammitdə qeyd olunubdur. İkincisi, qəbul olunmuş xartiyada bütün dövlətlərin ərazi bütövlüyünün təmin olunması, - indi mən o incəlikləri sizə demək istəmirəm, onu sonra izah edəcəklər, - hətta orada bizim təklifimizlə yazılıbdır ki, məsələn, o yerlərdə ki milli azlıqlar var, özünüidarəetmə, yəni öz hüququnu müəyyənetmə var, bu, heç vaxt ərazi bütövlüyünü pozmamalıdır. Bunlar hamısı vardır. Ona görə burada onun bir daha yazılmasına, sadəcə, ehtiyac yox idi.

Görürəm ki, daha başqa bir sualınız yoxdur. Mən təəccüb edirəm. Yəqin ki, mən sizə geniş danışıram və sual verməyə imkan vermirəm. Gələn dəfə heç bir şey deməyəcəyəm, deyəcəyəm ki, sual verin. Ancaq suallarınıza cavab verəcəyəm.



**Jurnalist:** Cənab Prezident, Cənubi Qafqazda əməkdaşlıq barədə təklif qəbul olundumu?

**Heydər Əliyev:** Cənubi Qafqaz ölkələrinin iqtisadi forumu məsələsini Amerika təklif eləmişdi. Bu təklif ilə mənim yanıma gəlmişdilər - əgər xatirinizdədirsə, bu, televiziya vasitəsilə verildi. Amerikanın nümayəndəsinə mən qəti olaraq etiraz etdim. Amma bu, orada da, o bəyannamədə var idi. Biz onu çıxartdıq.

**Jurnalist:** Cənab Prezident, İstanbul sammitində Azərbaycan ilə Ermənistan arasında hansısa sazişin imzalanacağı nəzərdə tutulurdumu?

**Heydər Əliyev:** Bilirsiniz, mən çoxdan demişəm ki, heç nə imzalanmayacaqdır. Müxalifət iki-üç ay hay-küy saldı. Bilirəm ki, çoxunuz onlara mənsubsunuz. Qəzetlər yazırdı, o yazırdı, bu yazırdı ki, Azərbaycan batacaq, saziş imzalanacaq, Qarabağ müqavimət hərəkatı yaradaq, qara örpəkli qadınlar küçələrə çıxsınlar, nə bilim, gedib İstanbulda nəsə etsinlər. Mən gedəndə sizə dedim axı, - onların heç birini Biləcəridən o tərəfə heç kim tanımır. Amma mən İstanbulun küçələrində onlardan bir adam görmədim. Mən gedəndə sizə dedim ki, heç bir şey imzalanmayacaqdır. Bu, əvvəldən də nəzərdə tutulmamışdı. Sadəcə olaraq, bunu ayrı-ayrı müxalifət qüvvələri uydurdular, ortaya atdılar ki, özləri üçün bir müddət siyasi məşğuliyyət tapsınlar. İndi bunlar özlərinə məşğuliyyət tapa bilmirlər. Görək bundan sonra hansı məşğuliyyətini tapacaqlar.

**Jurnalist:** Cənab Prezident, indi də sazişin imzalanmamasını onlar öz nailiyyəti hesab edirlər.

**Heydər Əliyev:** Bəlkə onlar elə dünyanın fırlanmasını da öz nailiyyətləri hesab edirlər ki, onlara görə dünya fırlanır? Sağ olun.

* * *

Binə hava limanında Azərbaycan Prezidenti Heydər Əliyevi Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Prezidentin İcra Apartının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər qarşıladılar.

# Prezident sarayında respublika ictimaiyyəti nümayəndələrinin ATƏT-in İstanbul Zirvə görüşünün yekunlarına həsr olunmuş toplantısı

Noyabrın 24-də Prezident sarayında respublika ictimaiyyəti nümayəndələrinin ATƏT-in İstanbul zirvə görüşünün yekunlarına həsr olunmuş toplantısı keçirildi.

Toplantı iştirakçıları Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevi gurultulu, sürəkli alqışlarla qarşıladılar.

Toplantıda Prezidentin İcra Aparatının, Milli Məclisin, Nazirlər Kabinetinin məsul işçiləri, parlamentin deputatları, nazirliklərin, dövlət komitələrinin, şirkətlərin, konsernlərin, birliklərin rəhbərləri, şəhər və rayon icra hakimiyyətlərinin başçıları, siyasi partiyaların və təşkilatların, dini icmaların rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

Dövlətimizin başçısı Heydər Əliyev toplantını giriş nitqi ilə açdı.

## Azərbaycan Prezidenti Heydər Əliyevin giriş nitqi

- Hörmətli xanımlar və cənablar!

Bugünkü respublika toplantısı ATƏT-in İstanbul sammitinin yekunlarını müzakirə etmək üçün çağırılıbdır. ATƏT-in İstanbul sammiti XX əsrin ən böyük hadisələrindən biridir. ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının XX əsrin sonunda, XXI əsrin astanasında bir yerə toplaşıb, gələcək haqqında müzakirələr aparıb çox vacib sənədlər qəbul etməsi, təbiidir ki, təkcə Avropa üçün, ATƏT-ə daxil olan ölkələr üçün yox, eyni zamanda bütün dünya üçün, beynəlxalq aləm üçün çox vacibdir.

Deyə bilərəm ki, sammit çox yüksək səviyyədə keçdi və onun qarşısında duran vəzifələri uğurla həll etdi. İstanbul sammiti haqqında kütləvi informasiya orqanları geniş məlumatlar veriblər. Türkiyənin və başqa ölkələrin televiziya kanalları, Azərbaycan dövlət televiziyası sammitin gedişini yayıblar və Azərbaycan ictimaiyyətinin bu barədə həm təsəvvürü, həm də məlumatı vardır. Ancaq eyni zamanda bu sammit çox böyük əhəmiyyət daşıdığına görə və sammitdə qəbul edilmiş sənədlərin Azərbaycanda həyata keçirilməsi, icra olunması üçün bizim bugünkü toplantının keçirilməsi zəruridir. Mən də ona görə sizi dəvət etmişəm.





Bilirsiniz ki, sammitdə keçirilən dövrə yekun vurulubdur və XXI əsrdə ölkələrin təhlükəsizliyi, sülhün təmin olunması, demokratiyanın inkişaf etdirilməsi və bunlarla əlaqədar olan bir çox məsələlər müzakirə olunubdur. Hər dövlət öz fikirini, mülahizələrini bildiribdir və bunların nəticəsində də sammitin İstanbul xartiyası qəbul edilibdir, Avropada adi silahlar haqqında müqavilə imzalanıbdır, hər sammitdə olduğu kimi siyasi bəyannamə qəbul edilibdir. Bu sənədlərin hər biri öz-özlüyündə tarixi xarakter daşıyır. Dediyim kimi, sammit özü çox böyük tarixi əhəmiyyət kəsb edir.

Bizim üçün, Azərbaycan üçün və bizə dost olan bir neçə ölkələr, dövlətlər üçün İstanbul sammiti başqa bir tarixi hadisə ilə də özünü göstəribdir. O da sizə məlumdur: İstanbul sammiti zamanı, sammitin keçirildiri günlərdə, oradakı şəraitdə Azərbaycan neftinin dünya bazarlarına ixrac edilməsi üçün əsas neft kəməri - Bakı-Ceyhan neft kəməri haqqında müqavilələr imzalanıbdır.

Bununla bərabər, Xəzər qaz kəməri haqqında da, yəni Türkmənistan qazının Xəzər dənizindən, Azərbaycandan, Gürcüstandan Türkiyəyə keçməsi haqqında da sənədlər imzalanıbdır. Buna görə də İstanbul sammiti Avropa üçün, dünya üçün böyük tarixi hadisə olaraq, eyni zamanda Azərbaycan üçün ikiqat tarixi hadisədir. Çünki birincisi, şübhəsiz ki, biz ATƏT-in üzvü olaraq, XX əsrin sonunda bu qədər yüksək səviyyəli, məzmunlu və nəticəli zirvə görüşünün keçirilməsini tarixi hadisə hesab edirik. Ancaq Azərbaycan üçün, Türkiyə üçün, Gürcüstan üçün, Türkmənis-



tan üçün, Amerika Birləşmiş Ştatları üçün və Azərbaycanla əməkdaşlıq edən başqa ölkələr üçün Bakı-Ceyhan neft kəməri haqqında müqavilələrin imzalanması, təbiidir ki, tarixi hadisədir.

Qeyd etdim ki, bu barədə sizin və ictimaiyyətin məlumatları vardır. Ancaq hesab edirəm ki, bu gün biz həm sizə, həm də ictimaiyyətə daha da geniş məlumatlar verməliyik, bir çox məsələləri izah etməliyik, eyni zamanda ATƏT-in sammitinin qəbul etdiyi sənədlərin Azərbaycanda icra olunması, həyata keçirilməsi üçün tədbirləri müzakirə etməliyik. Bakı-Ceyhan neft kəməri haqqında müqavilə imzalandığına görə indi onun icrası mərhələsi başlayır və bunun icrası üçün gələcək işlər barədə fikir mübadiləsi aparmalıyıq. Təbiidir ki, sonra xüsusi sənədlər qəbul olunacaqdır. ATƏT-in zirvə görüşündə qəbul olunmuş sənədlərlə əlaqədar Azərbaycanın görəcəyi işlər barədə də xüsusi sənədlər hazırlanıb imzalanacaqdır.

Bütün bunlara görə də bugünkü bu toplantının keçirilməsi çox zəruridir. Hesab edirəm bu, eyni zamanda ictimaiyyətə, vətəndaşlarımıza İstanbul sammiti haqqında və Bakı-Ceyhan neft kəməri haqqında daha da geniş məlumatlar almağa imkan verəcəkdir. Təbiidir ki, bu məsələlərin tarixi əhəmiyyətini hər bir Azərbaycan vətəndaşının qiymətləndirməsi üçün əsas olacaqdır.

* * *

Sonra respublikanın xarici işlər naziri Vilayət Quliyev İstanbul sammiti və orada qəbul olunmuş sənədlər haqqında və Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev Bakı-Ceyhan neft kəməri haqqında məruzə etdilər.

Toplantıda Milli Məclisin deputatı Mübariz Qurbanlı, “Qadın və İnkişaf” Assosiasiyasının sədri, professor Elmira Süleymanova, respublika Gənclər Təşkilatları Milli Şurasının sədri Azay Quliyev, Azərbaycan Dövlət Neft Akademiyasının kafedra müdiri, professor Rakiz Səttarov, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, professor Seyfəddin Qəndilov, xalq şairi Mirvarid Dilbazi, Dövlət İqtisad İnstitutunun kafedra mudiri, professor Həsən Allahverdiyev çıxış etdilər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev toplantıda geniş yekun nitqi söylədi.



## Prezident Sarayında Respublika ictimaiyyəti nümayəndələrinin ATƏT-in İstanbul Zirvə görüşünün yekunlarına həsr olunmuş toplantısında Azərbaycan Prezidenti Heydər Əliyevin yekun nitqi

Hörmətli xanımlar və cənablar!

ATƏT-in İstanbul Zirvə görüşü XX əsrin sonunda XXI əsrə güclü bir projektor kimi işıq saçan tarixi hadisədir. İstanbul zirvə görüşü və onun qəbul etdiyi qərarlar, sənədlər XXI əsrdə Avropa dövlətlərinin, xalqlarının və ATƏT-in tərkibində olan başqa dövlətlərin, xalqların inkişafı üçün çox böyük əsas yaratmışdır. Mən cəsarətlə deyə bilərəm ki, İstanbul zirvə görüşü ATƏT-in 1975-ci ildə əsası qoyulmuş və sonra keçirilmiş zirvə görüşlərinin hamısından yüksəkdə durur. Birinci ona görə ki, ATƏT 25 ilə yaxın bir zamanda fəaliyyət göstəribdir, böyük təcrübə toplayıbdır, təkmilləşibdir, zənginləşibdir və dünyada baş vermiş böyük qlobal dəyişiklikləri əks etdirərək XXI əsrə yol göstərir.

Azərbaycan ATƏT-in İstanbul Zirvə görüşündə iştirak etməsini və təmsil olunmasını böyük hadisə hesab edir, tarixi hadisə hesab edir. Biz müstəqil dövlət olaraq ATƏT-in zirvə görüşlərində 1992-ci ildən iştirak edirik. 1992-ci ildə Azərbaycan nümayəndə heyəti Helsinkidə keçirilən zirvə görüşündə başda Azərbaycan Prezidenti olmaqla iştirak edibdir. Ancaq təəssüflər olsun ki, biz ondan bir iz tapa bilmirik: bu iştirak nədən ibarət olubdur, nə fəaliyyət göstərilibdir, nə işlər görülübdür? Burada tamamilə doğru deyildi ki, 1992-ci il Azərbaycan üçün çox ağır və çətin bir il idi. Birincisi, Azərbaycan yenicə müstəqillik əldə etmişdi. İkincisi də, Ermənistan-Azərbaycan münaqişəsi 1992-ci ildə demək olar ki, ən dəhşətli bir səviyyəyə gəlib çatmışdı. Belə bir zamanda ATƏT-in zirvə görüşündən, şübhəsiz ki, səmərəli istifadə etmək mümkün olardı. Ancaq hər halda görünür ki, bu olmayıbdır.

ATƏT-in 1994-cü ildə Budapeştdə keçirilən zirvə görüşündə, 1996-cı ildə Lissabonda keçirilən zirvə görüşündə isə Azərbaycan nümayəndə heyəti fəal iştirak edibdir və siz yaxşı bilirsiniz ki, Azərbaycana aid, xüsusən Azərbaycan üçün ən ağır və ən çətin, ən əsas problem olan Ermənistan-Azərbaycan münaqişəsinə aid orada lazımi sənədlər əldə olunmuşdur.

ATƏT-in İstanbul zirvə görüşü - mən sadəcə keçmişdəki zirvə görüşləri ilə müqayisə etmək istəyirəm - mənim şəxsən gördüyüm bütün zirvə

görüşlərindən çox-çox yüksəkdə durur. Həm tərkibinə görə, həm ölkələrin nümayəndələrinin səviyyəsinə görə, həm qəbul etdiyi sənədlərin məzmununa, mənasına görə, həm də zirvə görüşünün işinin təşkil olunmasına görə. Cəsarətlə deyə bilərəm ki, - müqayisə edərək demək olar, - İstanbul zirvə görüşü əvvəlki zirvə görüşlərindən təşkilat nöqteyi-nəzərindən, iş şəraiti nöqteyi-nəzərindən, nümayəndə heyətlərinin səmərəli fəaliyyət göstərməsi nöqteyi-nəzərindən və bütün başqa amillərə görə ən gözəl təşkil olunmuş beynəlxalq görüş idi, ən gözəl təşkil olunmuş zirvə görüşü idi.

Bizim üçün, Azərbaycan üçün bu, böyük iftixar hissi doğurur. Çünki XX əsrin sonunda, yəni bu əsrdə ATƏT-in son zirvə görüşünün Türkiyədə, İstanbulda keçirilməsi və qardaş türk xalqının avqust ayında böyük zəlzələ nəticəsində problemlərlə üzləşməsinə baxmayaraq zirvə görüşünün İstanbulda yüksək səviyyədə, gözəl təşkil olunması, həyata keçirilməsi və yaxşı nəticələrlə qurtarması Türkiyə Cümhuriyyətini, bizim dost, qardaş türk xalqını şübhəsiz ki, dünya miqyasında daha da hörmətləndirir. Yenə də deyirəm, qardaş ölkə olaraq biz bununla fəxr edirik. Mən bunu Türkiyə Cümhuriyyətinin Prezidenti əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl ilə ayın 19-da axşam İstanbulda görüşərkən də demişdim və bir də burada deyirəm. Biz hamımız, Azərbaycan xalqı Türkiyə Cümhuriyyətini, qardaş türk xalqını, Türkiyənin bütün vətəndaşlarını bu böyük uğur münasibətilə təbrik edirik.

Xarici işlər naziri Vilayət Quliyevin, Dövlət Neft Şirkətinin Prezidenti Natiq Əliyevin məruzələrində və çıxışlarda İstanbul zirvə görüşü haqqında və bu zirvə görüşü zamanı Bakı-Ceyhan neft kəməri, Transxəzər qaz kəməri ilə bağlı imzalanmış sənədlər haqqında ətraflı məlumatlar verildi. Mən çox məmnunam ki, bugünkü toplantının iştirakçıları İstanbul zirvə görüşünün gedişini diqqətlə izləyiblər və ona böyük maraq göstəriblər. Bəlkə də keçmiş sammitlərdən fərqli olaraq hər şeyi daha yaxşı bilirlər və qiymətləndirə bilirlər.

Mənə məlumdur ki, Azərbaycanın ictimaiyyəti, yəni bizim vətəndaşlarımız Türkiyə televiziyasının və Azərbaycan dövlət televiziyasının kanallarından istifadə edərək, zirvə görüşünün prosesini və zirvə görüşü zamanı Bakı-Ceyhan neft kəməri barədə sənədlərin imzalanması mərasimini görüblər, hər kəsin şəxsi təsəvvürü vardır. Çox məmnunam ki, xalqımız da - bizə gələn məlumatlardan görünür - bu zirvə görüşünü və Azərbaycan nümayəndə heyətinin fəaliyyətini yüksək qiymətləndirir. Bu gün buradakı çıxışlarda da həm zirvə görüşünə, həm Bakı-Ceyhan neft kəməri müqaviləsinin imzalanmasına, həm də Azərbaycan nümayəndə heyətinin gördüyü işlərə yüksək qiymət verilir.



Burada deyildiyi kimi, İstanbul zirvə görüşündə qəbul edilmiş əsas sənəd İstanbul xartiyasıdır. Bu da tarixi hadisədir ki, 1990-cı ildə Parisdə imzalanmış xartiyadan sonra dünyada baş vermiş böyük dəyişikliklərin öz əksini tapdığı növbəti xartiya məhz İstanbulda imzalanıbdır, İstanbul xartiyası adlanır. İstanbulda eyni zamanda Avropada adi silahlar haqqında müqavilə və siyasi bəyannamə imzalanıbdır.

Azərbaycan ATƏT-in zirvə görüşündə iştirakı ilə və oradakı sənədlərin hazırlanmasında gördüyü işlərlə, nəhayət, zirvə görüşündə Azərbaycanın mövqelərini açıq-aydın bəyan etməklə və zirvə görüşünün iştirakçılarına təqdim olunmuş sənədləri imzalamaqla Azərbaycanın dövlət müstəqilliyini bir daha, bir daha sübut etdi və dünyaya nümayiş etdirdi.

İstanbul xartiyasını, adi silahlar haqqında sənədi imzalayarkən, siyasi bəyannaməyə razılıq verərkən mən Azərbaycan xalqının verdiyi mandatı həyata keçirirdim. Mən Azərbaycan xalqının adından o tarixi sənədlərə imzamı qoymuşam. O sənədlər tarixdə yaşayacaqdır. Gələcək nəsillər onları qiymətləndirəcəklər. Bu gün isə bizim üçün bunun ən böyük əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan xalqı azad xalqdır, sərbəst daxili və xarici siyasət aparır, Azərbaycan xalqı öz müstəqilliyi ilə fəxr edir, müstəqil Azərbaycan öz imzasını belə tarixi sənədlərə qoymağa imkan alıbdır. Bunlar hamısı məndə də, güman edirəm, sizdə də böyük ruh yüksəkliyi doğurur. Eyni zamanda bunlar bizim üzərimizə böyük vəzifələr qoyur. Biz bu vəzifələri ardıcıl surətdə həyata keçirməliyik.

ATƏT-in zirvə görüşündəki sənədləri imzalamaqla biz bir daha təsdiq edirik ki, Azərbaycan müstəqil dövlətdir, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur, bu proses sürətlə inkişaf edir. Azərbaycan xalqların bütün azadlıqlarını təmin edir, insan haqlarını qoruyur, söz, vicdan, mətbuat azadlığını təmin edir. Azərbaycan dünyəvi dövlətdir, öz milli ənənələri ilə bərabər, ümumbəşəri dəyərləri də qəbul edir və onlardan istifadə edir. Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparır, iqtisadi islahatlar həyata keçirir, öz iqtisadiyyatının dünya iqtisadiyyatı ilə sıx inteqrasiyası prosesini həyata keçirir və beləliklə, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş, sosial problemləri diqqət mərkəzində saxlayan sivil dövlətləri sırasına daxil olur. Bu sözlərlə mən onu demək istəyirəm ki, bizim indiyə qədər - dövlət müstəqilliyi əldə edəndən sonra ötən səkkiz il ərzində gördüyümüz işlər bizi bu yola gətirib çıxarıbdır. Bu yol bizim strateji yolumuzdur və ATƏT-in İstanbul zirvə görüşündəki sənədlərə imza atmağımız bir daha, bir daha həm dünyaya nümayiş etdirir, həm də bütün millətimiz, xalqımız üçün təsdiq edir ki, biz bu yol ilə gedəcəyik və heç vaxt bu yoldan dönməyəcəyik.



Qarşımızda duran vəzifələr böyükdür. Nəzərdə tutulur ki, biz İstanbul zirvə görüşünün nəticələri ilə əlaqədar müvafiq sənədlər imzalamalıyıq və bu sənədlərdə həm xartiyadan, həm də zirvə görüşünün qəbul etdiyi başqa qərarlardan ölkəmiz üçün irəli gələn vəzifələrin konkret, praktiki həll olunması məsələlərini əks etdirməliyik.

Yəni sizə və bütün ictimaiyyətə bildirmək istəyirəm ki, İstanbul zirvə görüşü böyük bir mərhələdir, Avropa dövlətləri üçün, ATƏT üzvləri üçün yeni bir mərhələnin başlanğıcıdır. Ona görə də biz bu yola konkret işlərimizlə başlamalıyıq.

Konkret işlərimizdə, şübhəsiz ki, birincisi, indiyə qədər gördüyümüz, həyata keçirdiyimiz işləri təkmilləşdirməliyik. Amma eyni zamanda, bütün bu deyilən sahələrdə olan nöqsanları, çatışmazlıqları aradan qaldırmalıyıq, ATƏT-in sənədlərinə zidd olan və ölkəmizə, xalqımıza zərər gətirən bəzi mənfi halları aradan qaldırmalıyıq, cəmiyyətimizi daha da birləşdirməliyik. Cəmiyyətimiz isə məhz bu prinsiplər əsasında daha da sıx birləşməlidir. Güman edirəm ki, Azərbaycanın hər bir vətəndaşı və xüsusən Azərbaycanın dövlət, hökumət orqanlarında, ictimai təşkilatlarında çalışanlar bu zirvə görüşünün yekunları ilə əlaqədar hərə öz vəzifələrini, məsuliyyətini dərk etməlidir və onların həyata keçirilməsi ilə ciddi məşğul olmalıdır.

ATƏT-in zirvə görüşü zamanı Azərbaycan üçün ikinci bir tarixi hadisə də baş verdi. Bu, Bakı-Ceyhan neft kəməri haqqında son illər böyük çətinliklərlə hazırlanan müqavilələrin imzalanmasıdır. Bu da həqiqətən çox böyük tarixi əhəmiyyət kəsb edən hadisədir. Təsadüfi deyil ki, bu hadisə dünyanın bir çox ölkələrində, bir çox dairələrdə - həm bizə yaxın ölkələrdə, həm uzaq olan ölkələrdə çox böyük əks-səda doğurubdur və müxtəlif münasibətlər meydana gəlməsinə səbəb olubdur.

Azərbaycan 1993-1994-cü illərdən başlayaraq öz müstəqilliyini möhkəmləndirmək üçün, iqtisadiyyatını inkişaf etdirmək üçün, onu dünya iqtisadiyyatı prinsipləri əsasında, bazar iqtisadiyyatı prinsipləri əsasında qurmaq üçün bir çox tədbirlər həyata keçirir və onlar da öz nəticəsini verir. Bu tədbirlərin içərisində ötən beş il içərisində ən görkəmli yer tutan - neft və qaz sərvətlərimizdən səmərəli istifadə etməyimiz üçün dünyanın böyük neft şirkətləri ilə müştərək iş görməyimizdir. Bu, dövlətimizin yeni neft strategiyasıdır.

Azərbaycan qədimdən neft ölkəsidir. Sovet hakimiyyəti dövründə də Azərbaycanı həmişə neft ölkəsi kimi tanımışlar. Məlumdur ki, 60-cı illərin sonuna qədər Azərbaycanda sənayenin başqa sahələrinə lazımi fikir verilmirdi. Bir tərəfdən ona görə ki, Azərbaycan həmişə neftlə məşğul olmuşdu və neftlə əlaqədar sənaye sahələri ilə məşğul olmuşdu.İkinci tərəfdən də, Sovetlər İttifaqının mərkəzi dövləti hər bir regiondan, hər bir respublikadan ümumittifaq üçün lazım olan şeyləri cəlb edirdi. Azərbaycan üçün isə artıq bir çox vaxt bundan öncə lazım idi ki, neft sənayesi ilə yanaşı, sənayenin başqa sahələrini də inkişaf etdirsin. Biz bunu etdik. 70-80-ci illərdə bu sahədə böyük işlər görüldü. Sənayenin bir çox yeni sahələri yarandı, onlar Azərbaycana çox böyük faydalar verdi. Kənd təsərrüfatında, Azərbaycanın torpaqlarından istifadə olunması, təbii sərvətlərindən istifadə olunması sahəsində çox böyük işlər görüldü. Ancaq bunlara baxmayaraq, yenə də neft və qaz sərvətlərimiz bizim bütün imkanlarımız, bütün sərvətlərimiz içərisində daha da böyük rol oynayır.



Hesab edirəm ki, Azərbaycan xoşbəxt bir ölkədir və Allah tərəfindən ona bəxş edilən təbii sərvətlər Azərbaycanın həyatı üçün həmişə böyük əhəmiyyətli olubdur və gələcəkdə də əhəmiyyətli olacaqdır.

Azərbaycanın zəngin təbii sərvətləri və geostrateji vəziyyəti xalqımızın milli sərvətidir. Biz bunları qorumalıyıq, biz bunlardan səmərəli istifadə etməliyik. Bu milli sərvət - bir də təkrar edirəm, Azərbaycanın geostrateji vəziyyəti və təbii sərvətləri, yəni neft və qaz yataqları nəinki bu gün, nəinki XXI əsrdə, hələ gələcək əsrlərdə də Azərbaycan xalqı üçün əsas sərvətdir.

Məlumdur ki, dünyada, yəni yer kürəsində yeraltı sərvətlər çoxdur. Qara metallar da var, başqa metallar da var, başqa yanacaq növləri də var, qızıl da var, almaz da var, başqa şeylər də vardır. Yer kürəsinin çox ölkələrində bu sərvətlər vardır. Amma bütün bu yeraltı sərvətlərin içərisində neft və qaz yataqları müasir dünyada birinci yerdə durur və hansı ölkələrin belə sərvətləri varsa, şübhəsiz ki, o ölkənin, xalqın həyatı üçün, sosial vəziyyəti üçün və ölkənin iqtisadi inkişafı üçün böyük bir amildir. Yenə də deyirəm, xoşbəxt millətik ki, bizim belə sərvətlərimiz vardır və bu sərvətlərdən biz indi daha da səmərəli istifadə etməyə başlamışıq. Buna görə də təbiidir ki, indi dünyanın müxtəlif böyük şirkətləri, başqa ölkələrdə sərmayə qoymaq, iş görmək üçün can atan, fəaliyyət göstərən şirkətlər dünyanın, yer kürəsinin hər yerində özünə münasib istiqamətdə hərəkət edirlər və burada birinci yerdə yenə də neft və qaz sərvətləri olan ölkələr durur.

Götürün böyük Rusiyanı. Orada yeraltı faydalı qazıntılar çoxdur: dəmir də var, daş kömür də var, qızıl da var, almaz da, başqaları da vardır. amma bu gün Rusiyanın iqtisadiyyatının ən əsas dayağı onun zəngin neft və qaz yataqlarıdır. Bu gün yox, mən sizə bunu keçmiş tariximiz haqqında məlumat verərək deyə bilərəm. Sovet İttifaqı dövründə və xüsusən 70-ci illərin sonunda və 80-ci illərin əvvəllərində, Sovet İttifaqında ümumiyyətlə istehsal zəif inkişaf etdiyi bir zamanda və ölkənin taxıl ilə təmi-

natı çox çətin bir halda olduğu zamanda Sovet İttifaqını bu çətinliklərdən xilas edən iki şey var idi: biri neft, hansını ki, satırdı, biri də qaz.

Bəli, Uzaq Sibirdən Avropanın müxtəlif ölkələrinə qaz kəmərinin çəkilməsi o vaxt tarixi bir hadisə idi. Çünki iqtisadi və maliyyə vəziyyəti artıq zəifləmiş Sovet İttifaqında bu iki sərvət demək olar ki, bütün başqa sahələrdən gələn gəlirlərin hamısından üstün idi və ölkəyə böyük fayda gətirirdi.

Yaxın Şərqdə kiçik ölkələr vardır ki, böyük neft, qaz sərvətləri sayəsində ən kasıb ölkələrdən 20-25 il içərisində indi ən dövlətli ölkələrin səviyyəsinə gəlib çatıbdır.

Yəni bununla onu demək istəyirəm ki, Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir. Buna görə də, məsələn, indi Azərbaycana xarici investisiya birinci növbədə neft və qaz sahəsinə gəlir. Başqa yerlərə də gəlir, amma əsas bu sahəyə gəlir.

Bəzi diletantlar orda-burda danışırlar ki, "bəli, bu sahə yaxşıdır, amma o biri sahələrə də fikir verin". Axı, onlar bu işlə məşğul olmurlar. Mən bu gün onlara, hamıya bildirmək istəyirəm ki, biz dövlət olaraq bütün sahələrə fikir veririk, bütün sahələrə xarici sərmayəni cəlb etmək istəyirik, bütün sahələrdə zəngin xarici şirkətlərlə əməkdaşlıq etmək istəyirik. Ancaq bu, təkcə bizdən asılı deyildir. Bu, eyni zamanda hər bir ölkənin o böyük, zəngin şirkətlərinin hər bir ölkənin sərvətlərinə olan marağından asılıdır. Qeyd etdiyim kimi, indi dünyada neft və qaz məhsulları birinci yerdə durduğuna görə təkcə bir yanacaq vasitəsi kimi yox, eyni zamanda sənayenin bir çox sahələrinin, yeni yaranmış sahələrinin təmin edilməsi üçün, xammal kimi istifadə olunması üçün dünyanın böyük şirkətləri şübhəsiz ki, birinci növbədə diqqətlərini neft və qaz yataqları olan ölkələrə yönəldirlər və oraya sərmayə qoymağa çalışırlar. Budur, indi son illərdə Azərbaycanda bu vəziyyət vardır.

Ancaq bir var ki, kimsə gəlib bu sərvətlərimizdən istifadə etmək istəyir, yəni müştərək iş görmək istəyir, - bu, şübhəsiz ki, təbii haldır. İkinci tərəfi isə ondan ibarətdir ki, Azərbaycan öz milli sərvətlərindən öz milli mənafeyi üçün səmərəli istifadə edə bilir, yoxsa edə bilmir. Bax, bu sahədə Azərbaycanın yeni neft strategiyası təkcə ötən beş il üçün yox, böyük gələcək üçün bizim ən böyük nailiyyətimizdir.

Burada artıq deyildi, - sentyabr ayının 20-də "Əsrin müqaviləsi"nin beşinci ildönümünü qeyd edərkən bu barədə çox ətraflı danışdıq ki, biz birinci müqaviləni çox ağılla, səriştə ilə, milli mənafelərimizi tam təmin



etmək yolu ilə və məqsədi ilə hazırladıq, imzaladıq və bununla da Azərbaycanın yeni neft strategiyasının əsasını qoyduq, bununla da dünyanın bir çox başqa neft şirkətlərinin diqqətini Azərbaycana cəlb etdik və onların nəticəsində indi beş il müddətində 18 müqavilə imzalanıbdır. Onlar haqqında bu gün Natiq Əliyev məlumat verdi və onların hamısı gələcəyə yönəlibdir.

Xatirimdədir, bizim ilk müqavilələr Milli Məclisdə təsdiq edilən zaman bəzi deputatlar - təbiidir ki, onların əksəriyyəti müxalifətdən olan deputatlar idi - bunlara etiraz edirdilər: "nə üçün bunları edirsiniz, niyə tələsirsiniz? Bunları gələcək nəsillərə saxlamaq lazımdır. Niyə başqa şirkətlərlə edirsiniz bunları? Gözləyin, birinci müqavilədən gəlir aldıqdan sonra o birilərini ancaq özümüz edəcəyik". Belə səviyyəsiz, yenə də deyirəm, diletant sözlərlə bizim gördüyümüz bu işlərə etiraz edirdilər. Bu, təbii ki, bir tərəfdən işi bilməməyin nəticəsidir, ikinci tərəfdən də, sadəcə, dövlətin gördüyü işlərə maneçilik etmək məqsədi daşıyır. Ancaq biz gördüyümüz işin nə olduğunu yaxşı bilirdik. Ona görə də "Əsrin müqaviləsi"ni imzalayıb əməli işə başlayandan sonra həm Xəzər dənizinin Azərbaycan sektorunda, həm Azərbaycanın quru hissəsində olan yataqlara xarici şirkətlərin maraqlarını müzakirə etdik, təhlil etdik və yeni müqavilələr imzaladıq. Bilmək lazımdır, beş il müddətində bu işlərin görülməsi böyük bir nailiyyətdir və bu işləri də biz Azərbaycanın gələcəyi üçün, gələcək nəsillər üçün görürük.

Bu müqavilələrin ardıcıl surətdə hazırlanması və imzalanması bir tərəfdən xarici şirkətlərin gəlib burada iş görmək istəyi ilə bağlı olmuşdur, ikinci tərəfdən isə bizim özümüzün neft strategiyamızın tərkib hissəsidir. Çünki, - burada Natiq Əliyev dedi, - hər bir müqavilə imzalanandan sonra onun üç il kəşfiyyat dövrü vardır. Üç ildən, kəşfiyyat dövründən sonra artıq istehsal prosesləri gəlir. Demək, hər bir müqavilənin həyata keçməsi üçün və ilkin nəticələrin alınması üçün neçə illər lazımdır.

Bax, biz bunları edərək Azərbaycanın gələcəyi - 2010, 2015, 2020-ci illər üçün ardıcıl olaraq işlər görürük. Əgər birini, ikisini imzaladıq, qalanlarının üstünü basdırıb otursaq ki, bunlar gələcək üçün qalsın, bəlkə gələcəkdə buna heç maraq olmayacaqdır. Bir də ki, burada deyildi, hətta müqavilənin imzalanmasından və ilkin işlərin görülməsindən Azərbaycana nə qədər gəlirlər gəlir. Bunlar hamısı bu gün üçün lazımdır.Amma biz "Əsrin müqaviləsi"nin həyata keçirilməsindən artıq 2000-ci ildə konkret mənfəət - 100 milyon dollardan artıq mənfəət alacağıq və bu, hər il artacaqdır.

Digər müqavilələr işə düşəndən sonra, yanaşı olaraq-məsələn, burada "Şahdəniz" müqaviləsi haqqında danışıldı - orada işlər gedəcəkdir və

bunlar da bir-birinə heç mane olan deyil, əksinə, bir-birinə yardım edəcəkdir. Məsələn, "Əsrin müqaviləsi"nə və "Şahdəniz" müqaviləsinə görə biz iki qazma qurğusunu - "Dədə Qorqud" yarımdalma və "İstiqlal" qurğularını bərpa etdik. "İstiqlal" qurğusuna 200 milyon dollardan artıq vəsait qoyulubdur. Bunlar xarici sərmayədir, amma bu, Azərbaycanın mülkiyyətidir.

"Dədə Qorqud" qurğusunun bərpasına təxminən 60-70 milyon dollar vəsait qoyulmuşdur. İndi isə keçmişdə "Şelf" adlanan yeni tipli bir qazma qurğusu var, o hazırlanır, həmin qurğu da modernləşdiriləcəkdir. Bunlar hamısı Azərbaycanda gələcəkdə işlərin daha da uğurla, müvəffəqiyyətlə getməsi üçün edilir.

Ancaq biz keçən dövrdə görülən işləri heç vaxt unutmamalıyıq. Məsələn, əgər biz vaxtında, 1970-ci illərin sonunda dərin özüllər zavodunu - mən sizə deyə bilərəm ki, o zaman onu ittifaq dövlətindən böyük çətinliklərlə aldıq, bu zavodun tikintisinə Sovet hökumətinin büdcəsindən 400 milyon dollar sərf olundu - alıb gətirib burada qurmasaydıq, indi biz bu işləri görə bilməzdik. Amma həmin zavod da hələ bu gün bizim istədiyimiz səviyyədə deyildir. Onu inkişaf etdirmək, modernləşdirmək lazımdır. Həmin zavod Xəzərin təkcə Azərbaycan sektorunda yox, indi başqa sektorlarında da görülən işlər üçün çox əhəmiyyətli olacaqdır.

Məsələn, Qazaxıstan Prezidenti öz çıxışında - yəqin, sənədlər imzalanarkən onun çıxışını eşitdiniz - dedi ki, biz bir kəşfiyyat quyusu qazırıq, artıq üç min metr qazmışıq. Öz sektorlarında qazarlar, taparlar, əgər görsələr ki, onlarda çox neft ehtiyatı var, demək, qazma qurğusu lazımdır. Bu qurğu da Xəzər dənizində hələ yalnız Azərbaycandadır, başqa yerdə yoxdur.

Biz keçmişdə bu gün üçün böyük baza yaratmışıq. Bunu bilmək lazımdır, heç vaxt unutmaq olmaz. Ona görə də indi "İstiqlal", "Dədə Qorqud" qurğuları vardır.

Əgər biz "Şahdəniz" yatağının birgə işlənilməsi barədə müqaviləni imzalamasaydıq, "İstiqlal" qurğusu da olmayacaqdı. Çünki "İstiqlal" qurğusu "Şahdəniz" müqaviləsinin hesabına yaranıbdır. Bax, mən bununla bir daha onu qeyd etmək istəyirəm ki, bu beş il müddətində bizim imzaladığımız 18 müqavilə Azərbaycanın gələcək həyatının böyük təməlini qoyubdur. Bu, elə bir təməldir ki, Azərbaycanı on illərlə inkişaf etdirəcəkdir.

Mən bunu İstanbulda da dedim, aydındır ki, əgər biz "Əsrin müqaviləsi"ni imzalamasaydıq və ondan sonrakı müqavilələri imzalamasaydıq, Bakı-Ceyhan neft kəməri heç vaxt reallaşmazdı. Məlumdur ki, biz "Əsrin müqaviləsi"ni imzalayanda orada yazılmışdı ki, əsas ixrac neft kəməri tikilməlidir və onun da müddəti 54-56 ay müəyyən olunmuşdu. Bunlar o vaxt yazılmışdı. Amma sonrakı reallıq nəyi göstərdi? Sonrakı reallıq onu göstərdi ki, biz Bakı-Novorossiysk neft kəmərini yaratdıq, 1997-ci ilin noyabr ayında "Çıraq" yatağından neft çıxdı və biz bu nefti həmin kəmərlə ixrac etməyə başladıq. Ancaq biz bununla qane olmadıq. Bizə alternativ kəmər lazım idi. Ondan sonra biz Bakı-Supsa kəmərini yaratmağa başladıq. Bu ilin aprel ayında həmin kəmər də, terminal da istifadəyə verildi. Artıq Bakı-Supsa vasitəsilə 3 milyon ton neft ixrac olunubdur.



Təbiidir ki, bu iki neft kəmərinin yaranması Bakı-Ceyhan neft kəmərinin vaxtını uzadır və uzatdı. Şübhəsiz ki, neft şirkətləri və onlarla birlikdə biz gördüyümüz işlərin səmərəsini tezliklə əldə etmək istəyirik. Kapital qoyulursa, demək o, həm xarici şirkətlər üçün, həm də Azərbaycan üçün gəlir gətirməlidir. Amma əgər gəlir gəlmirsə, kapital qoyulur, gəlirin gəlməsi gecikirsə, şübhəsiz ki, bu, heç kəs üçün faydalı ola bilməz.

Yenə də deyirəm, Bakı-Supsa kəmərinin yaranması Bakı-Ceyhanı təxirə saldı və bəlkə də onun vaxtını tamamilə uzadardı. Əgər biz başqa müqavilələri imzalamasaydıq, əgər Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti başqa müqavilələrin icra olunması ilə əlaqədar həm öz sahəsindən, həm də başqa müqavilələr sahəsindən həqiqətən çox neft hasil edilməsinə inanmasaydı, onlar Bakı-Ceyhan neft kəmərinin çəkilməsinə razılıq verməyəcəkdilər. Siz bilirsiniz, bilmirsinizsə bilin, - onlar buna razılıq vermirdilər də. Çünki onlar deyirdilər ki, kommersiya marağı bizim üçün hər şeydən üstündür. Biz də belə hesab edirik ki, kommersiya marağı hər şeydən üstün olmalıdır. Amma bizim bütün bu beş ildə gördüyümüz işlər, məhz gördüyümüz işlər Bakı-Ceyhanı reallaşdırdı. 1998-ci ilin oktyabr ayında biz Ankarada siyasi bəyannaməni imzalayandan sonra bir il müddətində çox böyük işlər görüldü. Amma ağır, çətin işlər görüldü. Türkiyə ilə Azərbaycan arasında aylarla danışıqlar aparılırdı. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə Türkiyə dövləti, yaxud şirkətləri arasında danışıqlar gedirdi. Gürcüstan ilə danışıqlar aparılırdı. Amma şübhəsiz ki, məsələnin əsas həlli Azərbaycan ilə Türkiyə arasında gedən danışıqlar çərçivəsində idi.

Xatirinizdədir ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Bakı-Ceyhan neft kəmərinin qiymətini 3,7 milyard dollara qaldırmışdı. Görülən işlər sübut etdi ki, bu düzgün rəqəm deyildir. Nəhayət, həmin rəqəm 2,4 milyard dollar oldu. Amma burada deyildiyi kimi, bunun da riski vardır. Türkiyə öz ərazisində olan riski öz üzərinə götürüb, Beynəlxalq Əməliyyat Şirkəti isə Azərbaycan və Gürcüstan ərazilərində olan riski öz üzərinə götürübdür. Beləliklə də Bakı-Ceyhan neft kəməri reallaşdı və o onun sənədləri İstanbulda çox təntənəli şəraitdə, yüksək səviyyədə imzalandı.

Mən bunu dəfələrlə demişəm, bu gün bir daha bildirmək istəyirəm ki, həm "Əsrin müqaviləsi"nin hazırlanmasında və imzalanmasında, həm də sonra gördüyümüz işlərdə, elə Bakı-Supsa və Bakı-Ceyhan neft kəmərlərinin yaranmasında Amerika Birləşmiş Ştatlarının daim diqqəti, dəstəyi, qayğısı olmuşdur. Şəxsən Prezident cənab Bill Klintonun bu məsələyə xüsusi münasibəti olmuşdur. Bilirsiniz ki, o, bu problem üzrə Prezidentin xüsusi səlahiyyətli səfirini təyin edibdir və həmin səfir vaxtaşırı Azərbaycana gəlirdi, Türkiyəyə, Gürcüstana gedirdi, bərabər işləyirdi. Yəni Bakı-Ceyhana Türkiyə və bizim kimi, eyni zamanda Amerika Birləşmiş Ştatları da maraqlı olmuşdur. Amerika Birləşmiş Ştatlarının bu məsələyə xüsusi münasibəti, verdiyi dəstək və göstərdiyi yardım, bir daha qeyd edirəm, şəxsən Prezident Bill Klintonun bu məsələ ilə məşğul olması, onu dəstəkləməsi nəhayət, bütün problemləri aradan qaldırdı və biz Bakı-Ceyhan neft kəməri haqqında müqaviləni imzaladıq.

Bilirsiniz ki, Bakı-Ceyhan neft kəməri haqqında Azərbaycandan çox Türkiyədə düşünürdülər. Türkiyədə belə bir ictimai rəy yaranmışdı ki, bu, Türkiyə üçün bir nömrəli problemdir. Bakı-Ceyhan anlayışı, demək olar ki, Türkiyənin hər bir vətəndaşının beynində idi. Mən bunun dəfələrlə şahidi olmuşam. Azərbaycana gələn jurnalistlərlə görüşümdə, Türkiyədə olarkən həm jurnalistlərlə, dövlət adamları ilə, həm də adi vətəndaşlarla görüşlərimdə həmişə birinci sual Bakı-Ceyhan barədə olubdur. Bəlkə də adi vətəndaşların bir qismi bunun mənasını həqiqətən heç bilmir. Ancaq bu, Türkiyə Cümhuriyyəti vətəndaşlarının beyninə bir ideal kimi həkk olunmuşdu. Ona görə də bu, bizim üçün nə qədər əhəmiyyətlidirsə, Türkiyə üçün ondan da çox əhəmiyyətlidir. Bakı-Ceyhan neft kəməri haqqında müqavilənin imzalanması, şübhəsiz ki, həm Türkiyə üçün, həm də bizim üçün çox böyük nailiyyətdir.

Təbiidir ki, burada Gürcüstan da çox böyük fayda götürəcəkdir. Prezident Eduard Şevardnadze imzalanma mərasimində dedi ki, Gürcüstanın nə nefti var, nə də qazı. O, qazı və nefti öz ərazisindən ya keçirə bilər, ya da keçirməyə bilər. Amma keçirmək keçirməməkdən faydalıdır. çünki keçirəndə fayda, gəlir götürəcəkdir.

Beləliklə, biz qardaş Türkiyə ilə beş il müddətində gördüyümüz işi başa çatdırdıq və imzalanma mərasimi çox yüksək səviyyədə keçdi. imzalanma mərasimində Amerika Prezidentinin iştirak etməsi və iki sənədə şəxsən imza atması, təbiidir ki, bu müqavilənin həm qiymətini, həm mahiyyətini qaldırıb, həm də onun həyata keçirilməsi üçün çox böyük imkanlar yaradıbdır.

Biz bu gün bu məsələni müzakirə edərkən deməliyəm ki, Azərbaycan neftçiləri Azərbaycan tarixində həmişə böyük xidmətlər göstəriblər. Noyabrın 7-də Neft daşlarının 50 illiyi tamam oldu. Onlar bunu Neft daşlarında təntənəli surətdə qeyd ediblər. Amma mən söz vermişəm ki, bunu respublika miqyasında qeyd edəcəyik və bu gün də bu sözlərimi təsdiq edirəm. Çünki bugünkü günlərin əsası o vaxt qoyulubdur. Bəli, indi biz haqqında müqavilələr imzaladığımız həmin o neft-qaz yataqları ötən 50 il müddətində Azərbaycanın alimləri, geoloqları, neftçiləri tərəfindən kəşf olunubdur. Bu, bir tərəfdən. İkinci tərəfdən isə 50 il müddətində Xəzər dənizində neft hasilatı ilə məşğul olan Azərbaycan neftçiləri əvvələn, böyük bir maddi-texniki bazanın yaranmasına səbəb olublar,- bunu onlar yaratmayıblar, amma onların iştirakı ilə bunu keçmişdə Azərbaycan dövləti, hökuməti yaradıbdır,- ikincisi isə çox yüksək səviyyəli mütəxəssislər hazırlanıbdır. O vaxt yaranmış maddi-texniki baza, çox yüksək səviyyəli neft-qaz sənayesi mütəxəssisləri - bunlar hamısı bizim bu gün gördüyümüz işlərin vaxtilə əsasını qoyubdur.

Ona görə də mən bu gün Azərbaycan neftçilərinə bir daha təşəkkürümü bildirirəm və bu "Əsrin müqaviləsi"nin və sonrakı müqavilələrin hazırlanıb imzalanmasında, xüsusən Bakı-Ceyhan neft kəməri barədə müqavilənin hazırlanmasında və nəhayət, həyata keçirilməsində Azərbaycan Dövlət Neft Şirkətinin xidmətlərini xüsusi qeyd edirəm. Neft şirkətinin prezidenti Natiq Əliyevin, birinci vitse-prezident İlham Əliyevin, vitse-prezident Xoşbəxt Yusifzadənin, Valeh Ələsgərovun xidmətlərini xüsusi qeyd edirəm.

İndi bizim qarşımızda yeni vəzifələr durur. Biz indiyə qədər çalışırdıq ki, müqavilə imzalansın. İndi isə bunu həyata keçirmək lazımdır. Təbiidir, mən bu sahədə göstərişlər vermişəm. Bu gün Natiq Əliyev məruzə etdi ki, onlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə artıq dünən danışıqlar aparıblar. Müəyyən sənədlər hazırlanmalıdır və böyük bir proqram tərtib edib həyata keçirməliyik.

İndi Qazaxıstanın da Bakı-Ceyhan neft kəmərinə qoşulması çox böyük bir hadisədir. Burada deyildi ki, Qazaxıstan öz neftini ixrac etmək üçün hələ 1990-1991-ci illərdən Qara dənizə neft kəməri çəkmək istəyir. Hələ indiyə qədər həmin kəməri çəkə bilməyibdir. Amma çəksələr də indi Bosfor boğazından onlar istədiyi qədər neft keçirmək mümkün olmayacaqdır. Ona görə də Qazaxıstan Bakı-Ceyhan neft kəmərinin reallığını artıq hiss edərək ona qoşuldu və Prezident Nursultun Nazarbayev İstanbulda bir sənədi imzaladı.

Burada artıq qeyd olundu,- biz elə bu kəmərsiz də Qazaxıstan neftini tankerlərlə, dəmir yolu vasitəsilə son neçə ildə buradan Qara dənizə çıxarırıq. Beləliklə, həm Qazaxıstana kömək edirik, həm də Azərbaycana gəlir gətiririk.

Mən qaz kəməri haqqında da demək istəyirəm. Bunun da çox böyük əhəmiyyəti vardır. Türkmənistan Prezidenti Saparmurad Niyazov imzalanma mərasimində açıqcasına dedi ki, onlar bu kəmərin çəkilməsi üçün 8 ildir alternativ yollar axtarırlar. Onlar bu qaz kəmərini bir neçə ölkədən keçirmək istəmişlər, amma bunların hamısı uğursuz olmuşdur. Lakin kəməri bu istiqamətdə keçirməyi həm istəyirdilər, həm də bir o qədər istəmirdilər. Nəhayət, gördülər ki, onlar üçün bundan uğurlu, faydalı yol yoxdur.

Təbiidir ki, Amerika Birləşmiş Ştatlarının bu barədə onlara çox böyük köməyi oldu. Nəhayət, onlar son qərara gəldilər və Transxəzər qaz kəməri haqqında da sənədlər imzalandı. Bu Azərbaycan üçün faydalıdır. Həm ona görə ki, tranzit bir ölkə kimi Azərbaycan bundan fayda götürəcəkdir. Həm də ona görə ki, bu xətt üzrə biz gələcəkdə Azərbaycanda ixrac oluna bilən miqdarda qazı ixrac edə biləcəyik. Biz eyni zamanda Türkiyə ilə xüsusi bir sənəd imzaladıq ki, gələcəkdə Türkiyə Azərbaycan qazının həm Türkiyəyə keçirilməsi, həm də Avropaya keçirilməsi haqqında öz üzərinə öhdəlik götürür.

Mən Azərbaycanın geostrateji vəziyyətini deyəndə, bax, qaz kəməri - budur. Amma təkcə bu deyil. Məsələn, indi Qazaxıstanın Azərbaycandan neft məhsulları keçirməsi, Bakı-Ceyhana qoşulması, Türkmənistan qazının Azərbaycandan keçməsi və Böyük İpək yolunun bərpası ilə əlaqədar bir çox başqa işlər görülməsi, şübhəsiz ki, Azərbaycanın nə qədər əhəmiyyətli geostrateji mövqeyi, vəziyyəti olduğunu göstərir. Məhz buna görə də mən deyirəm ki, Azərbaycanın milli, təbii sərvətləri qaz və neft, bir də Azərbaycanın geostrateji vəziyyətidir.

Biz İpək yolunun bərpası ilə əlaqədar çox işlər görmüşük. 1998-ci ilin sentyabr ayında Azərbaycanda beynəlxalq konfrans keçirildi. Bu sahədə tədbirlər həyata keçirilir. Beləliklə, Azərbaycanda bütün komunikasiya xətləri daha da çox yüklənəcəkdir. Bu, Azərbaycanda yeni iş yerləri açacaq və ölkəmizə yeni-yeni gəlirlər gətirəcəkdir.

Bunlar həm bu gün üçündür, ancaq ən çox gələcək üçün, gələcək nəsillər üçündür. Mən çox xoşbəxtəm ki, bizim üzərimizə, şəxsən mənim üzərimə bu gün Azərbaycanın müstəqilliyini qorumaq, saxlamaq, inkişaf etdirmək və xalqımızın gələcək nəsillərinə xoşbəxt, firavan, sülh şəraitində olan bir həyat yaratmaq üçün belə bir missiya düşübdür.

Təbiidir ki, Bakı-Ceyhan neft və Xəzər qaz kəmərlərinin siyasi əhəmiyyəti də vardır. Biz bunu inkar etmirik. Elə bu həm iqtisadi, həm də siyasi maraqlara görə bizim imzaladığımız bu sənədlər bəzi ölkələrdə çox etiraz hissi ilə qəbul olunubdur. Bəziləri hesab edirlər ki, bunun əsası yoxdur. İndi onlar belə düşünülməmiş bəyanatlar verirlər. Əgər əsası olmasaydı, dünya onun üzərində bu qədər çalışardımı? Bunu təkcə biz etməmişik. Söyləyirlər ki, bunun əsası yoxdur və sair. Bəziləri narazıdır ki, bu kəmər niyə onun ölkəsindən keçməyibdir. Yenə də deyirəm, - birincisi, bu, kommersiya prinsiplərinə söykənir. Şübhəsiz ki, ikincisi, də bunun siyasi əhəmiyyəti vardır. Bu, Azərbaycanın müstəqilliyini bir daha nümayiş etdirir, Azərbaycanın müstəqilliyinin dönməzliyini nümayiş etdirir və Azərbaycanın müstəqil siyasət aparmasını nümayiş etdirir.



Bu müqavilə eyni zamanda regionda sülhün və təhlükəsizliyin yaranmasına xidmət edəcəkdir. Xatirinizdədir, Prezident Bill Klinton imzalanma mərasimində öz çıxışında həm müstəqillik ilə, həm də regionda sülhün, təhlükəsizliyin yaranması ilə əlaqədar bunu xüsusi vurğuladı. Bu, həqiqətən də belədir. Dövlətlərarası, ölkələrarası nə qədər belə kommunikasiyalar yaransa və bu, Avropa ilə Mərkəzi Asiyanı birləşdirən kommunikasiyalar olsa həm Qafqazda, həm də Mərkəzi Asiyada sülhün yaranmasına, təhlükəsizliyin təmin olunmasına o qədər təminat yaradacaqdır. Bizim üçün isə bu, hər şeydən əhəmiyyətlidir, hər şeydən önəmlidir.

Bilirsiniz ki, İstanbul zirvə görüşündə ümumi toplantılardan başqa, mənim fərdi görüşlərim də çox olmuşdur. Birincisi, çox məmnunam ki, siz - burada çıxış edənlər mənim Azərbaycan dövləti haqqında orada dediyim sözləri, nitqimi qiymətləndirirsiniz. Həqiqətən də, orada reqlamentin az olmasına baxmayaraq, mən Azərbaycan üçün çox əhəmiyyətli olan fikirləri o qısa zamanda irəli sürdüm. Tamamilə düz deyirsiniz ki, bu fikirlərin içərisində Cənubi Qafqazda sülh və təhlükəsizlik və əməkdaşlıq paktının yaradılması fikri çox dəyərli təklifdir. Ona görə demirəm ki, bunu mən etmişəm. Ancaq bu, təkcə bizim üçün yox, bütün Cənubi Qafqaz, hətta bütün Qafqaz üçün lazımdır. Biz bu sahədə öz işimizi aparacağıq. Mən orada həm Amerika Birləşmiş Ştatlarına, həm Avropa birliyinə daxil olan ölkələrə, həm də Rusiyaya, Türkiyəyə, Gürcüstana, Ermənistana və ATƏT-in marağı olan bütün digər üzvlərinə müraciət etdim ki, onlar belə bir paktın yaranmasında iştirak etsinlər, ona qoşulsunlar. Təbiidir ki, bu fikir gərək həzm olunsun, təhlil edilsin, gərək onun yolları araşdırılsın. Amma hesab edirəm ki, bu, Cənubi Qafqazın, ümumiyyətlə Qafqazın gələcəyi üçün çox əhəmiyyətli bir təklifdir və sammitdə çox yaxşı qarşılanmışdır.

Adi silahlar haqqında müqavilənin imzalanması barədə burada məlumat verildi. Mən sammitdən əvvəl də bu barədə vəziyyəti demişdim. Onu bildirmək istəyirəm ki, bizim ekspertlərimiz, xarici işlər nazirliyinin əməkdaşları Vyanada - ATƏT-in hazırlıq qərargahı orada idi - son günə qədər mübahisə aparıblar. Yəni biz dörd ildir ki, müqavilənin imzalanmasını öz müqavimətimizlə saxlamışdıq.

İndi bəziləri deyir ki, bəs niyə razılıq verdiniz? Belə vəziyyətdə,- mən öz nitqimdə demişdim,- bizim bölgədə böyük hərbiləşmə, silahlanma getdiyi bir zamanda və Dağlıq Qarabağda nəzarətsiz silahların olduğu bir zamanda, Azərbaycanın kvotasının da az olduğu halda biz bu müqavilənin imzalanmasına razılıq veririk. Çünki bilin ki, - burada deyildi, - 92-ci ildə Azərbaycana edilmiş xəyanəti aradan götürmək, sadəcə, mümkün deyildir. Əgər bu, təkcə bizimlə hansısa ölkənin arasında olsaydı, mümkün idi. Mən bunu izah etmişəm, çünki əsas müqavilə vaxtilə NATO ilə Varşava paktı arasında olubdur. Sonra isə bütün bu danışıqlar Qərblə Rusiya arasında gedir. Biz bu dəfə də müqavimət göstərsəydik, müqaviləni imzalamasaydıq, ola bilər, imzalanmayaydı. Yaxud da imzalanardı, amma bizim imzasız, çünki buna bəlkə də konsensus lazım deyildir.

Ancaq nə udacaqdıq? Mən bunu demişəm, yenə də deyirəm: bu müqavilənin imzalanması müasir şəraitdə adi silahlara nəzarət üçün və onların harada yerləşməsinə, cinah prinsiplərinə əsasən yerləşməsinə nəzarət üçün lazımdır. Ona görə də biz imzaladıq. Ancaq əgər 92-ci ildə, Azərbaycanın sahibsiz olduğu bir zamanda,- 92-ci ilin mayında Azərbaycan sahibsiz, hakimiyyətsiz vəziyyətdə olarkən,- üç nəfər adam, yəni Rəhim Qazıyev, Əzizbəyov,- onu bu gün heç tanıyan da yoxdur,- gedib Azərbaycanın adından imza ediblər. Abbas Abbasov da orada olubdur. Şübhəsiz ki, bu imzalama xəyanətdir və bu xəyanətin acı nəticələrini biz bu gün də görürük. Amma başqa yolumuz yox idi, məcbur idik və biz müqaviləni imzaladıq.

Sammit zamanı mənim bir neçə görüşlərim olubdur. Bu görüşlərin də əsas mövzusu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə həsr edilmişdi. Bilirsiniz ki, mən bu məsələni Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klintonla çox ətraflı müzakirə etdim, Fransanın Prezidenti cənab Jak Şirakla müzakirə etdim,- bunlar ATƏT-in Minsk Konfransının həmsədrləridir, - Almaniyanın kansleri cənab Şröderlə müzakirə etdim, çünki Almaniya Minsk qrupunun üzvüdür. Təbiidir ki, biz bu məsələni Türkiyənin Prezidenti cənab Süleyman Dəmirəllə daim müzakirə edirik. Başqa həmkarlarımızla - Gürcüstan, Qazaxıstan, Ukrayna ilə və MDB-yə daxil olan digər dövlətlərlə müzakirə edirik.

Bu məsələyə xüsusi görüş həsr olundu. Amerika Birləşmiş Ştatlarının xarici işlər naziri xanım Olbrayt, Fransanın xarici işlər naziri cənab Vedrin və Rusiyanın xarici işlər naziri cənab İvanov - bunlar ATƏT-in Minsk qrupunda həmsədrlərdir-Ermənistan və Azərbaycan prezidentləri ilə görüş keçirdilər. Biz görülən işlərə müəyyən qədər təhlil verdik və bundan sonra nə etmək lazım olduğunu bildirdik.



Hər halda bütün bu görüşlərimiz, danışıqlarımız zamanı mən Azərbaycanın milli mənafelərini müdafiə etmişəm və bundan sonra da müdafiə edəcəyəm. Mən bu barədə - Ermənistan-Azərbaycan münaqişəsi haqqında Budapeşt sammitində də çox geniş danışmışdım, Lissabon sammitində də geniş danışmışdım. Budapeşt sammitində irəliləyiş əldə etdik, xüsusi qərar qəbul olundu, ATƏT üçün ilk dəfə sülhü mühafizə qüvvələri yaradılması qərara alındı. Biz bunun məhz bizim münaqişənin həll edilməsi üçün yaradılmasına çalışdıq, çünki o vaxta qədər ATƏT-in sülhməramlı qüvvələr yaratmaq səlahiyyəti yox idi.

Lissabon sammitində biz, bilirsiniz ki, sammiti pozmaq dərəcəsinə gəlib çatdıq və bunun nəticəsində ATƏT-in sədrinin bəyanatı qəbul olundu. Biz yenə, bu dəfə də məsələnin sülh yolu ilə həll edilməsi üçün mümkün olan işləri gördük, şəxsən mən gördüm.

Mən bu gün bir daha bəyan edirəm ki, biz atəşkəs rejiminə bundan sonra da sadiq qalacağıq və məsələnin yalnız sülh yolu ilə həll olunmasına çalışacağıq. Ancaq məlumdur və bir daha sizə demək istəyirəm ki, hamı, ictimaiyyət də bilsin ki, dünyada, hər halda ATƏT regionunda olan münaqişələrdən ən çətin, ən ağır münaqişə, ən uzunmüddətli münaqişə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir.

Təəssüflər olsun ki, bu münaqişə yarananda indiyə qədər beynəlxalq birlikdə bunu Dağlıq Qarabağ münaqişəsi adlandırıblar. Biz isə buna daim Ermənistan-Azərbaycan münaqişəsi deyirik. Ona görə Dağlıq Qarabağ münaqişəsi adlandırırlar ki, əvvəldən belə qəbul olunub ki, Dağlıq Qarabağın erməniləri öz müqəddəratını təyin etmək prinsipinə əsaslanaraq, Azərbaycan hakimiyyətindən narazılığını bildirərək bu yola düşmüşlər və ona görə də münaqişə başlanmışdır. Amma əslində bu münaqişə Ermənistanla Azərbaycan arasında yaranmış münaqişədir.

Deyirlər ki, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri var. Bəli, dörd qətnamə var. Təhlükəsizlik Şurası sədrinin bu barədə beş ya altı bəyanatı var. Ancaq onların heç birisi icra olunmur. Ona görə ki, Birləşmiş Millətlər təşkilatında daim bizə deyirlər ki, qətnamə qəbul edirik, amma onun icra olunması mexanizmi və bunun üçün səlahiyyətimiz yoxdur. Bu, aydın bir şeydir, bunu hamı bilməlidir. Biz nə edəcəyik, Birləşmiş Millətlər Təşkilatını vurub dağıdacağıqmı? Nə edəcəyik? Vəziyyət bundan ibarətdir.

Məsələn, bilirsiniz ki, İstanbulda Rusiyanın Çeçenistan münaqişəsi məsələsi çox geniş yer tutdu. Qərb ölkələrindən çıxış edənlərin demək olar ki, əksəriyyəti Rusiyanı çox günahlandırdılar ki, orada insan haqlarını pozurlar, dinc əhalini bombalayırlar və insan haqlarına uyğun olmayan başqa işlər görürlər. Çox kəskin çıxışlar oldu. Rusiya da özünü müdafiə

etməyə çalışdı ki, o, insanların yox, terrorizmin əleyhinə müharibə aparır.

Eyni zamanda hamı deyir ki, Rusiyanın ərazi bütövlüyünü dəstəkləyirik. Amma məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edin. Rusiya xüsusilə sammitdə aldığı zərbələrdən sonra deyir ki, bəli, biz danışıqlar yolu ilə həll edirik. Son iki-üç gündür deyirlər ki, Qroznını daha bombalamayacağıq, Açkoy-martanı, Qudermesi heç güllə atmadan tutduq, bundan sonra da belə tutacağıq. Bilirsiniz, bu, çox dəhşətli və çoxlu qan tökülmüş bir münaqişədir. Rusiya kimi nəhəng bir dövlət bu münaqişəni özünün tərkibində olan və bu münaqişəni yaratmış xalq kimi heç bir başqa ölkə tərəfindən dəstəklənməyən öz respublikası ilə aparır. Amma görürsünüz, Rusiyanı günahlandırırlar, ancaq çeçenləri günahlandırmırlar.

Rusiya kimi bir dövlət öz böyük hərbi gücü - təyyarələri, raketləri, bombaları, əsgərləri və s. ilə neçə ildir, dörd-beş-altı ildir orada qan tökür, öz ərazi bütövlüyünü saxlamaq istəyir. Amma bunu saxlaya bilmir. ATƏT-in üzvlərinin də hamısı onu bu müharibəni apardığına görə qınayır. Belə halda demək ki, "gəlin biz müharibə edək, torpaqlarımızı müharibə ilə geri alaq", - bu, müasir dünyada nə qədər qəbul olunan bir şeydir?

Mən keçən dəfə bizim hörmətli yazıçılarla danışanda dedim, bu gün də deyirəm,- bəli, ordumuz var, bizim ordumuz müharibə edə bilər. Amma indi müharibəni başlayan tərəf dərhal bütün dünya ictimaiyyəti tərəfindən günahlandırılacaq və müharibənin dayandırılması tələb olunacaqdır. Bu münaqişə ona görə ən çətin münaqişədir ki... Çeçenistan münaqişəsi kimi ağır münaqişədə çeçenlərin dalında bir ölkə də durmur, - deyirlər ki, Ərəbistandan, nə bilim, haradansa onlara silah gəlir, yaraqlılar gəlir, bu başqa,- amma bir ölkə də onu müdafiə etmir. Yəni onu tanıyan bir ölkə yoxdur.

Məsələn, Moldovada Pridnestrovye münaqişəsi var. Düzdür, orada vuruşma yoxdur, amma Pridnestrovye özünü müstəqil aparır və Moldovanın mərkəzi hökumətinə tabe olmur. Orada da Rusiyanın böyük ordu hissəsi var. Amma Pridnestrovyenin də dalında duran bir hökumət yoxdur. Rusiya onu belə müdafiə edir ki, bəli, bu münaqişəni sülh yolu ilə, danışıqlar yolu ilə həll etmək lazımdır.

Məsələn, Gürcüstanda Abxaziya münaqişəsini götürək. Abxaziya münaqişəsinidə, Abxaziyanın dalında dayanan bir hökumət yoxdur. Yəni o millətə bağlı, o millətdən eyni olan biri yoxdur. Abxaziyanı da altdan-altdan müdafiə eləyənlər var və Gürcüstan bunu dəfələrlə bəyan edibdir.

Yəni bunlar hamısı hər bir ölkənin daxili işi kimi qiymətləndirilir. Çeçenistan münaqişəsi də elə qiymətləndirilir, Moldovada olan münaqişə də elə qiymətləndirilir, Gürcüstanda olan münaqişə də elə qiymətləndirilir.



Amma Azərbaycandakı bizim ölkənin daxili işi deyildir. Biz Ermənistanla müharibədəyik. Ancaq heç kəs bunu qəbul etmir ki, müharibə Ermənistanla Azərbaycan arasında gedir. Deyirlər ki, bu, Azərbaycanın daxili işidir. Ermənistan, sadəcə, Dağlıq Qarabağı dəstəkləyir, ona kömək edir.

Əgər Abxaziyanın dalında ATƏT-in üzvü olan Ermənistan kimi bir dövlət olsaydı, şübhəsiz ki, ATƏT-in zirvə görüşlərində onu müdafiə edəcəkdi və buna başqa cür baxılacaqdı. Amma yenə də deyirəm, dünyada heç bir münaqişə yoxdur ki, bu, iki ölkə arasında olsun. Adətən, ayrı-ayrı dövlət qrupları arasında olan münaqişələrdir.

Ona görə bu, çox çətindir, çox ağırdır. Mənim danışıq apardığım dövlət başçılarının hamısı bizim ədalətli olduğumuzu, ərazi bütövlüyümüzün təmin edilməsini, məsələnin sülh yolu ilə həllini daim dəstəkləyirlər və təsdiq edirlər. Ancaq axırda deyirlər ki, siz gedin Ermənistanla danışın, ya da Dağlıq Qarabağın "hökuməti" ilə danışın. Axırda bunu deyirlər.

Bilirsiniz, bu münaqişənin yaranması zamanı və sonra müharibəyə çevrilməsi zamanı buraxılan səhvlər Azərbaycanı gətirib bu ağır vəziyyətə salıbdır. Mən sizə deyə bilərəm ki, münaqişə nöqteyi-nəzərindən Azərbaycan kimi ağır vəziyyətə düşən ikinci bir ölkə yoxdur. Əgər nəzərə alsanız ki, Ermənistanda Rusiyanın hərbi bazaları var və axır zamanlar Rusiyadan Ermənistana gətirilən ən müasir silahlar və təyyarələr var,bunların bir qismi Dağlıq Qarabağa keçibdir,- görün vəziyyət nə qədər mürəkkəbdir.

Bunu dərk etmək lazımdır. Qəzetdə yazmaq, nə bilim, yığışıb bəyanat vermək - bunlar asan şeylərdir. Amma bu dərdi çəkmək və onu həll etmək nə qədər səy tələb edir. Bu səyləri də biz ardıcıl olaraq qoyuruq. Bu dəfə də bu məsələ İstanbulda mənim bütün danışıqlarımın mərkəzində olubdur. Amerikanın Prezidenti cənab Bill Klintonla danışarkən, şübhəsiz ki, vaxtilə Azərbaycana qarşı qəbul olunmuş ədalətsiz 907-ci maddənin götürülməsini xahiş etdim. Yanında olan işçilərinə - xarici işlər naziri xanım Olbrayta, təhlükəsizlik məsələləri üzrə köməkçisi Semüel Bergerə, başqalarına yenə də göstəriş verdi ki, baxın.

Amma bu, birinci göstəriş deyildir. 97-ci ilin avqust ayında mən rəsmi səfərdə olarkən biz Ağ evdə birgə bəyanat imzalamışıq. Bu bəyanatda göstərilibdir ki, Amerika Birləşmiş Ştatlarının hökuməti 907-ci maddənin ləğv olunması üçün lazımi tədbirlər görəcəkdir. İki ildən çox keçibdir. Bu dəfə yenə demişəm. Amma dərd ondan ibarətdir ki, həqiqətən orada, Konqresdə ermənipərəst qüvvələr həddindən artıq çoxdur.

İki gün bundan öncə mən Amerika Birləşmiş Ştatlarının keçmiş xarici işlər naziri İqlbergeri qəbul edirdim. Amerika Birləşmiş Ştatlarında onunla bir neçə dəfə görüşmüşəm, təcrübəli adamdır və bu sahədə də öz məsləhətlərini verir. Onunla da danışanda deyir ki, məsələ Konqresdə qoyulmuşdu, baxılırdı. Braunbəkin İpək yolu haqqında bir qərar layihəsi var idi, bu ilin aprel ayında biz onu müzakirə etdik. Orada Prezidentin təhlükəsizlik məsələləri üzrə köməkçisi Semüel Berger də çıxış etdi, keçmiş dövlət katibi Beyker də çıxış etdi, Bjezinski də çıxış etdi. Bütün prezidentlər - Azərbaycan, Gürcüstan, Türkiyə Prezidentləri, Mərkəzi Asiya ölkələrinin prezidentləri çıxış etdilər. Bəli, İpək yolu haqqında qanun Senatda qəbul olundu və bir müddət çox güclü irəliləyirdi. Ancaq sonra yenə də səs toplaya bilmədi.

Orada respublikaçı Doul var - ermənilərin yaxın dostu. Mənə deyirlər ki, o, bir neçə gün Konqres, Senat üzvlərinin əksəriyyətinə telefon edib ki,- onların çoxu ilə dostdur, tanışdır,- siz bunun əleyhinə səs verin. Onlar da əleyhinə səs veriblər. Reallıq, həqiqət bundan ibarətdir.

Amma ola bilərdi ki, biz bu vəziyyətə düşməyəydik. Əgər 92-ci ildə hakimiyyətdə olan, indi bu barədə hər gün bir fikir söyləyən qüvvələr - Xalq Cəbhəsi, Müsavat, başqası, müxalifət qrupundakılar o vaxt hamısı bir yerdə hakimiyyətdə idilər, Azərbaycanın milli mənafelərini anlaya bilsəydilər, yaranmış vəziyyəti anlaya bilsəydilər, gərək düşünəydilər ki, Azərbaycana qarşı belə ədalətsiz qərar qəbul edilməsinə imkan verməli olmaz. Amma onların səhv siyasəti nəticəsində belə vəziyyət yarandı və Amerika da bildirdi ki, Azərbaycan Ermənistanı blokadaya alıb, o qərarı qəbul elədilər. Yeddi il bundan qabaq qəbul olunub, biz indi də onu ləğv etdirə bilmirik. Qəbul olunmasının səbəbkarları da onlardır, indi bizi tənqid eləyənlər də. Biz isə əlimizdən gələni edirik, amma bunu ləğv etdirə bilmirik.

Mən dedim və Prezident Bill Klinton yenə söz verdi, göstəriş də verdi. Görək nə təhər olacaqdır. İpək yolu haqqındakı həmin layihəyə də yenə baxılacaqdır. Sonra, yəqin qəzetdə oxudunuz, Konqresmen Kinq yenə də bu barədə çıxış edibdir. Yəni orada Azərbaycanı dəstəkləyən qüvvələr artır, artır, artır.

Beləliklə, mən hesab edirəm ki, biz sammitdə səmərəli iş görmüşük. Bizim üçün həlli vacib olan məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında lazım olan bütün məlumatları yenidən vermişik. Öz fikirlərimizi, mövqelərimizi bildirmişik. Orada çıxışlarda, sonra mənimlə şəxsi söhbətlərdə və həmsədr olan üç ölkənin xarici işlər nazirlərinin Azərbaycan, Ermənistan prezidentləri ilə görüşündə Ermənistan və Azərbaycan prezidentlərinin son vaxtlar keçirilən bilavasitə görüşləri yüksək qiymətləndirilir və buna çox ümid bəsləyirlər. Əgər doğrudan da biz bir şeyə nail olsaq, dərhal lazım olan bütün yardımların ediləcəyi barədə söz verirlər.



Ancaq mən bunların nəticəsi haqqında da hələ bir şey deyə bilmərəm. Bilirsiniz ki, bu danışıqlar gedirdi, Ermənistanda baş vermiş hadisələrlə əlaqədar bir az kəsilibdir. Yəqin ki, nə vaxtsa bərpa olunacaqdır. Hər halda biz bütün vasitələrdən istifadə edirik və etməliyik.

Beləliklə, ATƏT-in İstanbul zirvə görüşü Azərbaycanın milli mənafeləri, bunların müdafiə edilməsi üçün, reallaşdırılması üçün yeni bir mərhələ oldu. Bakı-Ceyhan və Transxəzər boru kəmərləri layihələrinə dair İstanbulda sənədlərin qəbul edilməsi böyük tarixi hadisə oldu. Bizim vəzifəmiz həm ATƏT-in qəbul etdiyi sənədlərdən irəli gələn vəzifələri həyata keçirmək, həm də özümüzün neft strategiyamızı davam və inkişaf etdirmək, konkret olaraq Bakı-Ceyhan neft kəməri haqqında əməli işlər görməkdir.

Biz beynəlxalq birlikdə bərabər hüquqlu dövlət, xalq olduğumuzu bir daha, bir daha dünyaya nümayiş etdirdik. Azərbaycanın dövlət müstəqilliyini bir daha, bir daha nümayiş etdirdik və bəyan etdik ki, Azərbaycanın dövlət müstəqilliyi daimidir və əbədidir. Biz bir daha nümayiş etdirdik ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir, Azərbaycan ATƏT-in bütün tələblərinə cavab vermək üçün, Helsinki aktının prinsiplərinə uyğun olmaq üçün lazımi tədbirləri görür və bundan sonra da görəcəkdir. İstanbul xartiyasında irəli sürülmüş müddəaların həyata keçirilməsi üçün lazımi tədbirlər görəcəyik və bunu görməyə qadirik. Biz bir daha, bir daha sübut etdik ki, Azərbaycan yaşayır və yaşayacaq, Azərbaycanın işğal olunmuş torpaqları sülh yolu ilə azad ediləcək, didərgin düşmüş vətəndaşlarımız öz yerinə-yurduna qayıdacaqlar.

Görülən işlər Azərbaycanın sosial-iqtisadi inkişafının gözəl perspektivlərini açır. Biz bu perspektivləri yaratmışıq və irəliləyəcəyik. Əminəm ki, Azərbaycan ilbəil iqtisadi cəhətdən inkişaf edəcək və biz Azərbaycan xalqının rifah halının yaxşılaşmasını təmin edəcəyik.

Sağ olun, təşəkkür edirəm.

***Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı.***

# ƏLAVƏLƏR

*İmzalanmış sənədlər*

*Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ATƏT-in İstanbul Zirvə görüşü ilə əlaqədar Türkiyəyə səfərinin proqramı*

*Qeydlər*

*Şəxsi adların göstəricisi*

# İmzalanmış sənədlər

ATƏT-in Zirvə görüşü çərçivəsində:

*Avropa Təhlükəsizliyi Xartiyası*

*İstanbul Zirvə görüşünün Bəyannaməsi*

*Avropada adi silahlı qüvvələr haqqında müqavilənin iştrakçısı olan dövlətlərin konfransının Yekun aktı*

*Avropada adi silahlı qüvvələr haqqında müqavilənin adaptasiyası barədə Saziş*

QİƏT-in Zirvə görüşü çərçivəsində:

*Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının İstanbul görüşünün Bəyannaməsi*

Şərq-Qərb enerji dəhlizi çərçivəsində:

*Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Gürcüstan və Qazaxıstan Respublikası arasında İstanbul bəyannaməsi*

*Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri (ƏİBK) vasitəsi ilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Sazış*

*Türkiyə Cümhuriyyətinin Hökuməti və ƏİBK Sərmayəçiləri arasında Tranzit ərazisinə malik ödkənin hökuməti ilə Saziş*

*Gürcüstan hökuməti və ƏİBK Sərmayəçiləri arasında Tranzit ərazisinə malik ödkənin hökuməti ilə Saziş*

*Əsas İxrac Boru Kəmərinin əvvəlcədən müəyyən olunmuş qiymət və zaman əsasında tikilməsi haqqında ƏİBK Sərmayiçiləri və Türkiyə Cümhuriyyətinin təyin etdiyi İnşa Podratçısı arasında Saziş.*

*Əsas İxrac Boru Kəmərinin əvvəlcədən muəyyən olunmuş qiymət və zaman əsasında tikilməsinə Türkiyə Cümhuriyyəti hökumətinin Təminat Sazişi.*

*Azərbaycan Respublikasının hökuməti və ƏİBK Sərmayəçiləri arasında Tranzit ərazisinə malik ödkənin hökuməti ilə Saziş*

*Transxəzər boru kəməri layihəsinin həyata keçirilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti və Türkmənistan Dövləti arasında Transxəzər boru kəmərinin həyata keçirilməsi prinsiplərinə dair Hökumətlərarası Bəyannamə*



**ATƏT-in İstanbul Zirvə görüşünün Bəyannaməsindən:**

20. Biz Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar yaranmış vəziyyət və son hadisələr barədə ATƏT-in Minsk qrupunun həmsədrlərinin məruzəsini almışıq və onların səylərini müsbət qiymətləndiririk. Ermənistan və Azərbaycan prezidentləri arasında dialoqun canlanması bizi xüsusən sevindirir. Onların müntəzəm görüşləri bu problemin möhkəm və hərtərəfli həlli yollarının axtarışı prosesinin dinamikləşdirilməsi üçün şərait yaratmışdır. Biz bu dialoqu qətiyyətlə dəstəkləyirik və onu davam etdirməyə çağıraraq ATƏT-in Minsk qrupu çərçivəsində danışıqların bərpa olunmasına ümid edirik. Eyni zamanda biz təsdiq edirik ki, nizamasalma yollarının axtarışı üçün ən münasib format olaraq qalan ATƏT və Minsk qrupu sülh prosesinin irəliləməsinə və onun gələcəkdə gerçəkləşməsinə kömək göstərməyə, o cümlədən tərəflərə hər cür lazımi yardım göstərməyə hazırdırlar.

21. Biz bu il Yerevanda ATƏT Bürosunun açılmasını və Bakıda belə bir Büronun açılması barədə qərarı alqışlayırıq. Bu addımlar ATƏT-ə Ermənistan və Azərbaycan ilə əməkdaşlığı möhkəmləndirməyə imkan verəcəkdir.

**Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinin həyata keçirilməsinə dair İstanbul Bəyannaməsi**

Şərq-Qərb enerji dəhlizi çərçivəsində Əsas İxrac Boru Kəməri kimi Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsində 29 oktyabr 1998-ci ildə imzalanmış Ankara Bəyannaməsini inkişaf etdirərək Türkiyə, Gürcüstan və Azərbaycanın İşçi Qrupları Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərini həyata keçirmək üçün Sazişlər qovluğuna dair razılığa gəlmişlər. Bu Layihə Xəzər hövzəsində və Mərkəzi Asiyada çıxarılmış nefti Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə nəql edəcəkdir. 18 noyabr 1999-cu il tarixində Azərbaycan, Gürcüstan və Türkiyə Hökumətlərarası sazişi imzalanmış və Tranzit ərazisinə malik ölkənin hökuməti ilə sazişləri paraflamışlar. Bundan əlavə Türkiyə ilə Əsas İxrac Boru Kəmərinin əvvəlcədən müəyyən olunmuş qiymət və zaman əsasında tikilməsi haqqında Saziş və Hökumət Təminatı Sazişi yekunlaşdırılmışdır.

Bölgənin neft ehtiyatlarının ətraf mühit üçün təhlükəsiz, etibarlı və kommersiya baxımından əlverişli marşrutlarla nəql edilməsinə dair öz məqsədlərinə çatmaq məqsədilə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cumhuriyyətinin Hökumətləri aşağıdakılara razılaşmışlar:

- ölkələrin və bütövlükdə bölgənin iqtisadi və siyasi inkişafına təkan vermək məqsədilə, Xəzər hövzəsinin və Mərkəzi Asiyanın neft ehtiyatlarının işlənməsini və onların ətraf mühit üçün təhlükəsiz, etibarlı və kommersiya baxımından əlverişli boru kəmərləri ilə dünya ixrac bazarlarına vaxtında nəql edilməsini təmin etmək üçün bütün lazımi addımları atmaq;

- qısa müddətli qərarlardan fərqli olaraq Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərini dəstəkləmək;

- Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin sərmayəçiləri üçün əlverişli şərait yaratmaq və onların hüquqlarını təmin etmək məqsədilə, özlərinin müvafiq ölkələrində Hökumətlərarası sazişin ən qısa zamanda ratifikasiyası və qəbul edilməsi üçün öz səlahiyyətləri çərçivəsində bütün lazımi tədbirləri görmək;

- Bu layihəni 2004-cü ilədək həyata keçirmək üçün bütün lazımi fəaliyyəti öhdələrinə götürmək;

- Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə müəyyən neft həcmlərini nəql etmək üzrə uzunmüddətli öhdəlik götürmək və xüsusi və beynəlxalq maliyyə təşkilatlarından maliyyələşdirməni sürətləndirmək üçün Xəzər hövzəsi və Mərkəzi Asiyadakı neft hasilatçılarını dəvət etmək;

- Layihəni hazırlamaq, lazımi layihələşdirməni yekunlaşdırmaq, neft həcmləri öhdəliyini təmin etmək və maliyyə yollarını hazırlamaq məqsədilə ən qısa müddətdə işçi qrup yaratmaq.

Onlar öz hazırdakı öhdəliklərinə zərər vurmadan və əvvəlcədən ifadə etdiyi istəyini təkrar təsdiq edərək Qazaxıstanda çıxarılan neftin xeyli miqdarının Bakı-Tbilisi-Ceyhan Əsas İcrac Boru Kəməri vasitəsilə dünya bazarına nəql edilməsini təmin edəcəyi barədə Qazaxıstan hökumətinin Bəyannaməsini (qoşma) alqışlamışlar.

Onlar həmçinin bir daha təsdiq etmişlər ki, neftin boru kəmərləri vasitəsilə dünya bazarına nəql edilməsi, xüsusilə Türkiyə boğazlarında tanker nəqliyyatının potensial artması səbəbindən ətraf mühitin, həyatın, əmlakın və nəqliyyatın mühafizəsinə təhlükə və risklərin qarşısının alınması üçün əvəzedilməzdir.

***1999-cu il noyabrın 18-də İstanbulda imzalanmışdır***



**Azərbaycan Respublikasının Prezidenti**
**cənab Heydər Əliyevin ATƏT-in İstanbul Zirvə görüşü ilə əlaqədar**
**Türkiyəyə səfərinin**
**PROQRAMI**
***(İSTANBUL, 17-20 NOYABR 1999-CU IL)***

**17 noyabr, çərşənbə**

| | |
|---|---|
| 13.00 | Xüsusi təyyarənin İstanbul şəhərinin "Atatürk" hava limanına gəlişi |
| | Qarşılanma mərasimi |
| | İqamətgaha gediş və yerləşmə ("Konrad" mehmanxanası) |
| 17.30 | Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 5-ci Zirvə görüşünə gəliş |
| 17.30-18.00 | Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 5-ci Zirvə görüşü |
| | Zirvə görüşünün açılış mərasimi |
| | Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəl Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarını salamlayır |
| | Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının İcraçı sədri Moldova Respublikasının Prezidenti cənab Petru Luçinski təşkilatın üzvü olan ölkələrin dövlət və hökumət başçılarını salamlayır |
| | Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının çıxışları |
| | Zirvə görüşü qətnaməsinin qəbulu |
| | Zirvə görüşünün bağlanış mərasimi |
| 18.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin "Konrad" mehmanxanasına gedişi |
| 19.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin "Lütfi Kirdar Mərkəzi"nə gəlişi |

19.30 Mədəni proqram (Lirik-tarixi tamaşa)

21.00 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin "Lütfi Kirdar Mərkəzi"ndən iqamətgaha gedişi

**18 noyabr, cümə axşamı**

08.06 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin "Konfrans Mərkəzi"nə gəlişi ("Çırağan sarayı")
Qarşılayırlar: Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəl və Türkiyə Respublikasının xarici işlər naziri

09.00-12.30 ATƏT-in İstanbul Zirvə görüşünün açılış mərasimi və səhər iclası

Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəlin çıxışı

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının İcraçı sədrinin çıxışı

Birləşmiş Millətlər Təşkilatının Baş katibi cənab Koffi Annanın çıxışı

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının sədri xanım Helle Denin çıxışı

11.40-12.00 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Ermənistan Respublikasının Prezidenti cənab Robert Koçaryan ilə görüşü

12.00-12.30 Azərbaycan və Ermənistan prezidentlərinin, ATƏT-in İcraçı sədrinin və ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin xarici işlər nazirlərinin görüşü

12.30-13.00 Birgə şəkilçəkdirmə mərasimi

13.00-14.30 Türkiyə Respublikasının Baş naziri cənab Bülənd Ecevitin adından Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı üzvü olan ölkələrin dövlət və hökumət başçılarının şərəfinə nahar ("Çırağan sarayı", "Bellini" restoranı)



15.00-17.00 Gündüz iclası

15.00-15.30 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin İsrail Dövlətinin Baş naziri cənab Ehud Barak ilə görüşü

15.30-16.30 Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə əlaqədar sənədlərin imzalanması mərasimi ("Çırağan sarayı")

20.00 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəlin adından Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının şərəfinə verilən ziyafətə gəlişi ("Sviss-Bosfor" mehmanxanası)

Dövlət və hökumət başçılarının Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəl və xanımı Nəzmiyyə Dəmirəl salamlayırlar ("Boll-rum" zalının foyesi)

20.00-20.30 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Fransa Respublikasının Prezidenti cənab Jak Şirak ilə görüşü

20.30-21.00 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Gürcüstanın Prezidenti cənab Eduard Şevardnadze ilə görüşü

21.00-21.30 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Ukraynanın Prezidenti cənab Leonid Kuçma ilə görüşü

21.30-22.00 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Moldovanın Prezidenti cənab Petru Luçinski ilə görüşü

22.00-22.30 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Qazaxıstan Respublikasının Prezidenti cənab Nursultan Nazarbayev ilə görüşü

22.30-23.00 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Türkmənistanın Prezidenti cənab Saparmurad Niyazov ilə görüşü

23.00 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin iqamətgaha gedişi

**19 noyabr, cümə**

07.53 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin "Lütfi Kirdar Mərkəzi"nə gəlişi ("Çırağan sarayı")

08.30 - Avropada adi silahlı qüvvələr haqqında müqavilənin imzalanma mərasimi

09.00-12.30 - Səhər iclası

09.00-09.30 - Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Avropa Komissiyasının sədri cənab Romano Prodi ilə görüşü

10.00-10.30 - Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Almaniya Federativ Respublikasının Kansleri cənab Herhard Şröder ilə görüşü

10.30-11.00 - Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Avropa şurasının Baş katibi cənab Valter Şvimmer ilə görüşü

11.00-12.15 - Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Amerika Birləşmiş ştatlarının Prezidenti cənab Bill Klinton ilə görüşü

12.30.13.00 ATƏT-in İstanbul Zirvə görüşünün bağlanış mərasimi

22.30 Azərbaycan nümayəndə heyətinin avtobuslarla "Konrad" mehmanxanasına gedişi

13.15 Beynəlxalq Mətbuat Mərkəzində yekun mətbuat konfransı ("Lütfi-Kirdar Mərkəzi")

14.00 Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ATƏT-in Parlament Assambleyasının sədri xanım Helle Den ilə görüşü ("Çırağan sarayı")

09.30-10.00 - Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəl ilə görüşü

**20 noyabr, şənbə**

09.10 - Xüsusi təyyarə ilə İstanbul şəhərinin "Atatürk" hava limanından Bakıya uçuş



## Qeydlər

**1. Süleyman Dəmirəl** - Türkiyə Cümhuriyyətinin 9-cu Prezidenti olmuşdur. 2000- ci il mayın 16-da səlahiyyət müddəti bitmişdir. 1924-cü ildə İsparta vilayətinin Cənub-Qərbində yerləşən İslamgöy kəndində anadan olmuşdur. 1949-cu ildə İstanbulun Texniki Universitetini bitirərək mühəndis-hidrotexnik ixtisasını almışdır. Təhsilini bitirdikdən sonra bir müddət ABŞ-da təcrübə keçmişdir. 1954-1960-cı illərdə ölkənin ən iri iqtisadi-dövlət təşkilatı olan su təsərrüfatı idarəsinə baş müdir vəzifəsində çalışmışdır. 1960-cı il 27 may hərbi çevrilişindən sonra istefaya çıxmışdır. Müəyyən müddət Türkiyədə yerləşən bir neçə xarici şirkətin nümayəndəliklərinə rəhbərlik etmişdir. 1961-ci ildə Ədalət Partiyasına daxil olmuş, 1964-cü ildə bu partiyanın sədri seçilmişdir. 1969-cu ildə bu partiya üçün müvəffəqiyyətlə nəticələnən parlament seçkilərində qalib gələrək birpartiyalı hökumətə rəhbərlik etmişdir, 1971-ci ilin martında bu hökumət istefa vermişdir. 1975-ci ildən 1980-cı ilədək daha 4 dəfə Baş nazir vəzifəsində olmuşdur. 1983-cü ildə onun fəal iştirakı ilə Doğru Yol Partiyası təşkil olunmuşdur 1991-ci il oktyabrın 20-də fövqəladə parlament seçkilərindən sonra Sol Demokrat Xalq Partiyası ilə koalisiya şəklində təşkil olunmuş hökumətə başçılıq etmişdir. 1993-cü il may ayında o, Türkiyə Cümhuriyyətinin perzidenti seçilmişdir. Evlidir, övladı yoxdur. - 16.

**2. Knut Vollebek** - Norveçin xarici işlər naziridir. 1946-cı il fevralın 11-də Oppland mahalının Sondra şəhərində anadan olmuşdur. Siyasi biliklər üzrə dərəcə və Norveç İqtisadiyyat və Menecment məktəbində menecment üzrə magistr dərəcəsi almışdır. O, 1973-cü ildən Xarici İşlər Nazirliyində işləmişdir. 1973-1991-ci illərdə Nyu-Dehlidə, Madriddə və Xarrarda diplomatik missiyalarda işləmişdir. 1991-1993-cü illərdə Kosta-Rikada səfir təyin edilmişdir. Xarici İşlər Nazirliyində şöbənin rəhbəri və baş direktor vəzifələrini tutmuşdur. Keçmiş Yuqoslaviyada 1993-cü ilin iyunundan dekabrınadək BMT xətti ilə vasitəçilik missiyasında (Norveçin keçmiş xarici işlər naziri Torvald Stoltberqlə birlikdə) iştirak etmişdir. 1994-cü ildən Xarici İşlər Nazirliyində əməkdaşlıq və inkişaf üzrə baş katibin köməkçisi işləmişdir. 1997-ci ildə Parisdə səfir təyin edilmişdir. Knut Vollebek 1997-ci il oktyabrın 17-də xarici işlər naziri vəzifəsinə təyin edilmişdir. Evlidir, bir uşağı vardır. -17.

**3. Bill Klinton** *(Uilyam Ceferson Blayd adı ilə xaç suyuna çəkilmişdir).* 1946-cı il avqustun 19-da Houp şəhərində anadan olmuşdur. Onun ailəsi iki ildən sonra Hot-Sprinqs şəhərinə köçmüş və o, burada orta məktəbi bitirmişdir. 1964-cü ilin payızında Corctaun universitetinə daxil olmuşdur. 1968-ci ildə həmin universiteti qurtarıb beynəlxalq məsələlər üzrə politoloq ixtisasına yiyələnmişdir. Bu universiteti qurtardıqdan sonra İngiltərənin Oksford universitetinə daxil olmuşdur. 1970-ci ildə ABŞ-a qayıtdıqdan sonra Yel universitetinin hüquq fakultəsinə daxil olmuşdur. 1973-cü ildə Yel universitetini hüquqçu diplomu ilə bitirmişdir. 1976-cı ildə Arkanzas ştatının prokuroru

vəzifəsinə öz namizədliyini irəli sürmüş və seçkilərdə qalib gəlmişdir. Bir müddət keçdikdən sonra Arkanzas ştatının baş prokuroru seçilmişdir. İki ildən sonra bu ştatın qubernatoru olmuş və dörd dəfə dalbadal həmin vəzifəyə seçilmişdir. B.Klinton 1981-1982-ci illərdə fərdi hüquq praktikası ilə məşğul olmuş və Arkanzas universitetində hüquqdan dərs demişdir. 1992-ci ildə ABŞ-ın 42-ci prezidenti seçilmişdir. 1996-cı ildə isə ikinci müddətə ABŞ prezidenti vəzifəsinə seçilmişdir. B.Klinton Hillari Roden Klinton ilə evlənmişdir. Çelsi adlı bir qızı vardır. Qiraəti çox sevir, qolf oynayır, peşəkar səviyyədə saksofon çalır. - 17.

4. **Jak Şirak** - Fransa Respublikasının prezidentidir.1932-ci il noyabrın 29-da anadan olmuşdur. 1957-1959-cu illərdə - İdarəetmə Milli Məktəbinin tələbəsi olmuşdur. 1962-ci ildən - Baş nazir kabinetində işləmişdir. 1967-1968-ci illərdə - sosial məsələlər və məşğulluq məsələləri üzrə dövlət katibi, 1968-1971-ci illərdə - iqtisadi və maliyyə məsələləri üzrə dövlət katibi vəzifəsində çalışmışdır. 1971-1972-ci illərdə - Baş nazir yanında parlamentlə əlaqələr üzrə nazir işləmişdir. 1972-1973-cü - illərdə kənd təsərrüfatı naziri, 1974-cu ildə daxili işlər naziri olmuşdur. 1977, 1983, 1989-cu illərdə Paris şəhərinin meri seçilmişdir. 1986-cı ildə - Baş nazir, 1995-ci il mayın 7-də - Fransa Respublikasının prezidenti seçilmişdir. Evlidir, iki övladı var. - 18.

5. **Robert Koçaryan** - Ermənistanın prezidentidir. 1954-cü il avqustun 31-də anadan olmuşdur. Yerevan Dövlət Politexnik İnstitutunu mühəndis ixtisası üzrə bitirmişdir. 1997-ci ildən Ermənistanın Baş naziri olmuşdur, 1998-ci ildən Ermənistan prezidentidir. - 18.

6. **Lissabon sammiti** - 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in növbəti zirvə toplantısı keçirildi. ATƏT-in üzvü olan 54 ölkənin dövlət və hökumət başçıları iştirak edən həmin zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikasının nümayəndə heyəti də iştirak etdi. Lissabon Zirvə toplantısında müzakirə olunan məsələlər içərisində Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan-Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Zirvə toplantısı çərçivəsində aparılmış danışıqlar və görüşlər zamanı Azərbaycan Respublikası nümayəndə heyəti tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunması, qaçqınların və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması və ümumiyyətlə, münaqişənin sülh yolu ilə həll olunması məsələləri qoyuldu, Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi ATƏT sədrinin bəyanatı qəbul olundu. İlk dəfə olaraq ATƏT çərçivəsində ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü bütün dövlətlər tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın yalnız Azərbaycan Respublikasının tərkibində statusunun müəyyən olunmasının mümkünlüyü öz əksini tapdı. Bəyanatda ifadə edilmiş prinsiplər aşağıdakılardır:

Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü;

Azərbaycanın tərkibində Dağlıq Qarabağa öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyən edilən, Dağlıq Qarabağ üçün ən yüksək özünüidarəetmə dərəcəsi verən hüquqi status;

məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla Dağlıq Qarabağın və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi. - 19.



7. **Minsk qrupu** - ATƏM Şurasının 1992-ci il martın 24-də Helsinkidə keçirilmiş əlavə görüşündə Fəaliyyətdə olan sədr təklif etmişdi ki, ATƏM çərçivəsində qəbul edilmiş prinsiplər, öhdəliklər və müddəaların bazasında Dağlıq Qarabağ böhranının sülh yolu ilə aradan qaldırılması üzrə danışıqlar üçün daimi əsasda işləyən forum yaratmaq məqsədi ilə ən qısa müddətdə ATƏM-in himayəsi altında Dağlıq Qarabağ üzrə konfrans çağırılsın. Nəzərdə tutulurdu ki, Minskdə keçirilməli olan konfransda Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya Federasiyası, ABŞ, Türkiyə, Fransa, Çexiya-Slovakiya Federativ Respublikası və İsveç iştirak edəcəklər. "Minsk qrupu" deyilən qrupda birləşmiş bu ölkələr Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması probleminin siyasi yolla həll olunması sahəsində ATƏM-in səylərində vasitəçilik rolunu öz üzərlərinə götürdülər. Hazırda ATƏT-in Minsk qrupunun tərkibinə aşağıdakı ölkələr daxildirlər: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, Rusiya Federasiyası, ABŞ, Fransa, Türkiyə. Minsk qrupunda Rusiyanı N.Qribkov, Fransanı J.Qayyard, ABŞ-ı K.Kavano təmsil edirlər. -19.

8. **Martti Ahtisaari** - Finlandiyanın Prezidentidir. 1959-cu ildə Pedaqoji Universiteti bitirmişdir. 1960-1963-cü illərdə Karaçidə İsveç - Pakistan Texnologiya İnstitutunda dərs demişdir. 1965-ci ildə Finlandiya Xarici İşlər Nazirliyinin Beynəlxalq kooperasiyanın inkişafı idarəsinə işə girmiş, 1965-1971-ci illərdə həmin idarədə katib, 1971-1972-ci illərdə şöbə müdiri, 1972-1973-cü illərdə kooperasiyanın inkişafı şöbəsi müdirinin müavini, 1973-1977-ci illərdə Tanzaniya Respublikasında səfir (həmçinin Zambiyada, Somalidə və Mozambikdə akkreditə edilmişdir) işləmişdir. O, 1977-1981-ci illərdə BMT-nin Namibiyada komissarı, 1978-1986-cı illərdə Baş katibin Namibiyada xüsusi nümayəndəsi, 1987-1991-ci illərdə BMT Baş katibinin inzibati idarə və idarəetmə üzrə müavini, 1989-1990-cı illərdə Namibiyada missiyanın başçısı, 1992-1993-cü illərdə keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Konfransın yanında Bosniya və Herseqovina İşçi qrupunun sədri, 1993-cü ildə keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Konfransın xüsusi müşaviri və BMT Baş katibinin keçmiş Yuqoslaviyada xüsusi nümayəndəsi olmuşdur. Ahtisaari 1984-1986-cı illərdə xarici işlər nazirinin müavini, Beynəlxalq kooperasiyanın inkişafı idarəsinin rəisi, 1991-ci ildən xarici işlər naziri işləmişdir. 1994-cü ildən Finlandiyanın prezidentidir. - 40.

9. **Ehud Barak** - İsrailin Baş naziridir. 1942-ci ildə anadan olmuşdur. Qüdsdə Xebryu Universitetində fizika və riyaziyyat elmləri bakalavrı dərəcəsi, ABŞ-ın Stenford Universitetində mühəndis sistemlərinin iqtisadiyyatı magistrı dərəcəsi almışdır. O, 1995-ci ildə daxili işlər naziri, 1995-1996-cı illərdə xarici işlər naziri işləmişdir. 1997-ci ildən Zəhmətkeşlər Partiyasının sədridir. Xarici işlər və müdafiə komitəsinin üzvüdür. Ehud Barak 1999-cu ildən İsrailin Baş naziridir. - 43.

**10. Kyel Maqne Bondevik** - Norveçin Baş naziridir. 1947-ci il sentyabrın 3-də Molde şəhərində anadan olmuşdur. İlahiyyat elmləri namizədidir. 1972-1973-cü illərdə Nesodden bələdiyyə şurasının üzvü olmuşdur. 1969-1973-cü illərdə Romstal dənizi dairəsində Stortinqin deputatının köməkçisi işləmişdir. 1973-cü ildən Stortinqin deputatı olmuşdur. 1972-1973-cü illərdə dövlət katibi, 1983-1986-cı illərdə din və təhsil işləri naziri vəzifələrində çalışmışdır. 1989-1990-cı illərdə xarici işlər naziri olmuşdur. 1968-1970-ci illərdə "Gənc Norveç xristian demokratları" partiyası sədrinin müavini, 1970-1973-cü illərdə partiyanın sədri olmuşdur. 1975-1983-cü illərdə Xristian Demokrat Partiyası sədrinin müavini, 1983-1985-ci illərdə Xristian Demokrat Partiyasının sədri olmşdur. 1981-1983, 1986-1989, 1993-1997-ci illərdə Xristian Demokrat Partiyasının parlament qrupuna başçılıq etmişdir. 1973-1977-ci illərdə parlamentin din və təhsil məsələləri, 1977-1983-cü illərdə maliyyə məsələləri, 1986-1989-cu və 1993-1997-ci illərdə xarici işlər və konstitusiya məsələləri, 1990-1993-cü illərdə müdafiə məsələləri daimi komissiyalarının üzvü olmuşdur. 1997-ci il oktyabrın 15-də Baş nazir vəzifəsinə təyin edilmişdir. Evlidir, 3 övladı var. - 46.

**11. Eduard Şevardnadze** - Gürcüstanın prezidentidir.

1928-ci il yanvarın 25-də Lançxuti rayonunun Mamati kəndində anadan olmuşdur. 1946-cı ildə A.Sulikidze adına Kutaisi Pedaqoji İnstitutunu bitirmişdir. 1946-cı ildən komsomol işində çalışmış, Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqının Kutaisi Vilayət Komitəsinin şöbə müdiri, II katibi işləmişdir. 1948-ci ildən 1991-ci ilədək Sovet İttifaqı Kommunist Partiyasının üzvü olmuşdur. 1951-ci ildə Gürcüstan KP MK yanında Partiya məktəbini bitirmişdir. Həmin ildən KP-nin Kutaisi Şəhər Komitəsinin təlimatçısı işləmişdir. 1953-cü ildən KP-nin Kutaisi Şəhər Komitəsində II katib vəzifəsində çalışmışdır. 1957-ci ildən Gürcüstan Komsomolu Mərkəzi Komitəsinin I katibi olmuşdur. 1961-ci ildən Msxeti Rayon Partiya Komitəsinin, sonra Tbilisi şəhərində 1 May Rayon Partiya Komitəsinin I katibi işləmişdir. 1964-cü ildən Gürcüstan SSR ictimai asayişi mühafizə nazirinin I müavini, 1965-ci ildən isə nazir olmuşdur. 1968-ci ildən Gürcüstan daxili işlər naziri vəzifəsində çalışmışdır. 1972-ci ildən KP Tbilisi Şəhər Komitəsinin I katibi seçilmişdir. 1972-1985-ci illərdə Gürcüstan KP MK-nın I katibi olmuşdur. 1985-ci ildən 1990-cı ilin dekabr ayınadək SSRİ xarici işlər naziri olmuşdur. 1992-ci ilin martından Gürcüstan Dövlət Şurasının sədri olmuşdur. Həmin ildə Gürcüstan Parlamentinin sədri, dövlət başçısı seçilmişdir. 1995-ci ilin noyabrında Gürcüstan prezidenti seçilmişdir. 2000-ci il aprelin 9-da ikinci dəfə Gürcüstan prezidenti seçilmişdir. - 49.

**12. Petru Luçinski** - Moldova Respublikasının prezidentidir. 1940-cı il yanvarın 27-də Floreştet rayonunun Redulenly Vek kəndində anadan olmuşdur. 1957-1962-ci illərdə Kişinyev Dövlət Universitetinin tarix və fəlsəfə fakültəsində oxumuşdur. 1960-1971-ci illərdə Moldova komsomol təşkilatının təlimatçısı, şöbə rəisi, katibi, birinci katibi işləmişdir. 1971-1976-cı illərdə Moldova Komunist Partiyasının katibi, 1976-1978-ci illərdə Kişinyov Şəhər Partiya Komitəsinin katibi, 1978-1986-cı illərdə Sov.İKP MK şöbə müdirinin müavini, 1989-1991-ci illərdə Moldova KP MK-nın Birinci katibi, 1991-1992-ci illərdə Sov.İKP MK-nın katibi, Rusiya Elmlər Akademiyasının baş elmi əməkdaşı. Rusiya EA ictimai elmlərin inkişafı fondunun icraçı müdiri, 1992-ci ilin iyulunda



Moldova Respublikasının Rusiyadakı Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 1993-cü ilin fevralında Moldova Respublikası Parlamentinin sədri. 1996-cı il dekabrın 1-də Moldova Respublikasının Prezidenti seçilmişdir. Evlidir, iki övladı var. -64.

**13. Petr Stoyanov** - Bolqarıstan Respublikasının prezidentidir. 1952-ci il mayın 25-də anadan olmuşdur. 1976-cı ildə Kliment Oxridski adına Sofiya Universitetinin hüquq fakültəsini bitirmişdir. 1990-cı ildə Demokratik Qüvvələr İttifaqının mətbuat katibi, 1992-ci ildə ədliyyə nazirinin müavini (1944-cü ildən sonra birinci qeyri-kommunist hökumətində) vəzifəsinə təyin edilmişdir. 1993-cü ildə Demokratik Qüvvələr İttifaqı (DQİ) tərəfindən yaranmış hökumət ilə iste'faya getmişdir. 1993-cü ilin mayında DQİ-nin hüquqi şurasının sədri, 1994-cü ildə 37-ci Xalq Məclisinin (XM) millət vəkili, DQİ parlament fraksiyasının sədri, XM-in gənclər, idman və turizm üzrə komissiyasının sədr müavini seçilmişdir. 1995-ci ildə DQİ-nin daxili siyasət üzrə sədr müavini seçilmişdir. 1996-cı il noyabrın 3-də Bolqarıstan Respublikasının prezidenti seçilmişdir. Alman dilini bilir. Evlidir, iki övladı var. - 66.

**14. Leonid Kuçma** - Ukraynanın prezidentidir. 1938-ci il avqustun 9-da Çerniqovdakı Çaykino kəndində anadan olmuşdur. Dnepropetrovsk Universitetini bitirdikdən sonra, 1960-cı ildən raket-kosmos sahəsində "Yujnı" konstruktor bürosunda işləmişdir. 28 yaşında Baykonur kosmodromunda sınaqlar üzrə texniki rəhbər, 1982-ci ildə baş konstruktor müavini təyin edilmişdir. 1986-1992-ci illərdə "Yujnı" maşınqayırma zavodunun baş direktoru işləmişdir. 1992-ci ilin sentyabrından 1993-cü ilin oktyabrına qədər Ukraynanın baş naziri olmuşdur. 1993-cü ilin dekabrında Ukrayna İstehsalçılar və Sahibkarlar İttifaqının prezidenti seçilmişdir. 1994-cü il iyulun 10-da Ukraynanın prezidenti seçilmişdir. 1999-cu ildə ikinci dəfə Ukraynanın prezidenti seçilmişdir. Dnepropetrovsk Universitetinin professoru, Ukrayna Mühəndislik Akademiyasının akademikidir. Lenin mükafatı və Ukrayna Dövlət mükafatı laureatıdır. Evlidir, bir övladı var. - 68.

**15. Nursultan Nazarbayev** - Qazaxıstan Respublikasının prezidentidir.

1940-cı il iyunun 6-da Almatı vilayətində anadan olmuşdur. 1967-ci ildə Karaqanda metallurgiya zavodunun nəzdində Ali texniki məktəbi bitirmişdir, iqtisad elmləri doktorudur. Əmək fəaliyyətinə 1958-1960-cı illərdə Dneprodzerjinsk texniki peşə məktəbində oxuduğu zaman başlamış, "Kazmetallurqstroy" trestində fəhlə işləmişdir. 1960-cı ildən Karaqanda metallurgiya zavodunda müxtəlif işlərdə çalışmışdır. 1969-cu ildən komsomol və partiya orqanlarında çalışmışdır. 1984-cü ilin mart ayında Qazaxıstan SSR Nazirlər Sovetinin sədri təyin edilmişdir. 1989-1990-cı illərdə Qazaxıstan Kommunist Partiyasının birinci katibi və Ali Sovetinin sədri seçilmişdir. 1990-cı ildə Qazaxıstan Respublikasının Ali Soveti tərəfindən Qazaxıstan Respublikasının prezidenti seçilmişdir. 1995-ci il aprelin 29-da ümumxalq referendumu nəticəsində prezident səlahiyyətləri 2001-ci ilə qədər uzadılmışdır. 1999-cu il yanvarın 10-da keçirilmiş prezident seçkiləri nəticəsində yenidən prezident seçilmişdir. Evlidir, üç qızı var. Tennislə məşğul olur və xalq musiqisi ilə maraqlanır. - 79.

**16. Saparmurad Niyazov** - Türkmənistanın prezidentidir. 1940-cı il fevralın 19-da fəhlə ailəsində anadan olmuşdur. Leninqrad Politexnik İnstitutunu mühəndis-energetik ixtisası üzrə bitirmişdir. Bezmein elektrik stansiyasında işlədikdən sonra respublikanın ictimai-siyasi həyatında fəal iştirak etməyə başlamışdır. Türkmənistan Kommunist Partiyası sıralarında mühüm vəzifələrdə çalışmışdır. 1985-ci ildə Türkmənistan Nazirlər Sovetinin sədri, daha sonra Türkmənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir. 1990-cı il yanvarın 13-də Türkmənistan Ali Sovetinin sədri seçilmişdir. 1990-cı il oktyabrın 27-də ümumrespublika səsverməsi nəticəsində Türkmənistanın prezidenti seçilmişdir. 1999-cu il dekabrın 28-də Türkmənistan Milli Məclisinin qərarı ilə ömürlük prezident seçilmişdir. Evlidir, iki övladı var. - 79.

**17. Bülənd Ecevit** - Türkiyənin baş naziridir. 1944-cü ildə İstanbulda Robert kollecində bakalavr dərəcəsi almışdır. Ankara, London, Harvard universitetlərində təhsil almışdır. 1946-1950-ci illərdə Londonda Türkiyənin mətbuat ofisində işləmişdir. 1950-ci ildən "Ulus" qəzetinin (Respublika Xalq Partiyasının orqanı) şərhçisi, icmalçısı, redaktoru, "Millət" qəzetinin və "Vinston-salem cornal"ın (ABŞ) icmalçısı olmuşdur. O, 1957-1980-ci illərdə parlamentin, 1959-1980-ci illərdə Respublika Xalq Partiyası Mərkəzi Komitəsinin üzvü olmuşdur. Bülənd Ecevit 1961-1965-ci illərdə əmək naziri vəzifəsini tutmuş, 1974-cü ildə hökumət, 1978-ci ildə koalisiyalı hökumət təşkil etmişdir. 1979-cu ildə istefa vermişdir. 1982-ci ildə Sol Demokratik Partiyanı yaratmış, 1987-ci ildə onun sədri seçilmişdir. 1991-ci ildən parlamentin üzvüdür. Bir sıra kitabların müəllifidir.–79.

**18. Madlen Olbrayt** - Madlen Olbrayt – ABŞ-ın Dövlət katibidir. 1937-ci ilin mayında Çexoslovakiyanın Praqa şəhərində anadan olmuşdur. Atası Yozef Korbel çex diplomatı olmuş, İkinci Dünya müharibəsi qurtaqdıqdan sonra BMT-də işləmişdir. M.Olbrayt 1959-cu ildə Uelsi kollecini əla qiymətlərlə bitirib politologiya sahəsində bakalavr dərəcəsi almışdır. 1968-ci ildə magistr dərəcəsinə, 1976-cı ildə Kolumbiya universitetində fəlsəfə doktoru adına layiq görülmüşdür. 1976-cı ildən senator Edmund Maskinin ofisində işləmişdir. İki ildən sonra prezident C.Karterin hökuməti dövründə Milli Təhlükəsizlik Şurasının üzvü seçilmiş, Z.Bjezinskinin rəhbərliyi altında işləmişdir. M.Olbrayt ABŞ prezidenti vəzifəsinə namizədlər U.Mondeyl və M.Dukakisin seçki kampaniyaları zamanı müvafiq olaraq 1984-cü və 1988-ci illərdə xarici siyasət məsələləri üzrə əlaqələndirici işləmişdir. 1989-cu ildən Milli Siyasət Mərkəzinin prezidentidir. 1982-ci ildən beynəlxalq münasibətlər üzrə professordur və Corctaun Universitetinin Xarici Siyasət Məktəbindəki "Qadınlar xarici siyasət xidmətində" proqramının direktorudur. M.Olbrayt 1993-cü ilin fevralında Kabinetin üzvü statusunu almış və ABŞ-ın BMT-dəki daimi nümayəndəsi təyin edilmişdir. Səfir M.Olbrayt BMT-nin Təhlükəsizlik Şurasında Yuqoslaviyada, Haitidə, Ruandada vəziyyətə dair məsələlər üzrə ABŞ siyasətinin hazırlanmasında iştirak etmişdir. O, İraqa qarşı sanksiyaların zəiflədilməsinin fəal əleyhdarıdır, Bosniya və Hersoqovinada hərbi cinayətkarların məsuliyyətə cəlb olunmasının tərəfdarıdır. 1997-ci ilin yanvarından ABŞ-ın Dövlət katibidir. "Polşa: mətbuatın siyasi dəyişikliklərdə rolu", "Mətbuatın siyasi dəyişikliklərdə



rolu – Çexoslovakiya – 1968" və "Sovet diplomatiya xidməti: elitanın profili" əsərlərinin müəllifidir. Çex, polyak, rus və fransız dillərində sərbəst danışır. Boşanmışdır, üç qızı var. - 133.

**19. Romano Prodi** - Avropa Komissiyasının sədridir. 1939-cu il avqustun 7-də Bolonya şəhərində anadan olmuşdur. 1961-ci ildən London kollecində və Harvard Universitetində işləmişdir. 1978-1979-cu illərdə sənaye naziri, 1982-ci ilin noyabrından 1989-cu ilin oktyabrınadək Romada iri dövlət holdinq şirkəti olan Sənayenin Reproduksiyası İnstitunun direktoru olmuşdur.1990-cı ildən 1993-cü ilin mayınadək Bolonya Universitetində sənaye siyasətindən dərs demişdir. 1993-cü ilin mayından 1994-cü ilin iyuluna qədər yenidən Sənayenin Rekonstruksiyası İnstitutunun direktoru olmuşdur. 1996-cı ildən Romano Prodi seçkilərdə qalib gəlmiş Xalq Partiyasından, Solların Demokratik Partiyasından, Yaşıllar Partiyası - "Verdi"dən, "İtaliyanın yeniləşdirilməsi" Partiyasından ibarət olan sol-mərkəzi koalisiyanın lideri olmuşdur. O, 1996-cı il aprelin 21-də parlament seçkilərində İtaliyanın Baş naziri seçilmişdir. 1999-cu ildən Avropa Komissiyasının sədridir. - 139.

### *ŞƏXSİ ADLARIN GÖSTƏRİCİSİ*


AHTISAARI, Martti - 40-42
ANNAN, Kofi - 17
BARAK, Ehud - 43,128-131
BEYKER - 194
BERGER, Semüel 193, 194
BONDEVIK, Kyel Maqne - 46-48,79,89,91,144
BRAUNBEK - 194
BZEJİNSKİ - 194
DEN, Helle - 17,32,141,142-145
DƏMIRƏL,Süleyman - 16,18,19,25,30-32,39,46,52,55,59,63,64,65,69,75,79,80,82,85,87,89-90,91,92,97,99-101,155,157,167,176,190
DOUL - 189
ECEVIT, Bülənd - 79
FON DER STOEL, Maks - 42
HOMBAQ - 41
İVANOV, İqor - 135,160,168,190
İQLBERGER - 194
KALYUJNI,Viktor - 158
KİNQ - 194
KLINTON,Bill - 17,32-35,79,80,82,84,86,87,89,90,91-93,103-107,143,150,158,160,167,186,189,190,193,194
KOÇARYAN, Robert - 18,36,52-53,65,126-127,133,136,155,164
KONSTANTINESKU, Emil - 68
KUÇMA, Leonid - 43,49,68,69,117,167
LUÇINSKI, Petru - 65,68,69,121
META, İlir - 65,
NAZARBAYEV, Nursultan - 79,80,82,85-86,89,122-123,155,167,187
NIYAZOV, Saparmurad - 79,87-88,89,124-125,188
OLBRAYT, Madlen - 133,160,163,168,190,193
ORBAN, Viktor - 55,
PRODI, Romano - 138-141
RİÇARDSON - 92
SIMITIS, Konstantinos - 67
STOYANOV, Petr - 66
ŞEVARDNADZE, Eduard - 49-51,66,67,79,80,82,83-84,86,87,88,89,118-119,167,186
ŞIRAK, Jak - 18,35-37,108-111,143-144,158,167,190
ŞOYQU, Sergey - 68
ŞRÖDER, Herhard - 112-115,144,158,167,190
VEDRIN, Huber - 133,137,160,168,190
VOLLEBEK, Knut - 17,32,40,133,137,144
YELTSIN, Boris - 33,34,37-40




## MÜNDƏRİCAT


Oxucuya ........ 3
İstanbul zirvə görüşü: sülh zamanın hökmüdür ........ 7
Region ölkələri əməkdaşlığı genişləndirirlər ........ 61
Bakı-Ceyhan neft kəməri müstəqilliyə və tərəqqiyə təminatdır ........ 77
Yüksək səviyyədə görüşlər ........ 97
İstanbul sammiti müstəqil Azərbaycan dövlətinin xarici siyasətində yeni uğurdur ........ 150
Əlavələr ........ 197
İmzalanmış sənədlər ........ 198
Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ATƏT-in İstanbul zirvə görüşü ilə əlaqədar Türkiyəyə səfərinin proqramı ........ 201
Qeydlər ........ 205
Şəxsi adların göstəricisi ........ 212

Kitab Azərbaycan Respublikası Prezidentinin Katibliyi
tərəfindən hazırlanmışdır

Kitabın hazırlanmasında
AzərTAc-ın materiallarından istifadə olunmuşdur

nurol
NUROL PRINTING & PACKAGING INDUSTRY INC. • Phone: (+90.312) 267 19 45 (pbx) • Fax: (+90.312) 267 19 50 • Free Information Line: 0 800 314 54 98